# HƏZRƏTİ MUSA

## Quranda Hz.Musanın həyatı və mübarizəsi



HARUN YƏHYA



## MÜƏLLİF HAQQINDA

Harun Yəhya imzasından istifadə edən müəllif 1956-cı il-də Ankarada anadan olmuşdur. Memar Sinan Universitetinin gözəl sənətlər fakültəsində və İstanbul Universitetinin fəlsəfə bölümündə təhsil almışdır. 1980-ci illərdən bu günə qədər imani, elmi və siyasi mövzularda xeyli əsər yazıb. Müəllifin üzərində çalışdığı əsas mövzular elm adı altında təqdim edilən 2 müasir mif olan darvinizm və materializmin puç edilməsidir. Müəllifin bəzi əsərləri 40-dan artıq dilə tərcümə edilmiş və həmin ölkələrdə nəşr edilmişdir. Harun Yəhyanın əsərləri yaş, irq, milliyyət ayrıseçkiliyi salmadan bütün insanlara səslənir. Müsəlmanlara olduğu qədər, müsəlman olmayanlara da xitab edir. Bu kitabların əsas məqsədi oxucunu Allahın varlığı və təkliyi kimi mövzular haqqında fikirləşməyə həvəsləndirərək oxucunun görüşünü açmaq, inamsız sistemlərin batil görüşlərini və çürük quruluşlarını ortaya çıxarmaqdır.

بسم الله الرحمن الرحيم

# MÜƏLLİF VƏ ONUN ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya imzasından istifadə edən müəllif 1956-cı ildə Ankarada anadan olub. Orta məktəbi Ankarada oxuyub. Sonra İstanbulda Memar Sinan Universitetinin gözəl sənətlər fakültəsində və İstanbul Universitetinin fəlsəfə bölümündə təhsil alıb. 80-ci illərdən bu günə qədər imani, elmi və siyasi mövzularda xeyli əsər yazıb. Bununla yanaşı müəllifin təkamülçülərin (darvinistlərin) saxtakarlığını, onların iddialarının heç bir elmi həqiqətə əsaslanmadığını göstərən, habelə darvinizmin qanlı ideologiyalarla şübhəli əlaqələrini üzə çıxaran bir çox mühüm əsərləri var.

Müəllifin bu imzası inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət əlaməti olaraq seçilib: onları yad etmək məqsədilə Harun və Yəhya adlarından istifadə edilib. Rəsulullahın möhürünün müəllif tərəfindən kitabların üz qabığına vurulmasının simvolik mənası isə onların içindəkilərlə bağlıdır. Bu möhür Qurani-Kərimin Allahın sonuncu Kitabı və sonuncu sözü, Peyğəmbərimizin isə peyğəmbərlərin sonuncusu olmasının rəmzidir. Müəllif bütün yazılarında Quranı və Rəsulullahın sünnəsini rəhbər tutur. Bununla da inkarçı düşüncə sistemlərinin bütün əsas iddialarını bir-bir puça çıxarmağı və dinə qarşı yönələn etirazları tamamilə susduracaq sonuncu sözü söyləməyi hədəf seçir. Çox böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhürü bu sonuncu sözü söyləmək niyyətinə bir dua kimi istifadə edilib.

Müəllifin əsərlərindəki əsas məqsəd Quranı bütün dünyada təbliğ etmək, bununla insanları Allahın varlığı, birliyi və axirət kimi əsas iman məsələləri barədə dərindən düşünməyə sövq etmək, inkarçı sistemlərin çürük əsaslarını və batil tətbiqatlarını hər kəsə göstərməkdir.

Harun Yəhyanın əsərləri Hindistandan ABŞ-a, Böyük Britaniyadan İndoneziyaya, Polşadan Bosniya-Hersoqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və MDB ölkələrinə qədər dünyanın əksər ölkələrində maraqla qarşılanır və birnəfəsə oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnak, uyğur, İndoneziya, malay, benqal, bolqar, yapon, xin, Azərbaycan kimi dillərə tərcümə edilən bu əsərlər geniş oxucu kütləsi tərəfindən maraqla izlənir.

Dünyanın dörd bir tərəfində böyük rezonans doğuran bu diqqətəlayiq əsərlər insanların çoxunun iman gətirməsinə, əksər adamların da öz imanını kamilləşdirməsinə səbəb olur. Bu kitabları oxuyan və incələyən hər kəs onlardakı hikməti, habelə yığcam, dolğun, asan başa düşülən səmimi üslubu, həyati həqiqətlərin elmi-məntiqi izahını dərhal görür. Bu əsərlər hər bir kəsə tez bir zamanda təsir etmək, tam nəticə vermək, etirazlara yer qoymamaq və dəlillərin elmiliyi kimi xüsusiyyətlərə malikdir. Bu əsərləri oxuyan və onların üzərində ciddi düşünən adamların materialist fəlsəfəni, ateizmi, başqa batil fikir və fəlsəfələri müdafiə etməsi daha əsla mümkün deyil. Bəziləri müdafiə etsələr belə bunu yalnız inadkarlıq üzündən edəcəklər, çünki onların fikirlərinin əsasları çürükdür.

Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhyanın külliyyatında elmi düşüncə nöqteyi-nəzərindən məğlub ediliblər. Şübhə yoxdur ki, bu xüsusiyyətlər Quranın hikmətindən və onun ifadə etdiyi fikirlərin gözəlliklərindən qaynaqlanır.

Müəllifin özü isə bu əsərlərinə görə lovğalanmır, əksinə, Allahın hidayətinə vasitəçi olmağa niyyət edir. Bundan başqa bu əsərlər nəşr edilərkən heç bir maddi qazanc güdülmür.

Bu həqiqətlər nəzərə alınmalıdır. O zaman məlum olar ki, insanları onlara görmədiyini görməkdə kömək edən, onların hidayətə gəlməsinə səbəb olan belə əsərlərin oxunmasına həvəsləndirməyin özü də çox mühüm xidmətdir. Bu dəyərli əsərləri tanıtmaq əvəzinə insanların zehnini qarışdıran, fikirlərinin qarışmasına səbəb olan, şübhə və tərəddüdləri aradan qaldırmağa, imanı xilas etməyə bir təsiri olmadığı təcrübədən keçirilən kitabları yaymaq yalnız və yalnız əmək və vaxt itkisi demək olacaq. İmanı xilas etməkdən daha çox müəllifin ədəbi gücünü göstərməyə yönəlmiş kitablarda bu təsirin olmayacağı aydındır. Bu mövzu ilə bağlı şübhəsi olanlar varsa, onlar Harun Yəhyanın əsərlərinin yeganə məqsədinin dinsizliyi aradan qaldırmaqdan və Quran əxlaqını yaymaqdan ibarət olduğunu, bu xidmətdəki təsir gücünün, müvəffəqiyyət və səmimiyyətin aydın göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilər. Bunu qəti şəkildə yəqinləşdirmək və anlamaq lazımdır ki, dünyadakı zülm və iğtişaşların, müsəlmanların çəkdiyi əziyyətlərin əsas səbəbi dinsizliyin ideya hakimiyyətidir.

Bunlardan qurtulmağın yolu isə dinsizliyin ideya cəhətdən məğlub edilməsi, imani həqiqətlərin ortaya çıxarılması və Quran əxlaqının insanların dərk edib mənimsəyə biləcəyi şəkildə çatdırılmasıdır. Dünyanı hər gün daha çox zülmə, iğtişaş və fəsadlara məruz qoymaq istəyənlərin niyyətini nəzərə alsaq bəlli olar ki, bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə yerinə yetirilməsi çox vacibdir. Əks təqdirdə çox gec ola bilər. Bu əhəmiyyətli xidmətdə çox böyük bir vəzifəni öz üzərinə götürmüş Harun Yəhyanın külliyyatı Allahın icazəsi ilə XXI əsrdə insanları Quranda bildirilən əmin-amanlığa və barışa, doğruluq və ədalətə, gözəllik və xoşbəxtliyə aparmaqda bir vasitə olacaq.

# HƏZRƏTİ MUSA

**Quranda Hz.Musanın həyatı və mübarizəsi**

**Harun Yəhya**

**Çevirən:** Şəlalə Arifqızı

# OXUCUYA

- Bu kitabda və digər çalışmalarımızda təkamül nəzəriyyəsinin özünü doğrultmamasına və puç olmasına aid fikirlərə geniş yer ayırmağımızın əsas səbəbi adıçəkilən nəzəriyyənin əslində din əleyhinə düşüncə və təlimlərdən ibarət olmasıdır. Yaradılışı və bilavasitə Allahın varlığını inkar edən darvinizm 140 ildir ki, bir çox insanların öz imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olur. Buna görə də bu nəzəriyyənin aldadıcı olduğunu sübuta yetirmək və diqqətə çatdırmaq çox mühüm imani vəzifədir. Bunu insanlara çatdırmaq isə daha vacibdir.
- Bəzi oxucularımızın bəlkə də təkcə bir kitabımızı oxumağa fürsəti olacaq. Buna görə də hər bir kitabımızda bu mövzuya qısa da olsa yer ayırmağı məqsədəuyğun bilirik.
- Nəzərə çatdırılması lazım olan digər bir məsələ də bu kitabların içindəkilərlə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri işığında izah olunur, insanlar Allahın ayələrini öyrənməyə və onlara uyğun yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə bağlı bütün məsələlər isə oxucunun şüurunda heç bir şübhə və ya sual yaratmayacaq şəkildə açıqlanır.
- Bu izahatda istifadə edilən səmimi, sadə və axıcı üslub kitabların 7 yaşdan 70 yaşa qədər hər kəs tərəfindən rahat başa düşülməsini təmin edir. Belə təsirli və dəlil-sübutlu izahat sayəsində kitablar birnəfəsə oxunur. Hətta dini rədd etmək fikrində qəti olanlar da bu kitablarda göstərilən həqiqətlərdən təsirlənir və deyilənlərin doğruluğunu inkar edə bilmir. Bu kitabı və müəllifin digər əsərlərini həm təklikdə, həm də qarşılıqlı söhbət, polemika şəraitində rahat oxumaq mümkündür. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun onları birlikdə oxuması mövzu ilə bağlı fikir və təcrübəsini də bir-biri ilə bölüşməsi səbəbindən yararlı olacaq.
- Bununla belə sadəcə olaraq Allah rizası üçün yazılan bu kitabların tanınmasına və oxunmasına kömək etmək də böyük xidmətdir. Çünki müəllifin bütün kitablarında oxucuya müsbət təsir bağışlayan məsələləri sübut etmək üsulu çox güclüdür. Həmçinin dini izah etmək istəyənlərin əlindəki ən təsirli üsullardan biri də bu kitabları hamının oxumasını təşviq etmək, buna çalışmaqdır.
- Müəllifin digər əsərlərinin üz qabığının şəkillərinin kitabların son hissəsinə əlavə edilməsinin də mühüm səbəbləri var. Kitabı əlinə alan hər bir adam yuxarıda qeyd etdiyimiz xüsusiyyətləri özündə toplayan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə malik olan çoxlu əsərlərin olduğunu görəcək. Eyni zamanda həm dini, həm də siyasi mövzularda istifadə edəcəyi mənbələrin mövcudluğuna şahid olacaq.
- Başqa kitablarda rast gəldiyimiz şəxsi fikirlərə, müəllif qənaətlərinə, şübhəli mənbələrə əsaslanan izahlara, müqəddəslərə qarşı lazım olan ədəb və hörmətə diqqət yetirməyən üslublara, ümidsizliyə aparan şübhəli yazılara və digər çatışmazlıqlara bu əsərlərdə rast gələ bilməzsiniz.

# *İçindəkilər*

*Giriş* ........................................................................................ 8

*Fironun Misir hakimiyyəti və İsrail oğullarının vəziyyəti* ......... 10

*Hz. Musanın anadan olması*.................................................... 17

*Hz.Musanın Misirdən qaçışı* .................................................... 22

*Mədyənə gedişi və orada qalması* ............................................ 26

*Tuva vadisinə gəlməsi və ilk vəhy* ............................................ 30

*Allahın Hz.Musa ilə danışması* ................................................ 32

*Hz.Musanın Hz.Harunu özünə köməkçi kimi istəməsi* ............. 35

*Hz.Musa qissəsi və taleyin sirri*................................................ 38

*Firona edilən təbliğ və istifadə ediləcək üslub* .......................... 42

*Fironun səhv məntiqi*................................................................. 45

*Quranda Misir hökmdarlarının adı* ........................................... 54

*Hz.Musanın sehrbazlarla mübarizəsi* ........................................ 56

*Sehrbazların iman gətirməsi* .................................................. 61

*Saraydakı mömin insan və mübahisələr* .................................. 66

*İsrail oğullarının nankorluğu* ................................................ 73

*Müsibətlər dövrü və Fironun ağılsızlığı* .................................. 75

*Hz. Musanın və xalqının Misiri tərk etməsi və*
*Fironun suda boğulması* ........................................................ 81

*Qarunun təkəbbür göstərməsi və cəzalandırılması* .................... 89

*Hz.Musanın xalqının yolunu azaraq buzova sitayiş etməsi* ....... 96

*Yəhudi xalqının azğın hərəkətləri* .......................................... 105

*Hz.Musa və elm sahibi olan insan* .......................................... 112

*Nəticə* ................................................................................ 117

*Təkamül yalanı* ..................................................................... 123

# Giriş

Bəşəriyyət tarixinə eyni zamanda peyğəmbərlərin tarixi kimi də baxmaq olar. Allah Öz vəhyini insanlara tarixin hər dövründə elçiləri vasitəsilə çatdırmışdır. Elçilər insanlara Allahı anlatmış, onlara Rəbbimizin sözlərini çatdırmışlar.

Quranda əksər peyğəmbərlərin bu təbliğ mübarizəsi müfəssəl şəkildə izah edilir. Onların bu mübarizə zamanı sərgilədiyi davranış, qarşılaşdığı çətinliklər və tapdığı çözüm yolları, göstərdiyi gözəl davranışlar qeyd edilir. Allah Öz elçilərinin başına gələnləri insanlara nümunə olması üçün Quranda qeyd edir. Onların mübarizəsi və əxlaqı indi yaşayan insanlar üçün də nümunədir.

Quranda Peyğəmbərimiz Hz.Məhəmmədlə (s.ə.v.) birlikdə Hz.İsa, Hz.Süleyman, Hz.Yusif, Hz.İbrahim və daha bir çox peyğəmbərdən xəbər verilməklə onların yaşadığı və ibrət ala biləcəyimiz hadisələr göstərilir. Məsələn, Hz.Yusifin qardaşı ilə olan dialoqu, qardaşlarının onu quyuya atması, qul kimi satılması, sarayda qul ikən iftiraya məruz qalıb zindana atılması, oradan da xəzinələrə sahib olması anladılanda burada bizim də ibrət ala biləcəyimiz bir çox imani özəlliklər görünür, ayrıca insan və cəmiyyət psixologiyasına aid hikmətli bilgilər qeyd edilir. Ya da Allahın Quranda "sizin üçün onda gözəl bir nümunə var" deyə söz açdığı Hz.İbrahimin oda atılarkən təvəkkül etməsi və Allaha yönəlməsində, onun həssas və həlim xasiyyətli olmasının bildirilməsində bizim üçün həqiqətən çox gözəl nümunələr var.

Quranda özündən və həyatından ən çox bəhs edilən peyğəmbər isə Hz.Musadır. Hz.Musadan düz 34 surədə bəhs edilir. Quranın üç ayrı böyük surəsində ("Əraf", "Taha" və "Qəsəs" surələri) Hz.Musanın həyatına dair çox müfəssəl məlumatlar verilir. Bütün bu surə və ayələrdə Hz.Musanın körpəliyindən başlayaraq Fironla olan mübarizəsi, xalqın pis davranışı və onlara etdiyi təbliğ çox səhih bir şəkildə qeyd edilir, çətin anlarda göstərdiyi cəsarət nümunə olaraq göstərilir.

Bu kitabda Hz.Musanın Quranda bəhs edilən həyatını incələyəcək, ayələrin işarələri ilə yaşadıqlarını görəcəyik. Diqqət edilməsi lazım gələn vacib məsələ Hz.Musanın həyatının keçmişdə yaşanmış hadisələr kimi yox, günümüzə, şəxsən öz həyatımıza işıq tutan ibrət və nümunələr kimi dəyərləndirmək məsələsidir.



# Fironun Misir hakimiyyəti və İsrail oğullarının vəziyyəti

Qədim Misir mədəniyyəti eyni tarixdə Mesopotamiyada qurulmuş şəhər-dövlətlərlə birlikdə tarixin ən qədim sivilizasiyalarından biridir. Misir dövrünün ən mütəşəkkil sosial və siyasi sistemə sahib olan dövləti kimi tanınır. B.e.ə. 3000-ci illər civarında yazıdan istifadə, Nil çayından faydalanma, ölkənin ətrafının səhralarla əhatə olunması və təbii-coğrafi şəraiti sayəsində kənardan ola biləcək hücumlardan yaxşı qorunması misirlilərin sahib olduğu mədəniyyətin inkişafına xeyli təsir etmişdi.

Ancaq bu sivilizasiya Quranda inkar sisteminin ən açıq və aydın tərif edildiyi "Firon idarəçiliyinin" tətbiq edildiyi bir mədəniyyətdir. Bu cəmiyyətin insanları Allaha qarşı təkəbbür göstərərək haqq dini inkar etmişdilər. Malik olduqları qabaqcıl mədəniyyət, sosial və siyasi quruluşları, hərbi uğurları da onları məhv olmaqdan qurtara bilməmişdi.

Misir tarixinin ən vacib hadisələri isə İsrail oğullarının bu ölkədə olması ilə bağlı idi.

İsrail Hz.Yaqubun başqa bir adıdır. Hz.Yaqubun oğulları "İsrail oğulları" kimi tanınan, sonradan "yəhudi" adlandırılan xalqı təşkil etmişlər. İsrail oğulları Misirə Hz.Yaqubun kiçik oğlu Hz.Yusifin dövründə gəlmişlər. Quranda Hz.Yusifin həyatı "Yusif" surəsində bütün təfsilatı ilə qeyd edilir. Hz.Yusif kiçik yaşlarından başlayaraq bir çox sıxıntılar çəkmiş, böhtanlara və iftiralara məruz qalmışdır. Daha sonra bir iftira nəticəsində düşdüyü zindandan xilas ola-

raq Misir xəzinələrinə sahib olmuşdu. Bunun ardından İsrail oğulları onun rəhbərliyi altında Misirə girməyə başlamışdı. Allah bu hadisə haqda Quranda belə xəbər verir:

**"Yusifin hüzuruna daxil olduqda o, ata-anasını bağrına basıb: "İnşallah əmin olaraq Misirə daxil olun!" - dedi"** ("Yusif" surəsi, 99).

Quranda bildirildiyinə görə, əvvəlcə sülh və əmin-amanlıq içində yaşayan İsrail oğulları zaman keçdikcə Misir cəmiyyətindəki mövqeyini itirməyə başlamış və sonda qul vəziyyətinə düşmüşdülər. Ayələrdən görünür ki, Hz.Musanın gəldiyi zamanda İsrail oğulları belə bir vəziyyətdə yaşayırdılar. Qurana görə, Hz.Musa "qul olan xalqın" bir üzvü kimi Fironun yanına getmişdi. Fironun və adamlarının Hz.Musa və Hz.Haruna verdiyi bu təkəbbürlü cavab bizi bu mövzuda məlumatlandırır:

**"Dedilər: "Bunların tayfası bizə bir qul kimi itaət etdiyi halda, biz özümüz kimi iki adi insana imanmı gətirəcəyik?""** ("Muminun" surəsi, 47).

**İsrail oğullarının Misirə girişini təsvir edən Qədim Misir qravürü.**





**İsrail oğulları Misirdə Fironun hakimiyyəti tərəfindən qul halına salınmış və ən ağır işlərdə işlədilmişdi.**

Ayələrdə bildirildiyinə görə, misirlilər İsrail oğulları üzərində əsl bir quldarlıq sistemi qurmuşdular. Öz işlərində İsrail oğullarından xidmətçi kimi istifadə edir, quldarlığın davam etməsi üçün onları zülm və işgəncə içində saxlayırdılar. Misir cəmiyyətində İsrail oğullarına edilən bu təzyiq o qədər güclənmişdi ki, onların şəxsiyyəti də şübhə altına alınırdı. Özlərinə təhlükə yaradacağını düşünərək əhalinin kişi hissəsinin artmasına mane olur, xidmət üçün istifadə edilən qadınları isə sağ buraxırdılar. Allah İsrail oğullarına xitab edən ayələrdə bu həqiqəti belə açıqlayır:

**"Firon əhli sizə ən ağır işkəncələr verdikləri, oğlan**



**uşaqlarınızı boğazlayıb, qadınlarınızı sağ buraxdıqları zaman Biz sizi onların əlindən xilas etdik. Bunlarda Rəbbiniz tərəfindən böyük bir imtahan var idi"** ("Bəqərə" surəsi, 49).

**"Yadınıza salın ki, sizi Firon əhlinin əlindən qurtardıq. Onlar sizə şiddətli əzab verir, oğullarınızı öldürür, qadınlarınızı isə diri saxlayırdılar. Bu sizin üçün Rəbbiniz tərəfindən böyük bir sınaq idi"** ("Əraf" surəsi, 141).

Misirdə hakim olan bir din vardı. Bu, Fironun ata-babasından qalan qədim bütpərəst bir din idi. Bu batil dinə görə, xeyli tanrı var idi. Firon isə sözdə yer üzündə yaşayan bir tanrı idi. Məhz bu düşüncə ona xalqı qarşısında böyük

bir güc verirdi. Firon və ətrafındakılar Musa peyğəmbəri atalarının dinindən faydalanmaqla sürdükləri həyat tərzinə bir təhlükə sayırdılar. Çünki atalarının dininə görə, böyüklük bütövlüklə Firona aid idi. Fironun bu böyüklük və hər şeyə sahib olmaq istəyi və Hz.Musa ilə Hz.Harunu özünə rəqib görməsi Fironun və ətrafındakıların Hz.Musaya və Hz.Haruna söylədiklərindən də anlaşılır:

**"Onlar: "Bizi atalarımızın tapındığı dindən döndərmək, özünüz də yer üzündə böyüklük etmək üçünmü gəldiniz? Biz sizə iman gətirən deyilik!" - dedilər"** ("Yunus" surəsi, 78).

Firon atalarının dininə görə, özünün tanrı olduğunu iddia edirdi. Hətta həddi aşaraq özünün ən uca Rəbb olduğunu irəli sürürdü:

**"Həqiqətən, mən sizin ən uca Rəbbinizəm!"** ("Naziat" surəsi, 24).

Firon və ətrafındakılar sahib olduqları batil dinə görə, özlərini ilahi şəxslər sayırdılar. Əsl dinin ortaya qoyduğu təvazö, sevgi, şəfqət kimi anlayışlardan tamamən uzaq olduqları üçün təkəbbür göstərib lovğalanırdılar. Bu təkəbbürün nəticəsi olaraq da qaba davranmaqda haqlı olduqlarını hesab edirdilər. Onların bu vəziyyətini Allah bu ayədə xəbər verir:

**"Fironun və onun əyan-əşrafının yanına. Onlar təkəbbürlərinə sığışdırmayıb özlərini yuxarı tutan camaat olaraq qaldılar"** ("Muminun" surəsi, 46).

Firon Misir xalqı üzərində o qədər böyük bir təsirə malik idi ki, hər kəs onun gücünə boyun əymişdi. Bütün Misir torpaqlarının və Nil çayının sahibinin yalnız Firon olduğunu zənn edirdilər:

**"Firon öz qövmünə müraciət edib dedi: "Ey qövmüm!**



**İsrail oğullarının Misirdə qul halına salınması ilə bağlı Qədim Misir qravürü. Şəkildə ön planda Firon və yaxınları, arxa planda isə boyunlarına ip bağlanmış İsrail nəslindən olan qullar görünür.**

**Məgər Misir səltənəti, altımdan axıb gedən bu çaylar mənim deyilmi?! Məgər görmürsünüzmü?!"** ("Zuxruf" surəsi, 51).

Misir üçün Nil həyat deməkdir. Ondan alınan su ilə əkinlər suvarılır, heyvanlar ehtiyaclarını ödəyir, insanlar isə su içə bilirdilər. Beləliklə, Fironun və ətrafındakı aparıcı şəxslərin təsəvvürlərinə görə, bütün bu suyun və torpaqların tək sahibi Firon idi. Fironun bu gücünü hər kəs qəbul etmiş və ona tabe olmuşdu. Firon gücündən daha yaxşı istifadə etmək və insanları öz hakimiyyəti altına daha asan şəkildə almaq üçün onları öz aralarında hissələrə bölmüşdü. Beləcə özünə yaxın seçdikləri ilə zəiflətdiyi hissələri rahat ida-

rə edirdi. Bir ayədə bu vəziyyətə belə diqqət yetirilir:

**"Həqiqətən, Firon yer üzündə baş qaldırıb onun əhalisini zümrələrə bölmüşdü. Onların arasında olan bir tayfanı gücsüz görüb onların oğlan uşaqlarını öldürür, qızlarını isə sağ buraxırdı. O, həqiqətən, fitnə-fəsad törədənlərdən idi!"** ("Qəsəs" surəsi, 4).

Hz.Musa anadan olmamışdan əvvəlki Misirə baxanda ölkənin bütünlükdə fitnə-fəsad və pozğunluqla dolu olduğunu görürük. İnsanlar sırf irqi fərqlərə görə qul edilir, işgəncəyə məruz qalır və oğlan uşaqları səbəbsiz yerə öldürülürdü. Digər tərəfdən, zülm və təkəbbür içində olan Firon özünü yer üzünün tanrısı sayırdı. Çox güclü bir sistemlə hər şeyə hakim olan Firon insanları özünə tabe etmişdi.

Beləliklə, belə bir şəraitdə Allah işgəncə və zülmə son qoyacaq, insanlara Rəbbimizin Özü olduğunu xatırladacaq, təkrarən haqq dini insanlara öyrədəcək və İsrail oğullarını əsarətdən qurtaracaq bir elçi kimi Hz.Musanı göndərdi.

## Hz. Musanın anadan olması

Əvvəlki bölümdə də bəhs etdiyimiz kimi, Hz.Musa çox çətin bir şəraitdə dünyaya gəlmişdir. Dünyaya gələndə həyatı təhlükə qarşısında idi. Firon bütün yeni doğulan oğlan uşaqlarını öldürür, qız uşaqlarını isə kəniz edilməsi üçün sağ buraxırdı. Hz.Musa belə bir təhlükə içində qulların arasında öldürülmək təhdidi ilə yaşamağa başladı. Anası da Hz.Musa üçün qorxurdu. Onun bu qorxusu Allahdan aldığı ilhama qədər davam etdi:

**"Biz Musanın anasına: "Onu əmizdir; elə ki ondan ötrü qorxdun, onu dəryaya at. Qorxma və kədərlənmə. Biz onu sənə qaytaracaq, özünü də peyğəmbərlərdən edəcəyik!" - deyə bildirdik"** ("Qəsəs" surəsi, 7).

Allah Hz.Musanın anasına əgər qorxarsa, nə etmək lazım gəldiyini söyləmişdi. Əgər Fironun adamları Hz.Musanın anadan olduğunu öyrənsəydi, onu sandığın içinə qoyub suya buraxacaqdı. Hz.Musanın anası aldığı vəhyə uyğun hərəkət etdi. Çünki oğlunun həyatından qorxurdu. Hz.Musanı bir sandığa qoydu və axan Nilin sularına buraxdı. Çayın onu necə və hara aparacağını bilmirdi. Lakin Rəbbimizin ilhamı ilə sonda onun yenə özünə qaytarılacağını və peyğəmbər olacağını bilirdi. Hər şeyi Yaradan və onlara nizam verən Allah Hz.Musanı yaratmış, qədərinin (taleyinin) necə olacağını da ona bildirmişdi. Allah daha sonra doğumu ilə bağlı gerçəyi Hz.Musaya belə xatırladacaqdı:

**"Anana vəhy edilməsi lazım olanı vəhy etdiyimiz za-**

**man. "Musanı bir sandığa qoyub çaya at. Qoy çay onu sahilə çıxartsın və Mənə də, ona da düşmən olan birisi onu götürsün"..."** ("Taha" surəsi, 38-39).

Burada üzərində dayanılmalı olan mühüm bir məsələ tale məsələsidir. Ayədə Allah Hz.Musanın anasına suya buraxılmasını söyləmiş və nəticədə onu Fironun götürəcəyini və özünə geri döndərib elçilərdən olacağını bildirmişdi. Yəni Hz.Musa doğulan zaman onun bir sandıq içində suya buraxılacağı, Fironun onu tapacağı, sonda isə Hz.Musanın bir peyğəmbər olacağı bəlli idi. Çünki Allah onun taleyini belə müəyyən etmişdi. Allah bunu Hz.Musanın anasına bildirdi.

Burada Hz.Musanın həyatındakı bütün təfərrüatların ən xırda cizgisinə qədər Allah dərgahında qədərdə təqdir edilməsinə və eynilə təqdir edildiyi kimi gerçəkləşdiyinə diqqət yetirmək gərəkdir. Allahın Hz.Musanın anasına bildirdiyi vəhyin gerçəkləşməsi saysız şərtin tam qədərdə müəyyən edildiyi kimi meydana gəlməsi ilə olmuşdur.

Hz.Musa Fironun adamlarından xilas olaraq suda boğulmadan Fironun sarayına qədər getməsi üçün:

**1.** Uşaq yaşdakı Hz.Musanın qoyulduğu sandığın içinə su dolmamalıdır. Bunun üçün sandıq ustasının sandığı suda üzə biləcək ölçülərdə düzəltməsi lazımdır. Digər tərəfdən, sandığın forması da üzmə sürəti baxımından əhəmiyyətlidir. Nə çox sürətli üzüb Fironun olduğu yeri ötüb keçəcək, nə də yavaş olub geri qalacaq şəkildə olmamalıdır. Tam olması lazım gələn sürətlə hərəkət edəcək şəkildə düzəldilməlidir. Bunların hamısı da sandığı düzəldən ustanın taleyində müəyyən edilmiş təfərrüatlardır. O da bu sandığı bütün lazımi tələblərə uyğun şəkildə hazırlamışdı.

**2.** Sandığı aparan axın nə çox sürətli, nə də yavaş ol-

malı, çayın suları lazımi sürətlə axmalıdır. Yəni Nilin əsasını təşkil edən yağışlar da tam bu cür Allahın yaratdığı qədər ölçüsündə və müəyyən bir hesabla olmuşdu.

**3.** Əsən küləklər də sandığa yenə lazım olduğu kimi təsir etməlidir. Yəni külək də bir tale əsasında əsir. Nə çox əsib sürətlənməli, nə tərs əsib yönünü dəyişdirməli, nə də yavaş əsib sürətini azaltmalıdır.

**4.** Nil boyunca başqa heç kəs sandığı tapmamalıdır. Yəni təhlükəli heç kimsə oradan keçməməli, oradan keçən heç kəs də ona rast gəlməməlidir. Dolayısı ilə Nilin ətrafında yaşayan hər kəs bir tale səbəbindən oradan keçməyəcək və ya sandığı görməyəcəkdi. Həmçinin bu şərt də Allahın müəyyən etdiyi qədərə görə gerçəkləşmişdir.

**5.** Hz.Musanın həyatı kimi Fironun və ailəsinin həyatı da bir taleyə uyğundur. Onlar da tam olmaları lazım olan saatda və olmaları lazım olan yerdə olmalı və Hz.Musanı tapmalıdırlar. Bəlkə Firon ailəsi Nilin kənarına daha tez gəlməyi planlaşdırmış ola bilirdi. Ancaq gecikmələrinə səbəb olan amil də talelərindəki işi dərk edərək lazım gələni təmin etmişdir.

Bunların hamısı Fironun Hz.Musanı tapmasını təmin edən səbəblərdən bir neçəsidir. Hamısı da Allahın Hz.Musanın anasına daha əvvəlcədən vəhy etdiyi sözə uyğun olaraq tam lazımi şəkildə gerçəkləşmişdir. Allahın Hz.Musanın anasına verdiyi söz və həyata keçən digər hadisələr də Allahın əzəldən müəyyən etdiyi taleyə görə baş vermişdir.

Hz.Musanın taleyində olan hadisələr yalnız bəhs etdiklərimizlə bitmir. Onun həyatının hər anı müəyyən bir tale cizgisi ilə hörülmüşdür. O, nə doğulduğu yeri, nə doğulduğu ili, nə öz tayfasını, nə də ana və atasını seçməmişdi. Bunların hamısını Allah müəyyən etmiş və yaratmışdır.

Daha incə və müfəssəl düşünsək, qədərin həyatın bir anına necə mütləq şəkildə hakim olduğunu daha yaxından hiss edə bilərik. Bu qissə də bunu daha çox xatırladaraq üzərində düşünülməsini təmin edir. Allah Hz.Musa qissəsindəki bütün bu təfərrüatlarla bütün insanların və bütün kainatın taleyini da əslində Özünün əvvəlcədən müəyyən etdiyini bizlərə xatırladır.

Hz.Musa Nildə taleyinə uyğun olaraq necə hərəkət edirdisə, Firon və ailəsi də onunla qarşılaşacaqları yerə talelərinə uyğun olaraq getmişdilər. Ayələrdə Firon ailəsinin eynilə Allahın daha öncə Hz.Musanın anasına vəhy etdiyi kimi davrandığı, yəni onu bilmədən himayə altına aldığı belə anladılır:

**"Fironun adamları axırda özlərinə düşmən kəsiləcək və başlarına bəla olacaq Musanı götürüb gəldilər. Həqiqətən, Firon, Haman və onların əsgərləri günahkar idilər. Fironun qadını dedi: "Bu uşaq mənim də, sənin də göz bəbəyimiz olsun. Onu öldürməyin. Ola bilsin ki, bizə bir fayda verər, yaxud da onu oğulluğa götürərik!" Onlar bilmirdilər."** ("Qəsəs" surəsi, 8-9).

Beləliklə, Firon və ailəsi qədərlərinin hara getdiyini bilmədən, ancaq o qədərə tabe olaraq Hz.Musanı tapdılar və onu övlad olaraq yanlarına aldılar. Hətta Hz.Musanı özlərinə fayda gətirmək ümidi ilə yanlarında saxladılar.

Digər tərəfdən isə Hz.Musanın anası oğlunun vəziyyətindən bixəbər olduğu üçün qorxurdu. Allah onun bu vəziyyətə tab gətirməsi üçün ürəyini rahatlamışdı:

**"Musanın anasının ürəyi bomboş olmuşdu. Əgər inananlardan olsun deyə, ürəyinə səbr əta etməsəydik, az qala onu (saraya gətirilmiş körpənin özününkü olduğunu) biruzə verəcəkdi. O, bacısına: "Onun dalın-**

**ca get!" - dedi. O da hiss etdirmədən uzaqdan-uzağa gördü. Bundan qabaq Biz ona süd analarını qadağan etmişdik. Belə dedi: "Sizin ünün o uşağa süd verməyi təmin edəcək, həm də ona qarşı xeyirxah olacaq bir ailəni sizə nişan verimmi?" Beləliklə, gözü aydın olsun, kədərlənməsin və Allahın vədinin haqq olduğunu bilsin deyə, anasına qaytardıq. Lakin onların əksəriyyəti bilməz!"** ("Qəsəs" surəsi, 10-13).

Körpə yaşdakı Hz.Musa onun üçün gələn heç bir süd anasına yaxın durmamış, onların südünü içməmişdi. Çünki Allah ona sadəcə anasının südünü içəcək bir şəkildə tale yazmışdı. Bu hadisə də insanların bütün istəklərinin Allahın müəyyən etdiyi taleyə görə yaşandığının bir nümunəsidir. Hz.Musa axırda anasına ilhamla bildirildiyi kimi, təkrar öz ailəsinə geri döndərildi.

Allah Hz.Musa qissəsində çətin görünən hadisələri asanlıqla yaratdığını və şər kimi görünən hadisələri asanlıqla xeyirə çevirdiyini insanlara göstərir. Bir ananın körpəsinin zalım əsgərlər tərəfindən öldürülmə təhlükəsi ilə qarşılaşması, bundan sonra uşağı xilas etmək üçün onu tək-tənha çaya atması, körpənin ölkənin ən güclü ailəsi tərəfindən tapılıb övladlığa götürülməsi və sonra heç bir anadan süd əmməməsi, körpənin təkrar anasına geri dönməsi... Bu hadisələrin hər biri ayrı-ayrı möcüzələrdir. Bizə Allahın müəyyən etdiyi qədərdəki qüsursuzluğu göstərir. Qədərin hər təfərrüatı möminlər üçün xeyirlə inkişaf edir. Bu nümunədə gördüyümüz kimi, Allah xeyiri gözlənilməyən səbəblərlə həyata keçirir.

## Hz.Musanın Misirdən qaçışı

Allah Quranda Hz.Musa ilə bağlı belə bir hadisəni xəbər verir:

**"(Musa) şəhərə əhalisi xəbərsizkən girdi. Orada iki nəfərin vuruşduğunu gördü. Onlardan biri öz adamlarından, digəri isə düşmənlərindən idi. (Musanın) adamlarından olan kəs düşməninə qarşı ondan imdad istədi. Musa onu vurub öldürdü və dedi: "Bu, Şeytan əməlindəndir. Həqiqətən, o, azdıran, açıq-aşkar bir düşməndir!""** ("Qəsəs" surəsi, 15).

Bu hadisədə Hz.Musa öz tərəfdarlarından birinin qovğasına şahid olur. Kimin haqlı, kimin haqsız olduğuna fikir vermədən öz tərəfdarlarının yanında durur. Digər tərəfdəki insana yumruq vuraraq onu istəmədən öldürür. Hz.Musa böyük səhv etdiyini başa düşür. Bu hadisədə Allah bizə bir dərs verir və bir insanı haqsız olmasına baxmayaraq yalnız öz tərəfdarı olduğu üçün dəstəkləməyin yanlışlığını öyrədir. Hz.Musa öz tərəfdarlarından olanı üstün tutmağını "şeytan işi" adlandırır.

Burada tənqid edilən üslub həqiqətən də tarix boyunca bəşəriyyətə kin və müharibə gətirmişdir və gətirməkdə davam edir. İnsanların haqqa və ədalətə görə deyil, hansı şəkildə olursa olsun öz ailəsini, əşirətini, xalqını, tərəfdarlarını və ya irqini haqlı çıxarmağa yönəlmiş səyləri tarixdəki zülm və çatışmazlıqların ən böyük səbəbidir.

Hz.Musa şeytanın insana verməyə çalışdığı bu pis hissin bir zülm olduğunu vicdanı ilə dərhal anlamış, şeytanın

hiyləsi ilə etdiyi bu səhvə görə tövbə edib Allaha sığınmışdı. Qissənin davamında Hz.Musanın bu nümunəvi və vicdanlı davranışı haqda belə bəhs edilir:

**"Dedi: "Ey Rəbbim! Şübhəsiz ki, mən özüm-özümə zülm etdim. Buna görə məni bağışla!" (Allah Musanı) bağışladı. Həqiqətən, O, bağışlayandır, rəhm edəndir! (Musa) dedi: "Ey Rəbbim! Mənə bəxş etdiyin nemət haqqı mən əsla günahkarlara arxa olmayacağam!""** ("Qəsəs" surəsi, 16-17).

Hz.Musa işlətdiyi xətanı, bir insanı sadəcə öz tərəfdarlarından olduğu üçün qoruduğunu, ancaq əslində ədalətli hərəkət etmədiyini başa düşmüşdü. Lakin tərəfkeşlik Misirdə də hakim idi. Hz.Musa onlardan birini bilmədən öldürmüşdü. İndi onlar öz irqlərini dəstəkləmək üçün Hz.Musanın öldürülməsini istəyə bilərdilər. Bu ehtimal onu qorxutmuşdu:

**"Beləliklə, qorxaraq səhəri şəhərdə nigaranlıq içində qarşıladı. Dünən ondan imdad diləyən kəs fəryad çəkib yenə onu köməyə çağırır. Musa ona dedi: "Sən, doğrudan da, açıq-aşkar bir azğınsan!""** ("Qəsəs" surəsi, 18).

Beləliklə, Hz.Musa ilə Fironun xalqı arasında ikitirəlik başladı. Hz.Musa özünə Firon və ətrafı tərəfindən bir zərər gələcəyi qorxusu ilə gecəni keçirdi. Gündüz isə yuxarıdakı ayələrdə bildirilən hadisələr gerçəkləşdi. Bir gün əvvəl kömək etdiyi insan yenə başqa biri ilə bağlı Hz.Musadan kömək istədi. Çünki ayənin ifadəsi ilə desək, Hz.Musa onun tərəfdarlarından idi və eyni bir gün əvvəl etdiyi kimi o gün də ona yardım edəcəyini fikirləşirdi. Lakin Hz.Musa eyni səhvi bir daha təkrarlamadı. Öz tərəfdarlarından olan adamın səhv olduğunu bildiyi üçün ona kömək etmədi. Əsl

günahkar olan bu insan isə tez Hz.Musanın əleyhinə çıxıb onu tənqid etdi. Onu tənqid edərkən bir gün əvvəl ona kömək göstərərək səhvən adam öldürməsi faktından da Hz.Musa əleyhinə bir dəlil kimi istifadə etdi:

**"Onların hər ikisinin düşməni yaxalamaq istədikdə dedi: "Ya Musa! Sən dünən birini vurub öldürdüyün kimi, məni də öldürmək istəyirsən? Sən yer üzündə ancaq bir zalim olmaq istəyirsən! Sən xeyirxahlıq edənlərdən olmaq istəmirsən!""** ("Qəsəs" surəsi, 19).




**Qədim Misir xəritəsi**

Hz.Musa bir misirlini səhvən öldürmüş bir insanın vəziyyətində idi. Firon və öndə gedənlər Hz.Musanın cəzalandırılmasını və hətta öldürülməsini müzakirə etməyə başladılar. Bu söhbəti eşidən bir insan Hz.Musanın yanına gələrək onu bu haqda xəbərdar etdi. Öldürülməkdən qorxan Hz.Musa şəhərdən ayrılıb Misirdən uzaqlaşdı:

**"Şəhərin kənarından bir nəfər çaparaq gəlib dedi: "Ya Musa! Əyan-əşraf səni öldürmək barəsində məsləhət-məşvərət edirlər. Elə bu saat çıx get. Mən, həqiqətən, sənin xeyirxahlarındanam!" (Musa) qorxu içində göz qoya-qoya oradan çıxıb: "Ey Rəbbim! Məni bu zalim tayfanın əlindən qurtar!" - dedi"** ("Qəsəs" surəsi, 20-21).

Hz.Musanın həyatı ilə bağlı bu həqiqətlər bizə onun xasiyyəti haqda da xəbər verir. Ayələrdə Hz.Musanın şəxsiyyəti haqda məlumatlar verilir və onun həyəcan doğuran bir duruma sahib olduğu aydın olur. Dalaşan iki nəfərdən dərhal tərəfdarının tərəfini saxlamış, digərini isə yumruqla öldürmüş, öldürülməkdən qorxaraq Misirdən çıxmışdı. Bunları edərkən Hz.Musanın həmişə həyəcanlı olduğu aydın olur. Lakin daha sonra Hz.Musa Allahın onunla danışması və onu nəsihətləndirməsi ilə Allahdan başqa heç kəsdən qorxmamağı və əsl mənada Allaha təvəkkül etməyi öyrənmişdi. Bu, Allahın bir insanın xarakterini inkişaf etdirməsinin və onu yetkinləşdirməsinin gözəl bir nümunəsidir.

## Mədyənə gedişi və orada qalması

Hz.Musa onu yetişdirən Fironu və xalqını tərk etdikdən sonra başqa bir yerə - Mədyənə doğru yönəlmişdi (Mədyən Misirin şərqində, Sina səhrasının arxasında yerləşən bir bölgədir. Müasir dövrdə coğrafi məkan olaraq İordaniyanın cənub tərəflərinə uyğun gəlir).

Mədyən sularında heyvanlarını suvara bilməyən iki qadın gördü. Qadınlar çobanlardan çəkinir, bu səbəblə də onların yanına gedib sürülərini suvara bilmirdilər. Lakin ayələrdə də bəhs edildiyi kimi, Hz.Musanın çox güvənilən və etimad doğuran bir görünüşü var idi. Buna görə də qadınlar onunla danışmaqdan çəkinmədilər. Qadınlar Hz.Musaya atalarının yaşlı olduğu üçün heyvanları özlərinin suvarmaq məcburiyyətində qaldıqlarını, ancaq orada çobanlar olduğu üçün sürülərini suvara bilməyəcəklərini söylədilər. Bundan sonra Hz.Musa qadınlara kömək edərək heyvanlarını suvardı:

> **"Mədyən kənarındakı bir quyuya çatanda onun başında bir dəstə adam və onlardan başqa (qoyunlarını özgə heyvanlara qarışmasın deyə) geri çəkən iki qadın görüb dedi: "Sizə nə olub?" Onlar: "Çobanlar sulayıb getməmiş biz su vermirik. Atamız da ixtiyar bir qocadır", - deyə cavab verdilər"** ("Qəsəs" surəsi, 23-24).

Burada Hz.Musanın nəzakətli, incə düşüncəli və yardım-

sevər xarakterinin bir nümunəsini görürük. Diqqət yetirilsə, bu hadisədə Hz.Musa heç tanımadığı iki insanın yanına gedərək onlarla söhbət etmiş, onlara yardım göstərmiş və onların hörmətini qazanmışdı. Digər tərəfdən, ayədə "çobanlar" kimi qeyd edilən insanların Hz.Musanın tam əksinə hərəkət etdiyi aydın olur. Qadınlar Hz.Musa ilə dialoq qura bilsə də onlara, yəni çoban kimi tanıdığımız insanlara hətta yaxınlaşmamışdılar. Bəhs edilən insanlar xarici görünüş etibarilə güvənilməyən insanlar ola bilərlər (Ən doğrusunu Allah bilir).

Deməli, bir müsəlmana yaraşan tərz ayədə "çobanlar" kimi tərif edilən bu insanlara bənzər tərzdən qətiyyətlə çəkinmək, o biri tərəfdənsə Hz.Musadan nümunə götürərək nəzakətli, dərin təfəkkürlü, başqa insanların halını anlayan, görənin dərhal güvəndiyi bir görüntü, üslub və davranış göstərməkdir.

Bu arada Hz.Musanın Allaha tam təslim olmuş ruh halı içində olduğuna da diqqət yetirmək gərəkdir. Hz.Musa doğulub böyüdüyü ölkəni tərk etmək məcburiyyətində idi. İndi isə başına nə gələcəyi hələ məlum deyildi. Bundan sonra həyatı qətiyyən əvvəlki kimi olmayacaqdı. Ancaq Allahın qədərində necə bir həyat hazırladığını hələ o da bilmirdi. Rəbbimizə belə dua etdi:

**"...Sonra da kölgəyə çəkilib dedi: "Ey Rəbbim! Mən Sənin mənə nazil edəcəyin xeyrə möhtacam!""** ("Qəsəs" surəsi, 24).

İnsanın duasındakı səmimiyyət Allahın hər şeyə qadir olduğunu, xeyir və şərin ancaq Ondan gəldiyini və Ondan başqa heç bir dostunun və vəlisinin olmadığını qavraması

və hiss etməsi ilə bağlıdır. Budur, Hz.Musanın yuxarıdakı ayədə bildirilən duası bu sirri tamamən anlamış və Allaha tam təslim olaraq edilən bir duadır. Allah onun bu səmimi duasına cavab vermiş və Hz.Musaya rəhmi gəlmişdi.

Hz.Musanın yeni tanış olduğu iki qadına qarşı göstərdiyi nəzakət onun üçün yeni bir həyata vəsilə olmuşdur. Hz.Musa istirahət edərkən daha əvvəl kömək etdiyi qadınlardan biri gəlib etdiyi yardımın əvəzində mükafatlandırmaq üçün atasının onu dəvət etdiyini söyləmişdi:

**"Sonra biri utana-utana yanına gəlib dedi; "Atam qoyunlarımızı sulamağının haqqını verməkdən ötrü səni çağırır!". (Musa qocanın) yanına gəldikdə başına gələnləri ona söylədi. O kişi dedi: "Qorxma, artıq zalim tayfanın əlindən qurtarmısan!""**("Qəsəs" surəsi, 25).

Hz.Musa Rəbbimizə Ondan gələn hər xeyirə möhtac olduğunu bildirərək dua etmişdi. Allah Hz.Musanın duasına lüzum görərək öldürülmə təhlükəsinin ardınca özünü təhlükəsizlikdə hiss edəcəyi və ona yardımçı olacaq insanları göstərdi. Hz.Musanın güclü və insanların güvəndiyi bir davranışı var idi. Əslində qadınlar da çobanlardan çəkinmələrinə baxmayaraq Hz.Musadan çəkinməmiş, ona güvənib və onunla söhbət etmişdilər. Hətta qadınlardan biri Hz.Musanın güclü və etibarlı olmasından danışaraq onun məvaciblə işə götürməsini atasından xahiş etmişdi:

**"Biri dedi: "Atacan! Onu muzdla tut, çünki bu güclü, etibarlı adam (indiyə qədər) muzdla tutduqlarının ən yaxşısıdır!""** ("Qəsəs" surəsi, 26).

Qadın bu ifadəsi ilə Hz.Musanın necə etibarlı bir insan

kimi tanıdığını açıqca atasına söyləmişdi. Bundan sonra yaşlı adam Hz.Musanın etibarlı bir insan olduğu qənaətinə gəldi, onu qızı ilə evləndirməyə qərar verdi. Hz.Musanın etibarlı görünüşü bu qərara səbəb oldu və yaşlı adam ona belə bir təklif etdi:

"(Ataları) dedi: "Səkkiz il mənə xidmət etmək şərti ilə qızlarımın birini sənə ərə verərəm. Əgər sən tamamlayıb on ilə çatdırsan, bu, artıq sənin tərəfindən olan bir lütfdür. Mən sənə əziyyət vermək istəmirəm. İnşallah, mənim saleh kəslərdən olduğumu görəcəksən!" (Musa) dedi: "Bu mənimlə sənin aranda olan bir təəhhüddür. Bu iki müddətdən hansını

yerinə yetirməkdən mənə qarşı heç bir zor ola bilməz. Allah da dediyimizə şahiddir!"" ("Qəsəs" surəsi, 27-28).

Hz.Musa Qurandan saleh bir müsəlman olduğunu anladığımız yaşlı adamın təklifini qəbul etdi və həyatının bundan sonrakı hissəsini Mədyən şəhərində keçirməyə başladı. Allah onu əvvəlcə öldürülmə təhlükəsində olarkən Nilin suları ilə daşımış, orada boğulma təhlükəsində olarkən Fironun sarayına götürmüşdü. Misirdə təkrar öldürülmə təhlükəsində ikən yenə qurtarıb Mədyən şəhərində təhlükəsizliyə qovuşdurmuşdu.

# Tuva vadisinə gəlməsi və ilk vəhy

Hz.Musa yaşlı adamla bağladığı müqaviləyə tabe oldu. Uzun müddət Mədyən şəhərində qaldı. Danışdıqları vaxt bitdikdə Hz.Musanın müqaviləsi də bitmiş oldu. Həmin müddət başa çatandan sonra Hz.Musa ailəsi ilə birlikdə Mədyən şəhərindən ayrıldı. Ailəsi ilə yolla gedərkən yaxınından keçdiyi Tur dağının ətrafında bir alov gördü. Hz.Musa bu odu gedib gətirə biləcəyini, onunla isinə biləcəklərini, ya da orada olan adamlardan bir xəbər ala biləcəyini düşündü:

**"Musa müddətini başa vurub ailəsi ilə birlikdə yola çıxdığı zaman Tur dağı tərəfdə bir od gördü. O, ailəsinə dedi: "Siz durun. Mən bir od gördüm. Bəlkə, gedib ondan sizə bir xəbər, yaxud bir köz gətirim ki, qızınasınız!""** ("Qəsəs" surəsi, 29).

**"Bir zaman Musa ailəsinə demişdi: "Mən bir od gördüm, mən də gedib ondan sizə bir xəbər, yaxud bir köz gətirim ki, qızınasınız""** ("Nəml" surəsi, 7).

**"O zaman (Musa qarşıda) bir od görüb ailəsinə belə demişdi: "Siz durun. Mənim gözümə bir od sataşdı. Bəlkə, ondan sizə bir köz gətirdim, yaxud odun yanında bir bələdçi tapdım!""** ("Taha" surəsi, 10).

Bu hadisə bizə Hz.Musanın bir başqa nümunəvi hərəkət tərzini göstərir. Hz.Musa ətrafındakı hadisələri diqqətlə izləyən, qarşılaşdığı hadisələrdən nəticə çıxara bilən bir

insandır. Buna səbəb isə Allahın hadisələri məlum bir taleyə və hikmətə görə yaratdığını bilməsidir. O, buna görə hadisə və nəsnələrə istifadə etmək məntiqi ilə yanaşmışdır. Dağda bir alov görüb bu gördüyü hadisəni dəyərləndirməsi və alovun yanına getməsi diqqətli bir mömının davranışının nümunəsidir. Hz.Musanın alovun yanına gedərkən ailəsinin təhlükəsizliyini düşünərək onları özü ilə aparmaması və təkbaşına getməsi də yenə Allahın ona verdiyi ağlın bir nümunəsidir.

## Allahın Hz.Musa ilə danışması

Hz.Musa Tur dağındakı alovun yanına getdikdə çox böyük bir həqiqətlə üz-üzə gəldi. Allah Hz.Musaya bir kolluqdan səsləndi və ona vəhy etdi. Allah bu ilk vəhyi Quranda belə xəbər verir:

**"(Musa) odun yanına gəlib çatdıqda vadinin sağ tərəfində olan mübarək yerdəki ağacdan belə bir nida gəldi: "Ya Musa! Aləmlərin Rəbbi olan Allah Mənəm!"** ("Qəsəs" surəsi, 30).

**"Odun yanına yetişdikdə belə bir nida gəldi: "Ya Musa! Mən, həqiqətən, sənin Rəbbinəm. Ayaqqabılarını çıxart, çünki sən müqəddəs vadidə - Tuvadasan! Mən səni seçdim. Vəhy olunanı dinlə! Mən, həqiqətən, Allaham. Məndən başqa heç bir tanrı yoxdur. Mənə ibadət et və Məni anmaq üçün namaz qıl!"** ("Taha" surəsi, 11-14).

Bu, Hz.Musanın aldığı ilk vəhydir və artıq o, Allahın elçisidir. Allah onu elçi seçdiyini bildirmişdi. Allah ona bir ağacdan səslənərək insanın dünyada nail ola biləcəyi ən şərəfli məqamla şərəfləndirmişdi.

Tur dağında həyata keçən bu hadisədə diqqət edilməli vacib bir məqam var: Allahın Hz.Musa ilə danışması... Allah bir ağacdan Hz.Musaya səslənmişdi. Allah Hz.Musaya onunla danışa biləcək qədər yaxındır. Əslində Allah hər kəsə onunla danışacaq qədər yaxındır. Məsələn, siz bu yazılanları oxuyarkən də Allah sizə ən yaxındır. Sizinlə danışacaq, sizin səsinizi eşidəcək və sizə də Öz səsini eşitdi-

rəcək qədər yaxındır. Allah bizə bizim hər danışığımızı eşidəcək qədər yaxındır. Hətta biz pıçıldasaq belə O, bizi eşidir. Bu həqiqəti Allah Quranda **"...Biz ona şah damarından da yaxınıq"** ("Qaf" surəsi, 16) ayəsi ilə xəbər verir. Allah Hz.Musaya Özünü tanıdıb onun Rəbbi olduğunu söylədikdən sonra ondan əsasını xəbər aldı:

**"Ya Musa! Sağ əlindəki nədir?**

**(Musa) dedi: "O mənim əsamdır. Ona söykənir, onunla qoyunlarıma xəzəl silkələyirəm. O, başqa işlərdə də karıma gəlir!""** ("Taha" surəsi, 17-18).

Şübhəsiz ki, Hz.Musanın əlindəkinin əsa olduğunu Allah bilir. Lakin Hz.Musanı maarifləndirmək və ona Öz gücünü göstərmək üçün əsasını atmasını istəmişdi:

**"Əsanı at! (Musa əsanı yerə atdı). O əsanın ilan kimi qıvrıldığını gördükdə dönüb qaçdı, heç dala da baxmadı..."** ("Qəsəs" surəsi, 31).

**"Əsanı at! (Musa əsasını yerə atdı). O, əsanın ilan kimi qıvrıldığını gördükdə dönüb qaçdı, heç dala da baxmadı..."** ("Nəml" surəsi, 10).

Hz.Musa həmişə işlətdiyi əsasının bir ilana döndüyünü görəndə ayələrdə də bildirildiyi kimi, qorxmuşdu. Ancaq Allah bu hadisə ilə birlikdə Hz.Musanı maarifləndirmiş, ona təslimiyyət və Özündən başqa bir şeydən qorxmamağı öyrətmişdi:

**"...Ya Musa, qorxma! Peyğəmbərlər Mənim hüzurumda qorxmazlar"** ("Nəml" surəsi, 10).

**"(Allah) buyurdu: "Tut onu, qorxma. Biz onu qaytarıb əvvəlki şəklinə salacağıq!"** ("Taha" surəsi, 21).

Hz.Musa ayədə bildirilən əmrə uyğun olaraq əsasını geri almışdı. Həmçinin bu əsa az sonra Firona qarşı işlədəcəyi bir möcüzə olacaqdı. Allah bunun ardınca Hz.Musaya

ikinci bir möcüzəni də vermişdi:

**"Əlini qoynuna qoy ki, əlin eybsiz-qüsursuz, ağappaq çıxsın..."** ("Qəsəs" surəsi, 32).

Hz.Musanın ikinci möcüzəsi isə ayədə xəbər verildiyi kimi, əlinin ağappaq olmasıdır. Musa peyğəmbər bir-birinin ardınca gələn bu hadisələrə görə həyəcana və ayənin ifadəsi ilə desək, dəhşətə qapılmışdı. Ancaq Allah ona özünü ələ almağı və bu möcüzələrlə Fironun yanına getməsini əmr etmişdi:

**"...Əlini özünə tərəf çək ki, vahimə çəkilib getsin. Bu, Firona və onun əyanlarına qarşı sənin Rəbbindən olan iki möcüzədir. Onlar, həqiqətən, fasiq bir tayfadırlar!""** ("Qəsəs" surəsi, 32).

## Hz.Musanın Hz.Harunu özünə köməkçi kimi istəməsi

Hz.Musanın Allahdan vəhy aldığı zaman verdiyi cavablar onun səmimiyyətinə dair nümunələrlə doludur. Hz.Musa qorxduğunu, çəkindiyini, özünə tam güvənmədiyini Allaha çox səmimi bir şəkildə söyləmiş və Ondan kömək istəmişdi. Məsələn, bir misirlini öldürdüyünü, onların da cavab olaraq onu öldürəcəklərindən narahat olduğunu söyləmişdi. Hz.Musanın başqa bir narahatçılığı da özünü yaxşı ifadə edə bilməyəcəyini düşünməsidir. Səlis nitqinin olmadığını düşünürdü və Firona yaxşı xitab edə bilməyəcəyinə görə narahat idi. Buna görə daha səlis danışa bilən qardaşı Hz.Harunun özünə köməkçi kimi verilməsini istəmişdi:

**"Dedi: "Ey Rəbbim! Mən onlardan bir nəfəri öldürmüşəm, qorxuram ki, onlar da məni öldürələr.**
**Qardaşım Harunun dili mənimkindən bəlağətlidir. Onu da mənimlə dediklərimi təsdiqləyəcək bir köməkçi göndər. Onların məni yalançı hesab edəcəklərindən qorxuram!""** ("Qəsəs" surəsi, 33-34).

**"Qardaşım Harunu!**
**Onunla arxamı möhkəmləndir.**
**Onu işimə ortaq et ki, Səni çox təqdis edib şəninə təriflər deyək. Və Səni çox zikr edək"** ("Taha" surəsi, 30-34).

Hz.Musanın Hz.Harunu köməkçi kimi istəməsinin digər

bir səbəbi də yuxarıdakı ayədən də göründüyü kimi, Allahı çoxlu zikr edə bilməkdir. Hz.Musa iki nəfər olsalar Allahı daha çox anacaqlarını düşünmüşdü. Həqiqətən də möminlərin bərabər olması bir-birini mənən dəstəkləməsi, qəflətdən qoruması baxımından çox vacibdir və buna görə Quranda möminlərin bərabər olması haqda bir çox ayələrdə nəsihətlər verilir. Möminlərin Hz.Musa ilə bağlı bu qissədən özləri üçün çıxarmalı olduğu dərslərdən biri də budur.

Allah Hz.Musanın istəklərini qəbul etmişdi. Ona həm təbliğat aparmaqda, həm də güc baxımından dəstəkləmək üçün Hz.Harunu köməkçi kimi verdiyini bildirmişdi:

**"(Allah) buyurdu: "Sənin arxanı qardaşınla möhkəmləndirəcək, ikinizə də dəlil verəcəyik. Onlar ayələrimiz sayəsində sizə heç bir pislik edə bilməyəcəklər. Siz də, sizə tabe olanlar da mütləq qalib gələcəksiniz!""** ("Qəsəs" surəsi, 35).

Allah eyni hadisə haqda başqa ayələrdə də xəbər verir:

**"(Musa) dedi: "Ey Rəbbim! köksümü açıb genişlət; İşimi yüngülləşdir; Dilimdəki düyünü aç ki, sözümü yaxşı anlasınlar! Və mənə öz ailəmdən bir vəzir ver"** ("Taha" surəsi, 25-29).

**"Sən, şübhəsiz ki, Bizi görürsən! (Allah) buyurdu: "Dilədiyin sənə verildi, ya Musa!""** ("Taha" surəsi, 35-36).

Hz.Musanın istəklərinə baxarkən onun tam şəxsi zəifliklərini və istəklərini Allaha çox səmimi bir şəkildə açıqladığını, bunlara görə Allaha dua edib kömək istədiyini görürük. Hz.Musanın duasındakı bu səmimiyyət bütün insanlara nümunədir. İnsan Allaha bütün səmimiyyəti ilə, acizliyini bilərək və Allahın hər şeyi Öz nəzarətində saxladı-

ğını nəzərə alaraq dua etməlidi. Allah hər şeyi bildiyinə, insanın başına gələn hər hadisəyə şahid olduğuna, insanın ağlından keçən hər şeydən xəbərdar olduğuna görə insanın Allahdan bir şeyi gizləməsinə, bunu ört-basdır etməyə çalışmasına gərək yoxdur.

Xülasə, hər bir insan Allaha dünyada heç bir insana yaxın olmadığı qədər səmimi və içdən gələn bir şəkildə yönəlməlidir.

## Hz.Musa qissəsi və taleyin sirri

Tur dağındakı vəhy əsnasında Allah Hz.Musaya lütf kimi qardaşı Hz.Harunu ona köməkçi verəcəyi ilə müjdələmişdi. Sonra da Allah Hz.Musaya ona daha əvvəl verdiyi nemətləri xatırlatmışdı:

**"Sənə bir dəfə nemət bəxş etmişdik. Anana vəhy olunacaq şeyi vəhy etdiyimiz zaman. "(Musanı) bir sandığa qoyub çaya at. Qoy çay onu sahilə çıxartsın və Mənə də, ona da düşmən olan birisi onu götürsün". Gözümün qabağında boya-başa çatdırılasan deyə, Öz tərəfimdən sənə bir sevgi yaratdım. O zaman bacın gedib deyirdi: "Sizə ona baxa biləcək birisini göstərimmi?" Artıq gözü aydın olsun və kədərlənməsin deyə, səni anana qaytardıq. Sən bir nəfəri vurub öldürdün. Sonra**
**Biz səni o qəmdən qurtardıq. Biz səni bir çox sınaqlardan keçirtdik. İllərlə Mədyən əhli içində qaldın. Sonra da taleyinə uyğun olaraq bura gəlib çatdın, ya Musa! Və Mən səni Özümə seçdim!"** ("Taha" surəsi, 37-41).

Bu ayələrdə əksər insanların xəbərsiz olduğu və ya tam qavramadığı tale sirri açıqlanır. Hz.Musa uşaqlığından elçi olana qədərki ömrünün hər anında Allahın əzəldən müəyyən etdiyi taleyinə uyğun yaşamışdır. Bu taledə Allahın təqdiri xaricində heç bir şey yoxdur. Məsələn, əvvəl qeyd etdiyimiz kimi, Hz.Musanın uşaq ikən çaya buraxılan sandığın içində Fironun ailəsinə çatması Allahın qədərdə müəy-

yən etdiyi minlərlə dəqiqliklə həyata keçmişdir.

Hz.Musanın həyatının sonrakı dövrlərində də taleyin mütləq hakimiyyətini görmək mümkündür. Hz.Musa öz xalqından olan adamın davasına qatılmış və şəhərdən çıxmışdır. Mədyən şəhərinə tərəf gedərək orada o qadınlarla qarşılaşmışdır. Mədyən suyuna gələndə çobanlar orada olduğuna görə qadınlar heyvanlarını öz gücləri sayəsində suvara bilməmiş və Hz.Musadan kömək istəmək məcburiyyətində qalmışdılar. Sonra qadınların atası olan yaşlı adam Hz.Musanı dəvət etmiş və buna görə Hz.Musa Mədyən şəhərində bir həyata başlamışdır. Hz.Musa razılaşdığı müddəti tamamladıqdan sonra isə geri dönmüş və dönərkən o alovu görmüşdü. Alovun yanına çatanda da Allahdan vəhy almışdı. Hz.Musanın anadan olduqda boş sandıq içində çayda üzməsi, Fironun onu tapması, sarayda böyüdülməsi, adamı səhvən öldürməsi, Misirdən qaçması, qadınlarla rastlaşması, yaşlı adamla uzun illər yaşaması, bir ailə qurması, sonra geri dönüş yoluna çıxması, vəhy alması və Quranda bəhs edilməyən saysız təfsilatların hamısı Hz.Musanın taleyində olan və anadan olmamışdan əvvəl Allahın müəyyən etdiyi hadisələrdir. Bunların hətta birinin həyata keçməməsi və ya fərqli şəkildə həyata keçməsi mümkün deyil. Çünki bütün insanların taleyi adətən bir videokasetdəki film kimidir. Videokasetdəki səhnənin birini aradan çıxara bilmədiyimiz kimi insanın həyatından da heç bir səhnəni çıxarmaq mümkün deyil. İnsanın həyatı hər anı ilə vahid bir tamdır.

Yuxarıdakı ayələrdə də Allah Hz.Musanın bir taleyi doğruldaraq müqəddəs Tuva vadisinə gəldiyini xəbər verir:

**"...Sonra da taleyinə uyğun olaraq bura gəlib çatdın, ya Musa!"** ("Taha" surəsi, 40).

Bu məsələni yaxşıca düşünüb dərk etmək lazımdır. Bu-

rada sözügedən tale təkcə Hz.Musaya aid deyil. Hz.Musanın anasının taleyində Hz.Musaya hamilə qalmaq vardı. Hz.Musanın doğulacağı gündə və hətta saatda onu dünyaya gətirməsi də Hz.Musanın anasının taleyidir. Hz.Musanın anasının da bir anası-atası var idi. Onların taleyində Hz.Musanın anasını dünyaya gətirmək vardı. Bu, Hz.Musanın atası və bütün soykökü üçün daha da genişləndirilərək nəzərdən keçirilə bilər.

Hz.Musanın Nildə körpə ikən içində üzdüyü sandığı düzəldən dülgər də bunu taleyin hökmü ilə etmişdi. Onun sandığı düzəldəcəyi o, hələ doğulmamışdan əvvəl Allah dərgahında müəyyən edilmiş qədərdədir. O dülgərin doğulmasına səbəb olan adamlar da bir taleyin hökmü ilə yaşamışlar.

Hz.Musanın tərəfkeşlik etdiyi davanı da fikirləşək. Bu dava Hz.Musa orada olduğu an baş vermişdi. Əgər məsələyə səthi baxılsa, "başqa bir anda olsaydı, Hz.Musa orada olmayacaq və hadisələr başqa cür baş verəcəkdi" deyə düşünə bilərlər. Halbuki bu, çox yanlış qiymətləndirmədir. Hz.Musanın qatıldığı dava da olması lazım gələn anda və lazımi şəkildə olmuşdu, çünki o hadisəni də Allah qədərdə təsbit etmişdi. Eyni tale gerçəyi dava edən adamlar və onların orada dava etməsini təmin edən səbəblər üçün də keçərlidir. Eyni gerçək Hz.Musaya qaçmasını tövsiyə edən və öldürüləcəyini xəbər verən insan üçün də keçərlidir. Mədyən suyundakı qadınlar və çobanlar da yenə eyni taleyin bir parçalarıdır.

Bunların hamısını düşünsək, sadəcə Hz.Musa deyil, onunla bağlı hər şey eyni taleyin parçalarıdır. Bunu bir az da inkişaf etdirsək görəcəyik ki, biz də eyni taleyin parçalarıyıq. Biz də sonsuz bilgi və güc sahibi olan Allahın bizim

üçün yaratdığı taleyi yaşayırıq. Hər birimiz adımıza təsbit edilmiş bir taleyə əsasən dünyaya gəldik. Öləcəyimiz an da bir taleyə görə olacaq.

Tale əslində bütün həyatı əhatə edən ilahi bir bilgidir. Hz.Musa anadan olanda elçi olacağı, həyatındakı bütün mərhələlərdən keçəcəyi taleyində necə məlumdursa, bütün bəşəriyyətin və sizin də həyatınız eyni taleyin içindədir. Sizin bu kitabı oxuyacağınız, Hz.Musanın həyatı ilə bağlı təfsilatları öyrənəcəyiniz Hz.Musanın başına bu hadisələr gələrkən, hətta Hz.Musa dünyaya gəlməmişdən də əvvəl Al-



## Firona edilən təbliğ və istifadə ediləcək üslub

Allah Hz.Musa ilə Hz.Harunu Fironun yanına getməmişdən əvvəl xəbərdar etmiş, daima Onu anmalarını və bu işdə heç bir şəkildə iradəsizlik göstərməmələrini əmr etmişdi:

**"Sən və qardaşın möcüzələrimlə gedin və Məni zikr etməkdə zəiflik göstərməyin"** ("Taha" surəsi, 42).

Allah Hz.Musa və Hz.Haruna Misir hakimi olan Fironun yanına getməyi əmr etmişdi. Fironun təkəbbür və inkar içində azmış durumda olduğunu bildirmiş, lakin yenə də ona dini təbliğ edərkən yumşaq bir üslubla danışmalarını əmr etmişdi:

**"Fironun yanına yollanın. O, həqiqətən, azğınlaşıb həddini aşmışdır.**

**Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun!"** ("Taha" surəsi, 43-44).

Bu ayədə də diqqət yetirildiyi kimi, yumşaq söz söyləmək dini təbliğ etməkdə çox vacib bir üsuldur. Bir çox ayədə də ümumi qayda olaraq sözün gözəl olanının seçilməsi əmr edilir. Burada isə qarşıdakı adamın yolunu azmasına baxmayaraq onunla yumşaq davranmaq əmr edilir. Bu da bizə gözəl bir üslubun dinin təbliğ edilməsində nə qədər vacib olduğunu bir daha göstərir.

Hz.Musa ürəyindəki qorxunu Allahın bu əmri əsasında səmimi üslubu ilə təkrarən dilə gətirmişdi. Fironun onu öldürməsindən narahat olduğunu Rəbbimizə söyləmişdi:

**"Onlar: "Ey Rəbbimiz! Bizə şiddətli cəza verməsin-**

## Firona edilən təbliğ və istifadə ediləcək üslub





**Fironun hakimiyyəti mürtəce və əzazil idarə üsuluna sahib idi. O, bununla fəxr edirdi. Yuxarıda Misir Fironunu müxaliflərinin başını parçalayarkən təsvir edən bir barelyef görünür.**

## Fironun səhv məntiqi

Hz.Musa Tur dağında Allahın vəhyi ilə böyük bir elmə sahib olmuş və Allah onu əsasən iki məsələdə maarifləndirmişdi: qədər və təvəkkül. Artıq Hz.Musa bütün həyatının bir tale əsasında var olduğunu və ora bir taleyə görə gəldiyini bilir, bir də Firondan qorxmamağı və Allaha təvəkkül etməyin lazım olduğunu qəti anlayır. Çünki Allah onunladır, onu görür və onun köməkçisidir. Bu məntiqlə hərəkət edən Hz.Musa və Hz.Harun Qurandakı ifadə ilə desək, "günahkar bir xalq" olan Fironun və ətrafındakıların yanına getdilər:

**"Onlardan sonra Musanı və Harunu Firona və camaatına açıq möcüzələrlə peyğəmbər göndərdik. Lakin onlar (iman gətirməyi) özlərinə sığışdırmadılar və günahkar bir tayfa oldular"** ("Yunus" surəsi, 75).

Hz.Musa ilə Firon arasında olan söhbətlər Quranda verilir. Fironun bu söhbətlərdəki sual-cavabına baxsaq, onun çox yanlış düşüncəli olduğu gözə çarpar. Fironun ifadələrindən görünür ki, o, Hz.Musaya qulaq asmaq əvəzinə onu alçaltmağa və böhtan atmağa çalışır. Bu işdə Firon bəzən ətrafındakılardan kömək almağa çalışır, bəzən də ətrafındakıları öz yanlış məntiqinə inandırmağa səy göstərir. Hz.Musanın Fironla olan dialoqu belədir:

**"(Firon:) "Elədə Rəbbiniz kimdir, ya Musa?" - deyə soruşdu. (Musa) belə cavab verdi: "Rəbbimiz hər şeyə öz xilqətini verən, sonra da ona doğru yolu göstərəndir!" (Firon) soruşdu: "Bəs əvvəlki nəsillərin ha-**



**lı necədir?" (Musa) belə cavab verdi: "Onlara dair bilik yalnız Rəbbimin dərgahında olan bir kitabdadır. Rəbbim xəta etməz və unutmaz!" O ki, yer üzünü sizin üçün döşəmiş, orada sizin üçün yollar salmış, göydən yağmur yağdırmışdır. Biz o yağmurla növbənöv bitkilərdən cütlər yetişdirmişik. Yeyin, həm də heyvanlarınızı otarın. Həqiqətən, bunda ağıl sahibləri üçün əlamətlər vardır! Sizi də ondan yaratdıq. Sizi ora qaytaracaq və bir daha oradan çıxardacağıq"** ("Taha" surəsi, 49-55).

Hz.Musa Firona və əhatəsindəkilərə bu açıq təbliği edincə onlar bunu ağıl və vicdanla dəyərləndirmək əvəzinə atalarından qalan batil dini ilə dəyərləndirdi. Onların dininə görə, Firon tanrıdır və bu batil dinə mənsub olanlar Allahın varlığını qəbul etmirlər:



**"Musa açıq-aşkar ayələrimizlə (Firon əhlinin) yanına gəldikdə onlar: "Bu uydurulmuş sehrdən başqa bir şey deyildir. Biz öz ulu babalarımızdan bu barədə heç bir şey eşitməmişik!" -dedilər"** ("Qəsəs" surəsi, 36).

Bu ayədən də anlaşıldığı kimi, Firon xalqı Hz.Musanın Allahın varlığını və birliyini anlatmasındakı məqsədin onların atalarının dinini dəyişdirərək gücü əlinə almaqdan ibarət olduğunu düşündü. Çünki Fironun və çevrəsinin öz dinlərindən qaynaqlanan bəzi imtiyazları vardı. Bu din dəyişsəydi, Firon bütün gücünü itirəcəkdi. Hz.Musaya və onun gətirdiyi dinə də bu nöqteyi-nəzərdən baxır, düşünürdülər ki, Firon və ətrafı xalqı necə əzirsə, bu dəfə də sistem dəyişəcək, hər şey tam tərsinə olacaq. Fironun və xalqının Hz.Musa ilə Hz.Haruna verdiyi aşağıdakı cavab bu səthi baxış bucağının açıq ifadəsidir:

**"Onlar: "Bizi atalarımızın tapındığı dindən döndərmək, özünüz də yer üzündə böyüklük etmək üçünmü gəldiniz? Biz sizə iman gətirən deyilik!" - dedilər"** ("Yunus" surəsi, 78).

Halbuki Fironun və ətrafının "yer üzündə böyüklük etmək üçünmü gəldiniz?" kimi ittihamları qeyri-səmimi bir iftira idi. Hz.Musa Misirə hakim olmağı yox, sadəcə Fironun İsrail oğullarını onunla göndərməsini istəyirdi. Hz.Musanın tələbi qul kimi istifadə edilən və davamlı işgəncələrə məruz qalan İsrail oğullarının sərbəst buraxılması və onların Misirdən getməsinə icazə verilməsi idi:



**Fironu onun yanına gətirilən əsirlər haqqında hökm verərkən göstərən bir təsvir.**

**"Musa dedi: "Ey Firon! Mən aləmlərin Rəbbi tərəfindən göndərilmiş bir peyğəmbərəm!**
**Mən Allah barəsində yalnız haqqı deməyə borcluyam. Mən sizə Rəbbinizdən bir möcüzə ilə gəlmişəm. İndi İsrail oğullarını mənimlə bərabər göndər!""** ("Əraf" surəsi, 104-105).

Ancaq bu tələbə heç bir şəkildə yanaşmayan Firon Hz.Musaya qarşı müxtəlif üsullara əl atdı. Bunlardan biri qarşı tərəfi emosionallığa təhrik etmək idi. Hz.Musanın onun sarayında böyüdüyünü xatırladan Firon bununla həm Hz.Musanı özünə borclu çıxarıb onun üstünə minnət qoymağa, həm də əhatəsindəki insanların yanında onu alçaltmağa çalışdı. Həmçinin Hz.Musanın əvvəl səhvən öldürdüyü adam məsələsini də gündəmə gətirməklə onu çətin vəziyyətə salmağa çalışdı. Hz.Musanın bütün bunlara verdiyi cavab isə taleyə tam təslim və razı olan nümunəvi bir mömin cavabıdır:

**"(Musa Harunla Fironun yanına gedib bu sözləri deyəndən sonra Firon) dedi: "Biz səni körpə uşaqkən yanımıza alıb böyütmədikmi? Sən illərcə yanımızda qalmadınmı? Axırda elədiyini də elədin. Sən nankorun birisən!" (Musa) dedi: "Mən onu edərkən cahillərdən idim. Buna görə də sizdən qorxub qaçdım. Sonra Rəbbim mənə hikmət ehsan buyurdu və məni şəriət sahibi olan peyğəmbərlərdən etdi"** ("Şüəra" surəsi, 18-21).

Söhbətin davamında Hz.Musa saraya gəlməsinin və orada böyüdülməsinin ona Fironun lütfü olmadığını, əksinə, buna zülm səbəbilə məcbur qaldığını izah edir:

**"Boynuma minnət qoyduğun bu nemət də İsrail oğullarını qul etdiyinə görədir"** ("Şüəra" surəsi, 22).

Hz.Musa əvvəl Firondan və ətrafından qorxduğunu söyləsə də Allahın onu xəbərdar etməsi və onunla bərabər olduğunu xatırlatması sayəsində qorxusuz və tam açıq şəkildə Firona təbliğini etdi. Firon Hz.Musadan ilk olaraq Rəbbimizi soruşdu:

**"Firon dedi: "Aləmlərin Rəbbi nədir?"**

**(Musa:) "Əgər yəqin inanacaqsınızsa, O, göylərin, yerin və onların arasında olanların Rəbbidir!" - deyə cavab verdi.**

**(Firon) ətrafındakılara: "Eşitdinizmi?" - dedi.**

**(Musa) dedi: "O sizin də, ulu babalarınızın da Rəbbidir!""** ("Şüəra" surəsi, 23-26).

Burada Hz.Musa Fironun sualına cavab verərkən atalarının dininin keçmədiyini də onlara başa saldı. Çünki onların ataları da azğınlıq içində idi. Keçmişdəki atalarının da Rəbbi Allah idi. Həmçinin Firon bu gerçəyə cavab verə bilməyincə Hz.Musaya iftira atmağa və hədələməyə çalışdı:

**"(Firon:) "Sizə göndərilmiş peyğəmbər, şübhəsiz ki, divanədir!" - dedi.**

**(Musa) dedi: "Əgər düşünə bilirsinizsə, anlayın ki O, şərqin, qərbin və onların ikisinin arasında olanların Rəbbidir!"**

**(Firon:) "Əgər məndən başqa tanrı qəbul etsən, səni mütləq dustaq edəcəyəm!" - dedi**" ("Şüəra" surəsi, 27-29).

Yuxarıdakı ayələrdən də göründüyü kimi, Hz.Musa güclü dəlil və sözlərlə Fironu çətin vəziyyətə saldıqda Firon ona dəlilik iftirası atmışdı. Fironun bunu əhatəsinə söyləməkdə əsl məqsədi Hz.Musanın onlara olan təsirini əngəlləməkdir. Hz.Musanın doğru və təsirli sözləri Fironu qəzəbləndirmişdi. Buna görə Firon qaba xarakterini bir daha

nümayiş etdirmiş, əgər Hz.Musa bu təbliğini davam etdirərsə və onu tanrı kimi qəbul etməzsə, onu həbs edəcəyi ilə hədələmişdi.

Hz.Musa isə bunun cavabında onda elçiliyinin əlaməti olan sənədlərin, dəlillərin olduğunu söylədi və Allahın ona verdiyi iki möcüzəni Firona göstərdi:

**"(Musa) dedi: "Əgər sənə açıq-aşkar bir şey gətirsəm necə?"**
**Firon:) "Əgər doğru deyirsənsə, di onu gətir!" - dedi.**
**(Musa) əsasını atan kimi, o dərhal açıq-aşkar bir əjdaha oldu. Sonra əlini çıxarar-çıxartmaz o, baxanlara ağappaq göründü"** ("Şüəra" surəsi, 30-33).

Hz.Musanın vasitəsilə Allahın iki böyük möcüzəsini görən Firon və ətrafı eşitdikləri sözlərə və gördükləri möcüzələrə baxmayaraq bunların bir sehr vasitəsilə edildiyini düşündülər. Bu fikri bir-birinə də təlqin edərək bu möcüzələrdən təsirlənmələrinə mane olmağa çalışdılar:

**"(Firon) ətrafındakılara dedi: "Şübhəsiz ki, bu, çox bilikli bir sehrbazdır! O öz sehri ilə sizi yurdunuzdan çıxartmaq istəyir. Nə buyurursunuz?""** ("Şüəra" surəsi, 34-35).

Buradakı məntiq inkarçıların ümumi məntiqidir. Qurandaki bir çox qissədə bu cür insanlar və təpkilər anladılıb, bu yanlış məntiq gözlər önünə sərilib. Ataların dininə korkoranə bağlanmağa, dəlilləri gördükləri halda rədd etməyə davam edən bu düşüncə sadəcə Fironun və ətrafının göstərdiyi bir hərəkət deyil. Tarix boyunca inkarçılar özlərinə yalnız bu şəkildə çıxış yolu axtarmışlar. Təkəbbür göstərənlərin bu nöqteyi-nəzəri Quranda belə bildirilir:

**"Yer üzündə haqsız yerə təkəbbürlük edənləri ayə-**

**lərimi anlamaqdan yayındıracağam. Onlar nə möcüzə görsələr, ona inanmazlar. Onlar haqq yolu görsələr, onu qəbul etməz, azğınlıq yolunu görsələr onu özlərinə yol seçərlər..."** ("Əraf" surəsi, 146).

Firon və ətrafı düz yol ola-ola onu mənimsəmək əvəzinə inkarçılığı seçir və azğınlıq yolunu mənimsəyirdi. Onlara göstərilən möcüzələrə baxmayaraq Hz.Musa ilə mübarizəyə girişməyə qərar verdilər. Buna görə də "sehrbazlıq"da təqsirləndirdikləri Hz.Musaya özlərinə uyğun rəqiblər axtarmağa başladılar:

**"Onlar dedilər: "Onu qardaşı ilə birlikdə saxla və şəhərlərə (sehrbazları) yığan adamlar göndər ki, nə qədər bilikli sehrbaz varsa, hamısını tutub gətirsinlər!""** ("Əraf" surəsi, 111-112).

Firon Hz.Musanın göstərdiyi möcüzələrin sehr hiyləsi olduğunu iddia edirdi. Bu möcüzələri öz sehrbazları vasitəsilə aradan qaldıra biləcəyini düşünürdü. Bununla da o, Hz.Musaya qalib gələcək və daha etibarlı bir mövqe tutacaqdı. Firon Hz.Musanı və qardaşı Hz.Harunu asanlıqla öldürə bilərdi, lakin öz ətrafının tövsiyəsinə qulaq asdı. Bu, ona daha cazibədar gəldi. O, daha böyük və davamlı qalibiyyət əldə edəcəyini düşündü. Əslində Allah onları böyük bir məğlubiyyətə və həlaka doğru yaxınlaşdırırdı. Həm də özlərinin ən çox güvəndikləri yerdən.

Qalib gələcəklərinə o qədər əmin idilər ki, görüş yerinin və vaxtının da Hz.Musa tərəfindən seçilməsinə icazə verdilər:

**"(Firon) dedi: "Ya Musa! Sən sehrinlə bizi öz torpağımızdan qovub çıxartmağa gəlmisən? Elədə biz sənə eyni ilə onun kimi bir sehr göstərəcəyik. Bizimlə öz aranda bir vaxt təyin et. Nə biz, nə də sən vədi-**

**mizə xilaf çıxmayaq. Bu əlverişli bir yerdə olsun!" (Musa) dedi: "Sizə verilən vədə sizin bayram gününüz və camaatın toplaşacağı günorta vaxtıdır!""** ("Taha" surəsi, 57-59).

Hz.Musa ayədəki "vaxt təyini" üçün bayram günündə insanların bir yerə toplanacağı bir zaman seçmişdi. Çünki o, bütün insanların bu görüşə şahid olmasını istəyirdi. Bu isə olduqca ağıllı bir seçim idi: bununla da insanlar Hz.Musanın təbliğinə və Fironun və onun sehrbazlarının məğlub olmasına şahid ola biləcəkdi. Bu görüş zamanını Firon da qəbul etdi:

**"Firon dönüb getdi, nəhayət, bütün hiylə vasitələrini yığıb gəldi. Musa onlara dedi: "Vay sizin halınıza! Allaha iftira yaxmayın, yoxsa O sizi əzabla məhv edər. İftira yaxan naümid olar". Onlar öz aralarında öz işləri barədə mübahisə edir və xəlvətcə pıçıldaşırdılar. Onlar dedilər: "Bu ikisi, əlbəttə, sehrbazdır. Onlar öz sehrləri ilə sizi yurdunuzdan qovub çıxartmaq və sizin ən gözəl dininizi yox etmək istəyirlər. Ona görə də bütün hiylə vasitələrinizi toplayın, sonra da səf-səf gəlin. Bu gün qalib gələn nicat tapacaqdır!""** ("Taha" surəsi, 60-64).

## Quranda Misir hökmdarlarının adı

Qədim Misir tarixi boyunca bu ölkədə yaşayan tək peyğəmbər Hz.Musa deyildi. Hz.Yusif də Hz.Musadan daha əvvəl Misirdə yaşamışdı.

Quranda Hz.Musa ilə Hz.Yusif qissələrini oxuduqda diqqəti cəlb edən bir təfsilat da var. Hz.Yusif dövründə yaşayan Misir hökmdarını tanıtmaq üçün Quranda "məlik" kəlməsi keçir:

**"Hökmdar dedi: "(Yusifi) yanıma gətirin, onu özümə ən yaxın (adam) edəcəyəm!" Sonra onunla söhbət etdikdə: "Sən bu gün yanımızda mövqe sahibisən, etibarlı bir şəxssən!" - dedi"** ("Yusif" surəsi, 54).

Bunun əvəzində Hz.Musanın dövründə yaşayan hökmdar barədə Quranda "firon" sözündən istifadə edilir:

**"Biz Musaya doqquz aşkar möcüzə verdik. İsrail oğullarından soruş: Onların yanına gəldikdə, Firon ona: "Ya Musa! Mənə elə gəlir ki, sən ovsunlanmışsan", - demişdi"** ("İsra" surəsi, 101).

Misirin bu iki rəhbərinin fərqli şəkildə adlandırılmasının səbəbini bizə tarixi qeydlər açıqlayır. "Firon" sözü əslində qədim Misirdəki kral sarayına verilən addı. Qədim çarlıq zamanında hökmdarlar bu addan istifadə etmirdilər. Ölkə başçısının Firon adlandırılması Misir tarixində "Yeni çarlıq dövründə" baş vermişdi. Bu dövr 18-ci sülalə ilə başlamış (b.e.ə 1539-1292) və 20-ci sülaləyə qədər "Firon" kəlməsi hörmət məqsədi ilə işlədilən bir sözə çevrilmişdi.

Beləliklə, Qurandakı möcüzəvi üslub burada bir daha ortaya çıxır: Hz.Yusifin həyatı Qədim çarlıq dövrünə uyğun gəlir və buna görə Misir hökmdarı barədə "Firon" deyil, "məlik" sözü işlədilir. Hz.Musanın həyatı isə Yeni çarlıq dövrünə uyğun gəldiyi üçün Misir hökmdarı Quranda "Firon" kimi tanınmışdır.

Əlbəttə, belə fərqləndirmə apara bilmək üçün Misir tarixini bilmək lazımdır. Halbuki əvvəl də bildirdiyimiz kimi, Qədim Misirin tarixi Misir əlifbasının oxuna bilməməsi səbəbindən 4-cü əsr tamamilə unudulmuş və ancaq 19-cu əsrdə yenidən çözülmüşdü. Bir sözlə, Quranın vəhy etdiyi dövr haqda heç kəsin müfəssəl bir bilgisi yoxdur. Bu cəhət Quranın Allahın sözü olduğunu isbat edən saysız dəlillərdən biridir.



## Hz.Musanın sehrbazlarla mübarizəsi

Sehrbazlar Hz.Musa qarşısında öz hünərlərini göstərmək üçün Misirin dörd bir yanından toplanıb Fironun yanına gəldilər. Firon mütləq qalib gələcəyini düşünürdü. Bu cür mübarizədən sonra ətrafındakılar öz hökmdarını qorumalı idilər. Sehrbazlar isə bu mübarizədə üstünlük qazanacaqları halda Firondan necə hədiyyə alacaqlarını həyəcanla gözləyirdilər:

**"Nə qədər bilikli sehrbaz varsa, hamısını tutub gətirsinlər!" Sehrbazlar Fironun yanına gəlib dedilər: "Əgər biz üstün gəlsək, yəqin ki, bizə bir mükafat veriləcək!" (Firon:) "Bəli, şübhəsiz ki, siz ən yaxın adamlardan olacaqsınız!" -deyə cavab verdi"** ("Əraf" surəsi, 112-114).

Firon öz səltənətini möhkəmləndirəcək, sehrbazlar Firona yaxın olacaq və mənfəət əldə edəcəkdilər. Bir yanda Misirin ən bilikli sehrbazları, digər tərəfdə isə əvvəldən tanıdıqları və qul xalqa mənsub olan Hz.Musa və Hz.Harun var idi. Kimin birinci başlayacağına Hz.Musanın qərar verməsini qəbul etdilər:

**"Onlar dedilər: "Ya Musa! Ya sən tulla, ya da biz birinci tullayaq! O dedi: "Xeyr, siz tullayın!" (Sehrbazlar əllərində kini yerə atan kimi) onların sehri üzündən birdən (Musaya) elə gəldi ki, onların ipləri və dəyənəkləri hərəkətə gəlib sürünür"** ("Taha" surəsi, 65-66).

Sehrbazlar sehrlərini atdıqda iplər və əsalar öz-özünə qa-

çırmışlar kimi göründülər. Ayədə də xəbər verildiyi kimi, hamı göz aldadılması ilə ipləri və əsaları qaçan kimi görmüşdü.

Diqqət etsəniz ayədə "elə gəldi ki, onların ipləri və dəyənəkləri hərəkətə gəlib sürünür" deyilir. Yəni əslində bir qaçma, hərəkət etmək hadisəsi yoxdur, sadəcə baxan insanlara elə görünmüşdü. Bu sehrin yalnız göz aldanması olduğu və insanları bu şəkildə təsirləndiyini Allah başqa ayədə də belə xəbər verir:

**"(Musa:) "Siz atın!" -dedi. Onlar atdıqda, adamların gözlərini bağlayıb onları qorxutdular və böyük bir sehr göstərdilər"** ("Əraf" surəsi, 116).

Fironun sehrbazları göstərdikləri illüzyon səhnələri ilə xalq arasında böyük etibar qazanmışdılar. Bunu isə Fironun səltənətini gücləndirmək üçün işlədirdilər. Hər cür sehri "Fironun gücü naminə" edir və bununla Firon sistemini möhkəmləndirirdilər. Firon isə bu sehrbazları maliyyələşdirirdi. Xülasə, ortada qarşılıqlı mənfəət əlaqəsi var idi.



**Fironun sehrbazları misirlilərin bütün dini mərasimlərini də idarə edirdilər. Yuxarıda sehrbazlar bir mumiyalama mərasimi əsnasında təsvir edilir.**

Sehrbazlar da Hz.Musa ilə mübarizəyə girərkən Fironun metafizik bir gücünün olmadığını bildikləri halda sırf mənfəət əldə etmək və onun gözündə yük-

sәlmәk üçün әsalarını atdılar. Bunu edәrkәn qalib gәlәcәklәrinә çox әmin idilәr vә üstün gәlәcәklәrini söylәdilәr:

**"Onlar iplәrini vә әsalarını yerә atıb: "Fironun şan-şövkәtinә and olsun ki, biz üstün gәlәcәyik!" - dedilәr"** ("Şüәra" surәsi, 44).

Sehrbazların göstәrdiyi sәhnәlәr hiylә dә olsa, görәnlәri tәsirlәndirirdi. Quranda bildirildiyinә görә, xalq dәhşәtә düşәndә Hz.Musa da bundan tәsirlәndi vә qorxmağa başladı. Çünki Hz.Musa da bu illüziya sәbәbi ilә iplәri vә әsaları qaçan kimi görmüşdü. Hz.Musa qorxmasın deyә Allah ona xatırlatdı:

**"Musanın canına qorxu düşdü. Biz ona belә buyurduq: "Qorxma, üstün gәlәcәk mütlәq sәnsәn! Sağ әlindәki әsanı yerә tulla, onların düzüb qoşduqlarını udsun. Onların düzәltdiklәri sehrbaz hiylәsindәn başqa bir şey deyildir. Sehrbaz isә, hara gedirsә getsin, mәtlәbinә çatmaz!""** ("Taha" surәsi, 67-69).

Hz.Musa Rәbbimizin bu xatırlatmasından dәrhal sonra sehrbazlara dönüb onların etdiklәrinin bir sehr olduğunu vә Allahın bunları qәbul etmәyәcәyini xәbәr verdi:

**"Onlar (әllәrindәkini yerә) atdıqda Musa dedi: "Sizin etdiyiniz hәr şey sehrdir. Allah, sözsüz ki, onu batil edәcәkdir. Allah fitnә-fәsad törәdәnlәri sevmәz!"** ("Yunus" surәsi, 81).

Bu sözlәrdәn sonra Hz.Musa da әsasını atdı. Nәticә sehrbazlar üçün dәhşәtli idi. Onlar bәzi әşyaları qaçırmış kimi göstәrmәyә çalışıb insanları inandırarkәn Hz.Musanın әsası onların bütün sehrini udmuşdu. Allah bu hadisәlәri haqda ayәlәrdә belә xәbәr verir:

**"Biz dә Musaya: "Əsanı tulla!" - deyә vәhy etdik. Bir dә (baxıb gördülәr ki) әsa onların uydurub düzәltdik-**

**ləri bütün şeyləri udur.**

**Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər"** ("Əraf" surəsi, 117-119).

Hz.Musanın əsası sehrbazların etdiyi illüziya ilə deyil, möcüzəvi bir şəkildə hərəkət edirdi. Sehrbazlar Hz.Musaya bir tələ qurmuşdular. Ancaq plan quranların ən xeyirlisi olan Allah Hz.Musaya onların tələsini keçərsiz edən bir tələ qurmağı əmr etdi. Beləliklə, sehrbazlar qurduqları tələyə özləri düşmüş, Allah bir möcüzə yaradaraq əsaya fövqəladə bir özəllik vermişdi.

**Fironun sehrbazları astronomiyadan təbabətə qədər hər sahədə nüfuza malik idilər. Sahib olduqları məlumatdan cəmiyyətə təsir edə bilmək və beləliklə də Fironun mürtəce idarəçiliyinə əlavə güc qazandırmaq üçün istifadə edirdilər. Yuxarıda sehrbazlar bütün dünyanı öz əllərində saxlayarkən təsvir edən qədim Misir barelyefi.**



Sonda isə hər kəs Firounun sehrbazların qalib gələcəyini düşünərkən çox fərqli bir nəticə ortaya çıxmış və Hz.Musa qalib gəlmişdi. Beləliklə, hər kəs Allahın vədinin haqq olduğunu görmüşdü. Allah Hz.Musanı tənha buraxmamış və Hz.Musa yer üzünün o dövrdəki ən güclü sistemlərindən birinə Rəbbimizmin möcüzəsi sayəsində qalib gəlmişdi.

## Sehrbazların iman gətirməsi

Hz.Musa ilə sehrbazların qarşılaşması Firon, sehrbazlar və tamaşaçı xalq üçün gözlənilməz bir nəticə ilə bitdi. Qalib gələcəklərinə əmin və qürurlu olan sehrbazlar məğlub oldular. Bu məğlubiyyət açıq şəkildə bütün Misir xalqının gözü önündə oldu. Bunun sehrbazlara çox böyük təsiri oldu. Sehrbazların etdikləri bir göz aldanması idi. Bunun gerçək olmadığını sehrbazlar özləri çox yaxşı bilirdilər. Hazırladıqlarını göstərir, hiylə ilə insanları inandırır və özlərinin və dolayısı ilə Firon sisteminin ilahi bir özəlliyi varmış kimi göstərirdilər. Ancaq digər tərəfdə çox fərqli vəziyyət idi. Bu, bir illüzya, ya da göz aldanması deyildi. Həqiqətən Hz.Musanın əsası onların göstərilərini udmuşdu. Sehrbazlar bunun gerçək bir möcüzə, Allahın varlığının və Onun Hz.Musaya olan dəstəyinin bir dəlili olduğunu anladılar və dərhal iman gətirdilər:

**"Onlar (hamı birlikdə) səcdəyə qapanıb dedilər: "Biz iman gətirdik aləmlərin Rəbbinə - Musanın və Harunun Rəbbinə!""** ("Əraf" surəsi, 120-122).

Bir anda hər şey tərsinə dönmüşdü. Qalib gələcəyinə son dərəcə əmin olan və xalqın qarşısında Hz.Musaya qarşı mübarizəyə girişən Firon alçaldı və sehrbazları da Hz.Musaya iman gətirdilər. Firon sehrbazları iman gətirməsini əvvəlcə qəbul edə bilmədi. Çünki azğınların inancına görə, Firon hər şeyin (insanların da) sahibi idi və iman gətirmək üçün insanlara onun icazə verməli olduğunu zənn edirdi:

**"Firon dedi: "Mən sizə izn vermədən əvvəl siz ona**

**iman gətirdiniz?" Bu, şübhəsiz ki, əhalisini çıxartmaq məqsədilə şəhərdə qurduğunuz bir hiylədir. Gördüyünüz işlərə görə başınıza nə oyun açacağımı biləcəksiniz!"** ("Əraf" surəsi, 123).

Qəddarlıqla hökm edən Firon dərhal səhv məntiqi ilə haqlı çıxmağa çalışdı. Ortada böyük bir möcüzə var idi. Sehrbazlar yenilərək Hz.Musaya iman gətirdilər. Firon isə bu möcüzəni görüb iman gətirməkdənsə əksinə, özünün də yalan olduğunu bildiyi saxta izahlar verdi və ssenarilər qurdu. Onun iddiasına görə, sehrbazlarla Hz.Musa bərabər hərəkət edib Misirdə hakim olmaq üçün belə bir şey hazırlamış, hətta sehri də Hz.Musadan öyrənmişdilər:

**"...O, həqiqətdə sizə sehr öyrədən böyüyünüzdür..."** ("Taha" surəsi, 71).

Firon Allahın açıq ayələrini, möcüzəsini görsə də dirənib onlara qarşı çıxırdı. Şübhəsiz, bu, ən dəyişməz inkarçı məntiqlərindən biridir. İnkarçılıqda israr edən insanlar ən açıq möcüzəni görsələr də onu saxta adlandıracaq bir ruh halında olurlar. Öz inkarlarını düzgün göstərmək üçün hər cür məntiqdənkənar yola əl atarlar. Fironun göstərdiyi qəti inadcıllıq Allahın varlığını, birliyini, dinin haqq olduğunu qəbul etmək istəməyən saysız-hesabsız inkarçıda da hər dövrdə və hər cəmiyyətdə görünür.

Ancaq Firon bu inadcıllığın onu xilas etməyəcəyini bilirdi. Sehrbazların məğlub olması və sonra da iman gətirməsi səbəbi ilə onların xalqın arasındakı nüfuzu sarsılmışdı. Fironun bu vəziyyəti düzəltməsi və cəmiyyətə təzyiqini hansısa bir şəkildə davam etdirməsi lazım idi. Buna görə zülmə əl atdı və iman gətirən sehrbazları işgəncə ilə öldürməklə təhdid etdi. Ancaq sehrbazlar Allahın ayəsinin gerçək olduğunu açıqca gördülər və tamamilə Ona tərəf yö-

nəldilər. Bu zaman iman gətirən sehrbazların qərarlı sözlərinə Quranda bir neçə yerdə yer verilir:

**"Mən də sizin əl-ayağınızı çarpaz kəsdirib xurma ağaclarının kötüklərindən asacağam. Onda hansımızın əzabının daha şiddətli və daha sürəkli olduğunu biləcəksiniz! (Sehrbazlar) dedilər: "Biz heç vaxt səni bizə gələn bu açıq möcüzələrdən və bizi yaradandan üstün tutmayacağıq. İndi nə hökm edəcəksənsə, et. Sən ancaq bu dünyada hökm edə bilərsən! Biz, həqiqətən, Rəbbimizə iman gətirdik ki, O bizi günahlarımıza və sənin bizi məcbur etdiyin sehrə görə bağışlasın. Allah daha xeyirli və daha baqidir!"** ("Taha" surəsi, 71-73).

**"Dedilər: "Zərəri yoxdur, biz öz Rəbbimizə tərəf dönəcəyik! Biz ilk iman gətirənlər olduğumuza görə Rəbbimizin xətalarımızı bağışlayacağına ümid edirik!""** ("Şüəra" surəsi, 50-51).

Ayələrdə də xəbər verildiyi kimi, iman gətirən bu insanlar Fironun təhdidləri qarşısında iradə göstərib ona boyun əymədilər. Çünki onlar artıq anlamışdılar ki, öldürsələr də hər şeyi Yaradan, hər şeyin Rəbbi olan, üstün və güclü olan Allaha dönəcəklər. Əvvəlki inkarlarını və dinin əleyhinə olan hərəkətlərini Rəbbimizin bağışlayacağını ummuşdular. Çünki Allah çox bağışlayan və əsirgəməyəndir.

Bu hadisədən sonra Firon öz ətrafına göstərdiyi təzyiqi artırdı. Xalqı bacardığı qədər sındırmağa və çökdürməyə çalışdı. Fironun bu təzyiqi səbəbi ilə Hz.Musanın xalqının arasında sadəcə gənclərdən yaranan bir qrupdan əlavə heç kəs iman gətirmədi. Sehrbazların göstərdiyi səmimiyyət və cəsarət bəhs edilən mömin gənclərdən başqa xalqın əksəriyyəti tərəfindən göstərilmədi. Allah bu həqiqət haqda Qu-

randa belə xəbər verir:

**"Fironun və əyanlarının bəlası qorxusundan Musaya öz qövmündən yalnız kiçik bir dəstə iman gətirdi. Çünki Firon o yerdə hakim idi. O, həddi aşmışdı"** ("Yunus" surəsi, 83).

Hz.Musaya iman gətirənlərin arasında şəxsən Fironun xanımı da var idi. Fironla birlikdə bir çox dünyəvi nemətlər içində yaşayan bu şərəfli xanım Allaha iman gətirərək həm bu nemətləri tərk etməyi, həm də Firon tərəfindən şiddətli bir bəlaya düşməyi gözünün qabağına almışdı. Bu isə şübhəsiz ki, çox səmimi və dərin bir imanın göstəricisidir. Həmçinin Allah Quranda Fironun xanımını da nümunəvi bir mömin qadın kimi Hz.Məryəmlə bərabər tutur:

**"Allah iman gətirənlərə isə Fironun zövcəsini misal çəkdi. O zaman o: "Ey Rəbbim! Mənim üçün Öz dərgahında - cənnətdə bir ev tik, Məni Firondan və onun əməlindən qurtar. Məni zalim qövmdən xilas et!" - demişdi"** ("Təhrim" surəsi, 11).

Fironun xanımının bu səmimi imanı Quranda da bildirildiyi kimi, şübhəsiz ki, bütün müsəlmanlara gözəl bir nümunədir. Bu saleh mömin dünyaya qarşı bütün mənfi istəklərdən sıyrılıb gerçək həyatın axirət olduğunu anlamışdı. Qısamüddətli dünya mənfəətlərini - onlar nə qədər möhtəşəm görünsələr də - sonsuz cənnət nemətlərinə dəyişməmişdi. O, Allahdan cənnətdə bir sığınacaq istəmişdi. Əlbəttə, bu səmimi dua və axirətə könüldən yönəlmiş xarakter hər müsəlmanın sahiblənməli olduğu bir xarakterdir.

**"...İman gətirib yaxşı işlər**
**görənlər isə cənnət bağçalarında olacaqlar.**
**Rəbbinin dərgahında onlar**
**üçün istədikləri hər şey olacaqdır.**
**Budur ən böyük nemət!"**
**("Şura" surəsi, 22).**



## Saraydakı mömin insan və mübahisələr

Yaşanan fövqəladə hadisələrə və seyr edilən möcüzələrə baxmayaraq Firon və ətrafı Hz.Musaya müqavimət göstərdilər. Təkəbbürləri və inadcıllıqları səbəbindən inkar etməkdə davam etdilər və gördüklərinin bir sehr, Hz.Musanın isə bir sehrbaz olduğunu iddia etdilər. Bir sözlə, Hz.Musanı və ona inananları qorxutmaq üçün yeni planlar qurmağa, onlara qarşı cürbəcür təzyiq və işgəncələr tərtib etməyə başladılar:

**"Həqiqətən, Biz Musanı ayələrimizlə və açıq-aydın bir dəlillə göndərdik. Fironun, Hamanın və Qarunun yanına. Onlar isə: "Bu sehrbazdır, yalançıdır!" - dedilər. (Musa) onların yanına dərgahımızdan haqq ilə gəldikdə onlar: "Onunla birlikdə iman gətirənlərin oğlanlarını öldürün, qadınlarını isə diri saxlayın!" - dedilər. Kafirlərin hiyləsi ancaq boşa çıxar. Firon dedi: "Buraxın məni Musanı öldürüm, qoy o da Rəbbini çağırsın. Doğrusu, mən onun sizin dininizi dəyişdirəcəyindən və yer üzündə fitnə-fəsad törədəcəyindən qorxuram". Musa dedi: "Mən haqq-hesab gününə inanmayan hər bir təkəbbür sahibindən həm mənim Rəbbim, həm də sizin Rəbbiniz olan Allaha pənah aparıram!""** ("Mumin" surəsi, 23-27).

Firon Hz.Musanı öldürməklə aradan götürməyi düşünürdü. Firon öz mənfəətinin pozulmasını istəmirdi. Əgər Hz.Musa güclənsəydi, Firon xalqı istədiyi kimi idarə edə bilmə-

yəcəkdi. Buna görə də Hz.Musanı fitnə-fəsad törətməkdə günahlandırıb onun öldürülməsini məntiqəuyğun addım kimi göstərməyə çalışırdı. Ancaq bu dəfə də Fironun ailəsindən bir nəfər Hz.Musaya dəstək verdi və Fironun zülmünə etiraz etdi:

**"Firon ailəsindən olub imanını gizli saxlayan bir kişi dedi: "Məgər siz bir adamı: "Rəbbim Allahdır!" - deməyinə görə öldürəcəksiniz?! Halbuki o, Rəbbinizdən sizə açıq-aşkar möcüzələr gətirmişdir. Əgər o yalan deyirsə, ancaq öz əleyhinədir; yox, əgər doğru danışırsa, onun qorxutduğu əzabın bir qismi sizə toxunar. Şübhəsiz ki, Allah həddi aşanı, yalançını doğru yola müvəffəq etməz. Ey qövmüm! Bu gün hökm sizindir. Yer üzündə qalib olanlar da sizsiniz. Əgər bizə Allahın əzabı gəlsə, ona qarşı kim bizə kömək edə bilər?!" Firon dedi: "Mən sizə ancaq münasib gördüyüm rəyimi bildirirəm, mən sizə ancaq doğru yolu göstəririrəm!" O mömin adam dedi: "Ey qövmüm! Mən sizə bir günün kəlməsindən qorxuram! Nuh, Ad, Səmud qövmünün və onlardan sonra gələnlərin cəzası kimi bir cəza verilməsindən (ehtiyat edirəm), Allah Öz bəndələrinə əsla zülm etmək istəməz! Ey qövmüm! Mən sizə üz verəcək vaveyla günündən qorxuram! (Qorxudan) üz çevirib qaçacağınız gün sizi Allahdan qoruyan tapılmaz. Allahın yoldan etdiyi kimsəyə də yol göstərən olmaz!" And olsun ki, daha öncə Yusif sizə açıq-aşkar dəlillərlə gəlmişdi. Siz onun gətirdiklərinə şəkk edib durursunuz. Nəhayət, vəfat etdikdə: "Allah ondan sonra əsla peyğəmbər göndərməyəcəkdir!" - dediniz. Allah həddi aşan, şəkk içində olan kimsəni belə yoldan azdırar! O kəslər ki, özlərinə heç bir**

**dəlil gəlmədən Allahın ayələri barəsində mübahisə edərlər. Bu həm Allah, həm də iman gətirənlər yanında nifrət artırar. Allah hər təkəbbür sahibinin, zalimin ürəyini belə möhürləyər!"** ("Mumin" surəsi, 28-35).

Saraydakı mömin insanın bu xəbərdarlığı təkəbbürlü və inadkar Firona heç də təsir etmədi. Bu sözlərin onun ətrafına da təsirsiz qalması üçün özünü və bütün Misir xalqını xəbərdar edən bu müsəlmanı lağa qoymağa çalışdı. Köməkçisi Hamana tərəf dönüb kinayəli şəkildə ondan yüksək bir qüllə inşa etməsini istədi:

**"Firon (istehza ilə) dedi: "Ey Haman! Mənim üçün bir uca qəsr tik ki, bəlkə, yollara yetişim - göylərin yollarına (yetişim) və Musanın Allahını görüm. Doğrusu, mən onu yalançı sayıram!" Firona pis əməli beləcə yaxşı göstərildi. O, (haqq) yoldan çıxarıldı. Fironun hiyləsi ancaq boşa çıxdı"** ("Mumin" surəsi, 36-37).

Firon Hamana sözügedən qüllə inşa etməsi əmrini verməklə sadəcə lağ edərək üstün çıxmağa çalışırdı. Hz.Musanın ona təbliğ etdiyi həqiqəti, yəni Allahın varlığını və birliyini qavraya bilmirdi. Firon Allahın göydə olduğunu düşünür, ora çıxıb baxanda bir şey tapılmayacağını deyir, beləliklə də Hz.Musanı kinayə ilə təkzib edirdi.

Fironun ailəsindən olan və gizlincə iman gətirən mömin insan isə Fironun bu hərəkətinə qarşı çıxaraq Allahın və axirətin varlığını onlara açıqca anlatmağa başladı. Onları əzabla xəbərdar etdi. Anlatdığı həqiqətə inanmalarını və ona tabe olmalarını istədi:

**"O mömin adam dedi: "Ey qövmüm! Mənim ardımca gəlin, sizi doğru yola çıxardım! Ey qövmüm! Bu dünya həyatı keçici bir şeydir, axirət isə əbədi yurd-**

**dur! Hər kəs bir pislik etsə, o ancaq pisliyi qədər cəza alar. Amma hər kişi, yaxud qadın mömin ikən bir yaxşılıq etsə, belələri cənnətə daxil olub saysız-hesabsız ruziyə çatar! Ey qövmüm! Bu nə işdir! Mən sizi nicata dəvət etdiyim halda, siz məni cəhənnəmə dəvət edirsiniz! Siz məni Allahı inkar etməyə, bilmədiyim bir şeyi Ona şərik qoşmağa çağırdığınız halda, mən sizi yenilməz qüvvət sahibi olan, çox bağışlayan Allaha çağırıram! Şübhəsiz ki, sizin məni çağırdıqlarınızın nə dünyada, nə də axirətdə çağırmaq qabiliyyəti yoxdur. Bizim axır dönüşümüz isə Allahadır. Həddi aşanlar, sözsüz ki, cəhənnəmlikdirlər! (Allahın əzabını gördükdə) sizə dediklərimi mütləq xatırlayacaqsınız, Mən öz işimi Allaha həvalə edirəm. Həqiqətən, Allah bəndələri görəndir!" Beləliklə, Allah onu onların qurduğu hiylələrin şərindən qorudu. Firon əhlini isə şiddətli əzab sardı"** ("Mumin" surəsi, 38-45).

Firon və çevrəsi qulaqlarını öz aralarından gələn bu saleh möminin xəbərdarlıqlarına da tıxadılar. Bu qədər dəlilə baxmayaraq onların inkarının və əzazilliyinin əvəzi isə əzab olacaqdı.



"Bu, məmləkətlərin xəbərlərindəndir ki, sənə söylədik. Onların bəzisindən əsər-əlamət qalmış, bəzisi ilə yerlə yeksan olmuşdur" ("Hud" surəsi, 100).



# QURANDA QEYD EDİLƏN "HAMAN" KƏLMƏSİ QƏDİM MİSİR YAZILI ABİDƏLƏRİNDƏ DƏ YER ALIR

Quranda Qədim Misir haqqında verilən məlumatların bəziləri yaxın dövrlərə qədər gizli qalmış tarixi məlumatları üzə çıxarır. Bu məlumatlar Qurandakı hər kəlmənin müəyyən bir hikmətə görə işlədildiyini də bizə göstərir.

Quranda Fironla birlikdə adı qeyd edilən insanlardan biri "Haman"dır. Haman Quranın 6 müxtəlif ayəsində Fironun ən yaxın adamlarından biri kimi qeyd edilir.

Bunun əvəzində isə Tövratda Hz.Musanın həyatından bəhs edən hissədə Hamanın adı heç bir yerdə qeyd edilmir. Lakin Haman adı Əhdi-Ətiqin sonrakı hissələrində Hz.Musadan təxminən 1100 il sonra yaşamış və yəhudilərə zülm etmiş bir Babil çarının köməkçisi kimi qeyd edilir.

Quranı Peyğəmbərimiz Hz.Məhəmmədin (s.ə.v.) Tövrat və İncildən çıxış edərək yazdığını iddia edən bəzi qeyri-müsəlmanlar Peyğəmbərimizin (s.ə.v.) bu kitablarda bəhs edilən bəzi məsələləri Qurana guya yanlış qeyd etməsi kimi bir cəfəngiyyat və axmaqlığı ortaya atırlar.

Halbuki bu iddianın tamamilə əsassızlığı Misir heroqlifinin bundan təxminən 200 il əvvəl çözülməsi və Qədim Misir abidələrində "Haman" adının mövcud olması ilə ortaya çıxdı.

O dövrə kimi Qədim Misir dilində yazılan kitabələr və yazılar oxuna bilmirdi. Qədim Misirin dili heroqlif idi. Bu dil mövcudluğunu əsrlər boyu davam etdirdi. Lakin eramızın II və III əsrlərində xristianlığın yayılması və mədəni təsiri ilə Misir dinini olduğu kimi dilini də yaddan çıxardı. Yazılarda heroqlifdən istifadə getdikcə azaldı və heç işlədilməməyə başladı. Heroqlif yazısından istifadə edilən sonuncu tarix eramızın 394-cü ilinə aid bir kitabədir. Bundan sonra bu dil yaddan çıxdı. Bu dildə yazılmış yazıları oxuya bilən və başa düşən heç kim qalmadı. Ta bundan təxminən iki əsr əvvələ qədər...

Qədim Misir heroqlifi 1799-cu ildə Rozetta Stoun adı verilən və b.e.ə. 196-cı ilə aid bir kitabənin tapılması ilə oxundu. Bu daş lövhənin xüsusiyyəti onun üç müxtəlif yazı ilə yazılması idi: heroqlif, demotik (heroqlifin əlyazma şəkli) və yunan dilində. Yunan dilindəki mətnin köməyi ilə lövhədəki Qədim Misir yazısını oxumağa çalışdılar. Lövhənin bütöv oxunuşu Jan-Fransis Şampolyon adlı bir fransız tərəfindən tamamlandı. Beləliklə, yaddan çıxarılan bir dil və bu dilin anlatdığı tarix aydınlaşmağa başladı. Bunun sayəsində Qədim Misir mədəniyyəti, onların dinləri və sosial həyatı haqqında çox şey öyrənildi.

Heroqlifin oxunması ilə mövzumuzla bağlı olan çox mühüm bir məlumat da əldə edildi: "Haman" adından Misir abidələrində həqiqətən də bəhs edilirdi. Vyanadakı Hoff Muzeyində mövcud olan bir abidə üzərində bu addan bəhs edilirdi. Eyni abidədə Hamanın Firona olan yaxınlığından da söhbət açılırdı (Walter Wreszinski, "Aegyrtische Inschriften aus dem K.K.Nof Museum in Wien", 1906, Y.C.Ninrichs'sche Buchhandlung).

Bütün abidələrə əsaslanaraq hazırlanan "Yeni çarlıqdakı insanlar" lüğətində isə Hamandan "Daş ocaqlarında çalışanların başçısı" kimi bəhs edilirdi

(Nermann Ranke, "Die Agyrtischen Personennamen, Verzeichnis der Namen, Verlag Von YY Augustin in Glğckstadt", Band I, 1935, Band II, 1952).

Ortaya çıxan nəticə isə mühüm bir həqiqəti ifadə edirdi. Haman Qurana qarşı gələnlərin iddiasının əksinə olaraq eynilə Quranda qeyd edildiyi kimi, Hz.Musanın dövründə yaşayan bir insan idi və Quranda bəhs edildiyi kimi, o, Fironun yaxın adamlarından idi və inşaat işləri ilə məşğul olurdu.

Həmçinin Quranda Fironun qüllə inşa etmək işini Hamandan istədiyini bildirən ayə də bu arxeoloji tapıntı ilə tamamilə uyğun gəlir:

**"Firon dedi: "Ey əyanlar! Mən sizin üçün özümdən başqa bir tanrı olduğunu bilmirəm. Ey Haman! Mənim üçün od qalayıb palçıqdan kərpic bişir və bir qüllə tikdir ki, bəlkə, Musanın tanrısına tamaşa edim. Axı mən onu, həqiqətən, yalançı sayıram!"** ("Qəsəs" surəsi, 38).

Nəticədə Qədim Misir abidələrində Hamanın adının tapılması Quran əleyhinə bəzi məcburi iddiaları ortaya atanların bir iddiasını da puç etməklə qalmayıb Quranın həqiqətən Allah dərgahından olduğunu bir daha göstərdi. Çünki Peyğəmbərimizin (s.ə.v.) dövründə əldə edilməsi və oxunması mümkün olmayan bir tarixi məlumat Quranda bizə möcüzəli şəkildə çatdırılmışdı.

**XIX əsrdə Misir heroqlifləri oxunana qədər "Haman" ifadəsi bəlli deyildi. Heroqliflər oxunan kimi Hamanın Fironun yaxın köməkçisi və "daş ocaqlarının başçısı" olması məlum oldu. (Yuxarıda inşaat işçiləri). Diqqət edilməli olan məsələ Quranda da Hamanın Fironun əmrində inşaatı idarə edən bir insan olduğu aydınlaşır. Yəni Quranda o dövrdə heç bir insan tərəfindən bilinməyəcək bir məlumat verilmişdi.**



## İsrail oğullarının nankorluğu

Sehrbazlarla qarşılaşmasından sonra Hz.Musa uzun müddət Misirdə qaldı. Bu müddətdə Fironun Hz.Musaya və İsrail oğullarına təzyiqləri davam etdi. Hz.Musa bir tərəfdən Firon və onun təzyiqləri ilə mübarizə edərkən digər tərəfdən də İsrail oğullarını səbrli olmağa çağırırdı. İsrail oğullarının bir qismi isə Hz.Musadan əvvəl də, sonra da təzyiq olduğunu və heç bir şeyin dəyişmədiyini söyləyərək Hz.Musanın hörmətsiz bir şəkildə tənqid edirdilər:

**"Musa öz tayfasına: "Allahdan kömək diləyin və səbr edin. Yer üzü Allahındır. Bəndələrindən istədiyini onun varisi edər. Aqibət müttəqilərindir!" - dedi. Dedilər: "Sən bizə peyğəmbər gəlməmişdən əvvəl də, sonra da biz əziyyət çəkdik!" (Musa onlara belə) cavab verdi: "Bəlkə də, Rəbbiniz düşməninizi məhv edib sizi yer üzünün varisləri edəcək, sonra isə nə etdiyinizə baxacaq!""** ("Əraf" surəsi, 128-129).

İsrail oğullarının Hz.Musaya bu hörmətsizliyi bu insanların mənən əslində olduqca zəif olduğunu göstərir. Allah onlara Fironun zülmündən qurtarmaq üçün bir peyğəmbər göndərmiş və onlardan səbr etmələrini istəmişdi. Onlar imanları zəif, özləri isə düşüncəsiz insanlar olduqları üçün səbirsizlik göstərib nankorluq edərək Hz.Musanın ünvanına deyinməyə başlamışdılar. Ancaq əsl möminə yaraşan hərəkət hər şəraitdə və mühitdə Allaha şükr etmək, Allahın cızdığı taleyin hər anına razı və təslim olmaqdır.

Bir mömin Allahın ona nəyi təqdir etməsindən asılı ol-

mayaraq - bu, sıxıntı, çətinlik, aclıq, təzyiq, işgəncə də ola bilər - həmişə bir İslam aliminin "Əlhəmdülillahi alə kulli hal" ("Hər vəziyyətdə Allaha həmd olsun") sözləri ilə ifadə etdiyi təslimiyyətli ruh halətində olmalıdır. Maddi sıxıntıları mömin üçün böyük bir mənəvi ləzzətə çevirən də elə bu səmimiyyət və təvəkküldür.

Hz.Musa qissəsində isə Allah bizə İsrail oğullarının əksəriyyətinin bu şüurdan məhrum olduğunu göstərir. İsrail oğullarının yuxarıdakı ayədə bildirilən gileyi sonrakı səhifələrdə incələyəcəyimiz kimi, daha sonrakı dövrlərdə Allaha qarşı nankorluq və üsyanlarla davam edəcək. Allah bunları bizə bir ibrət olsun deyə öyrədir. Fironun inkarçılığı necə böyük bir ibrətdirsə, o dövrdə yaşayan İsrail oğullarının zəif imanı və xəstə qəlbi də bizlər üçün yenə bir ibrət vəsiləsidi.



**"Sizə istədiyiniz şeylərin hamısından vermişdir. Əgər Allahın nemətlərini sayacaq olsanız, sayıb qurtara bilməzsiniz. Həqiqətən, insan çox zalim, həm də çox nankordur" ("İbrahim" surəsi, 34).**

# Müsibətlər dövrü və Fironun ağılsızlığı

Allah inkarçılığını davam etdirən Firona və xalqına bir-birinin ardınca müxtəlif bəlalar göndərdi. Əvvəlcə Misirdə böyük bir quraqlıq dövrü başladı. Su Misir üçün son dərəcə əhəmiyyətli idi. Quraqlıq onların həyatını da təhdid edirdi. Buna görə əldə edilən bütün kənd təsərrüfatı məhsullarında xeyli azalma və qıtlıq baş verdi:

**"Biz Firon əhlini qıtlığa, quraqlığa və məhsul çatışmazlığına məruz qoyduq ki, bəlkə, düşünüb ibrət alsınlar!"** ("Əraf" surəsi, 130).

Bu ayədən göründüyü kimi, qıtlıq dövrü uzun illər sürdü. Yəni Hz.Musa sehrbazlarla mübarizəsindən sonra daha bir neçə il Misirdə qalıb burada Allahın dinini tanıtdı. Bu dövrdə Allah Hz.Musadan xalqına rahat ibadət edə bilməsi üçün evlər tikməyi istədi. Bununla da möminlər həmişə birlikdə olacaqdılar:

**"Musaya və qardaşına: "Camaatınız üçün Misirdə evlər tikdirib onları qiblə edin, namaz qılın və möminləri müjdələyin!" -deyə vəhy etdik"** ("Yunus" surəsi, 87).

Hz.Musa və ona ibadət edənlər burada ibadətlərini yerinə yetirir, Allahı anırdılar. Misirlilər isə hələ cəhalət və ağılsızlıq içində qalaraq bir-birini didməyə davam edir, başlarına gələn bəlaların səbəbinin isə Hz.Musa və möminlər olduğunu düşünürdülər:

**"Onlara bolluq qismət olduğu zaman: "Bu bizim haqqımızdır" -deyər, bir pislik üz verdikdə isə bunu Mu-**

**sadan və yanındakılardan görərdilər. Agah olun ki, onların başına gələn uğursuzluq Allahdandır, lakin onların əksəriyyəti bilməz!"** ("Əraf" surəsi, 131).

Fəlakətlər bütün məmləkəti bürümüşdü. Buna baxmayaraq Firon və yaxın ətrafı öz azğın çoxtanrılı sistemlərinə, bütpərəst inanclarına, yəni "atalarının dininə" elə qatı bir təəssüblə bağlanmışdılar ki, bundan dönməyi heç bir şəkildə düşünmürdülər. Hz.Musanın gətirdiyi iki möcüzə, yəni əlinin ağappaq olması və əsasının ilana dönməsi də onları batil inancından döndərməmişdi. Hətta başqa möcüzə də gətirsə, onu qəbul etməyəcəklərini və ona inanmayacaqlarını söyləyirdilər:

**"(Firon tayfası Musaya) dedi: "Sən bizi ovsunlamaq üçün nə möcüzə gətirsən də, yenə sənə iman gətirən deyilik!""** ("Əraf" surəsi, 132).

Bu davranışlarının müqabilində Allah onlara dünyada da

**Allahın Firona və tayfasına təqdir etdiyi fəlakətlərdən biri də "qıtlıq" idi. Yuxarıda aclıq çəkən misirliləri göstərən Qədim Misir freskası.**





**Fironun tayfasının başına gələn müsibətlərdən bəzi Qədim Misir mənbə və abidələrində də bəhs edilir. Yuxarıdakı məşhur İpuver Papirusunda (2-ci hissə, 5-6) eynilə belə yazılıb: "Fəlakətlər bütün məmləkəti sarmışdı. Hər yerdə qan var idi..."**

bir əzab daddırmaq üçün ayənin ifadəsi ilə desək, **"ayrı-ayrı möcüzələr"** ("Əraf" surəsi, 133), yəni fəlakətlər yolladı. Bunlardan ən birincisi yuxarıda da qeyd etdiyimiz kimi, quraqlıq və əldə edilən məhsulların bu səbəbdən azalması idi.

Misirlilər təsərrüfat sistemlərini Nil çayına əsasən qurmuşdular və təbii şərtlərin dəyişməsi bunun sayəsində onları narahat etmirdi. Misir torpaqlarına yağış yağmasa da Nil çayı Afrikanın içərilərindən gələrək ən isti mövsümlərdə də bol su gətirirdi. Ancaq Firon və yaxın ətrafı Allaha təkəbbür göstərdikləri və Onun peyğəmbərini tanımadıqları üçün onlara gözlənilməyən bir fəlakət olan quraqlıq gəldi. Bu quraqlıq öz xalqına "Firon öz qövmünə müraciət edib dedi: **"Ey qövmüm! Məgər Misir səltənəti, altımdan axıb gedən bu çaylar mənim deyilmi?! Məgər görmürsünüzmü?!"** ("Zuxruf" surəsi, 51) deyə səslənən Fironu da ən açıq şəkildə təkzib edirdi.

**"Biz ayrı-ayrı möcüzələr üzrə onlara tufan, çəyirtkə və həşərat, qurbağa və qan göndərdik. Onlar yenə də iman gətirməyi özlərinə sığışdırmayıb kafir bir tayfa oldular" ("Əraf" surəsi, 133).**





Ancaq ayədə də bildirildiyi kimi, inkarçı xalq "nəsihət alıb düşünmələri" lazım ikən bu olayları Hz.Musanın və İsrail oğullarının gətirdiyi bir uğursuzluq kimi qəbul etdi. Onlar batil inanclarına və atalarının dininə görə belə bir düşüncəyə qapılmışdılar. Bu səbəbdən də böyük sıxıntı çəkməyə məhkum oldular. Ancaq başlarına gələnlər bununla məhdudlaşmadı. Bu, hələ başlanğıc idi. Allah onlara bir sıra fəlakətlər göndərdi. Bu fəlakətlər Quranda belə bildirilir:

**"Biz ayrı-ayrı möcüzələr üzrə onlara tufan, çəyirtkə və həşərat, qurbağa və qan göndərdik. Onlar yenə də (iman gətirməyi) özlərinə sığışdırmayıb kafir bir tayfa oldular"** ("Əraf" surəsi, 133).

Onlar isə bu əzaba baxmayaraq inkarçılıqda davam etdilər. Hətta bu əzabın onlara inkar etdiklərinə görə Allahdan gəldiyini bildikdə belə inkarçılıqda davam etdilər. Firon və yaxın əhatəsi Hz.Musanı və dolayısı ilə Allahı (Allahı bütün nöqsanlardan uzaq tuturuq) aldatmaq istədi. Bir-birinin ardınca qorxulu bəlalara məruz qaldıqda isə Hz.Musanı çağırıb onları bu bəlalardan qurtarmasını istədilər:

**"Onlara əzab gəldikdə dedilər: "Ya Musa! səninlə olan əhdi hörmətinə bizim üçün Rəbbinə dua et. Əgər bu əzabı bizdən götürsə, biz, hökmən, sənə iman gətirəcək və İsrail oğullarını səninlə birlikdə göndərəcəyik". Elə ki əzabı bir müddətə onlardan götürdük, dərhal əhdi pozdular"** ("Əraf" surəsi, 134-135).

Diqqət edilirsə, inkarçı xalqın işlətdiyi sözlər şeytanın inkarına bənzəyir. Şeytan Allahın varlığını bilsə də Ona itaəti rədd etmişdi. Fironun xalqı isə bəlaları "Musanın Rəbbi" kimi tanıdığı Allahın verdiyini anlamasına rəğmən Allaha və elçisinə itaəti rədd etmişdi. Onlar Allahın varlığını anlayıb dərk etdilər, ancaq təkəbbürləri, inadcıllıqları və atalarının dininə kor-koranə bağlılıqları ucbatından inkarçılıqlarını davam etdirdilər.

Hz.Musa isə uzun müddət xalqını xəbərdar etmiş, onlara dini anlatmışdı. Allahın dəlili olan bir çox möcüzə göstərmişdi. Allah bu inkarçı xalqı bəlkə düz yola dönərlər deyə müsibətlərlə qorxutmuş, lakin heç biri öz bütpərəst dinini buraxıb onları Yaradan gerçək Rəbbimiz olan Allaha tərəf dönməmişdi. Allah Quranda Hz.Musanın Firona hər şeyi anlatdığını, onun isə var gücü ilə peyğəmbərə qarşı çıxdığını belə xəbər verir:

**"Musanın hekayətində də bir ibrət dərsi vardır. O zaman Biz onu Fironun yanına açıq-aşkar bir dəlillər**

**göndərmişdik. O, bütün əyanları ilə birlikdə üz döndərib: "Bu sehrbazdır, yaxud da dəlidir!" - demişdi"** ("Zariyat" surəsi, 38-39).

Hz.Musa bu cür qatı inkarın qarşısında Rəbbimizə bu inkarçı xalqa əzab verməsi üçün dua etdi:

**"Musa dedi: "Ey Rəbbimiz! Sən Firona və əyan-əşrafına dünyada zinət və mal-dövlət ehsan etdin! Ey Rəbbimiz! Sənin yolundan azdırmaq üçün verdin. Ey Rəbbimiz! Onların mal-dövlətini məhv et və ürəklərini möhürlə ki, şiddətli əzabı görməyincə iman gətirməsinlər!" (Allah) buyurdu: "Hər ikinizin duasını qəbul etdim. Siz sabitqədəm olun və cahillərin yoluna uymayın!"** ("Yunus" surəsi, 88-89).

Allah Hz.Musanın bu duasına qəbul etmişdir. Onlara edilən bütün xəbərdarlıqlara qarşı haqq dinə gəlməyən Firon və yaxın əhatəsi "acı əzabla" qarşılaşaraq malları ilə birlikdə yerin altına gömüldülər.



## Hz. Musanın və xalqının Misiri tərk etməsi və Fironun suda boğulması

Hər insana və ya hər xalqa edilən təbliğin bir sonu var. Allah kitabları və elçiləri vasitəsilə və ya mömin bəndələrini vəsiləyə çevirərək insanlara öyüd verir. İnsanlar Allahın varlığını və birliyini qəbul etməyə, Rəbbimiz, Yaradanımız və əsl Mövlamız olan Allaha itaət etməyə dəvət edilirlər. Bu təbliğ uzun illər sürə bilər. Ancaq Allah dərgahında təbliğin də müəyyən edilmiş bir sonu var. İnkar etməyə davam edənlərə bu sonla bərabər artıq əzab gəlir. Dünya əzabı ilə başlayan bu əzab tam şəkildə cəhənnəmdə sonsuza qədər davam edir.

Firon və ətrafı da təbliğə uzun illər müqavimət göstərib əzaba məhkum olmuşlar. Allaha üsyan edib peyğəmbəri dəlilikdə və yalançılıqda suçlamışlar. İnkar etdikləri üçün Allah onlara alçaldıcı bir aqibət hazırlamışdır.

Bu əzabın əvvəlində Allah əsasən Hz.Musaya İsrail oğullarını Misirdən çıxarmağı əmr etmişdi:

> **"(Sonra) Musaya belə vəhy etdik: Bəndələrimlə birlikdə gecə yola çıx. Siz şübhəsiz ki, təqib ediləcəksiniz!""** ("Şüəra" surəsi, 52).

Hz.Musa xalqı ilə birgə Misiri Allahın buyurduğu kimi gizlicə tərk etdi. Firon İsrail oğullarının Misiri tərk etməsini qəbul edə bilməzdi. O, özünü onların rəbbi hesab edirdi. Özünü bütün İsrail oğullarının sahibi kimi görürdü. Həmçinin qullarının getməsi ilə bütün iş-gücünü, onun ardınca isə etibarını da itirəcəkdi. Buna görə əsgərlərini toplaya-



**Hz.Musanın əsası ilə dənizi yarması "On əmr" adlı filmdə yuxarıdakı kimi təsvir edilmişdir.**

raq İsrail oğullarını tutmaq üçün onların arxasınca düşdü:

**"Firon şəhərlərə yığanlar göndərdi. O belə deyirdi: "Şübhəsiz ki, bunlar kiçik bir tayfadır! Onlar bizi qəzəbləndirmişlər. Biz isə qüvvətli bir camaatıq!" Nəhayət, Biz onları bağlardan və bulaqlardan çıxartdıq, xəzinələrdən və gözəl yerdən kənar etdik. O yerlərdən onları beləcə çıxartdıq və İsrail oğullarını oralara varis etdik. Firon və əsgərləri günəş doğduqda onların arxasınca düşdülər"** ("Şüəra" surəsi, 53-60).

İsrail oğulları Firon və adamları onları yaxalamasın deyə Misirdən uzaqlaşarkən bir dəniz sahilinə gəldilər. Bu ara-

da da Firon və əsgərləri onların görə biləcəkləri məsafəyə çatdılar. Fironun və əsgərlərinin onlara doğru yaxınlaşdığını gördükdə Hz.Musanın xalqında təlaş və ümidsizlik başladı. Firon və əsgərləri çox yaxın bir məsafədə idi və ilk baxışda qaçacaq bir yerləri yox idi. Yaxalandıqlarını düşündülər:

**"İki dəstə bir-biri ilə qarşılaşdığı zaman Musanın camaatı dedi: "Artıq yaxalandıq!""** ("Şüəra" surəsi, 61).

Elə bu anda Hz.Musa bütün möminlərə nümunə olacaq bir davranış göstərdi. Allahın onunla və möminlərlə bərabər olduğunu və onlara mütləq bir çıxış yolu göstərəcəyini ümidsizliyə qapılmış xalqına xatırlatdı:

**"Musa dedi: "Xeyr, Rəbbim mənimlədir. O, mütləq mənə yol göstərəcəkdir!""** ("Şüəra" surəsi, 62).

Bundan sonra Hz.Musa Allahdan aldığı **"əsanla dənizə vur"** ("Şüəra" surəsi, 63) vəhyinə görə, əsasını dənizə vurdu. Allah dənizi möcüzəvi şəkildə iki yerə ayırdı və aradan quru yol saldı. İsrail oğulları dərhal bu yola girdilər. Firon və əsgərləri isə o qədər azğın idilər ki, açılan yoldan keçib İsrail oğullarını yaxalamağı düşündülər. Ortada aşkar bir möcüzə var idi. Allahın Hz.Musaya və onunla birlikdə iman edənlərə olan dəstəyi aydın idi. Ancaq əvvəlki möcüzələr kimi bu da Fironun iman etməsinə kömək etmədi. Ağıllarını tamam itirmiş Firon və əsgərləri İsrail oğullarının dərhal ardınca dənizə açılan quru yola girdilər. Ancaq İsrail oğulları bu yoldan çıxıb sahilə çatdıqda sular ani şəkildə örtülməyə başladı. Firon və onu özlərinə tanrı və rəbb qəbul edən bütün ordusu da bu möcüzə ilə birlikdə boğulub getdi. Firon son anda tövbə etmək istədi, amma bu tövbəsi qəbul edilmədi. Bu hadisələr haqda Allah "Yunus" surəsində belə xəbər verir:

**"İsrail oğullarını dənizdən keçirtdik. Firon və əsgərləri zalimcəsinə və düşməncəsinə onların arxasınca düşdülər. Firon batacağı anda: "İsrail oğullarının inandıqlarından başqa tanrı olmadığına iman gətirdim. Mən artıq təslim olanlardanam!" - dedi. İndimi? Halbuki əvvəlcə qarşı çıxmış və fitnə-fəsad törədənlərdən olmuşdun!**
**Səndən sonrakılara bir ibrət olsun deyə, bu gün səni xilas edəcəyik. Həqiqətən, insanların çoxusu ayələrimizdən xəbərsizdir!"** ("Yunus" surəsi, 90-92).

Fironun ölməzdən öncə son anda iman gətirib tövbə etmək istəməsi və Allahın bunu qəbul etməməsi bütün insanlara dərs olmalı olan çox vacib bir məsələdir. Allah in-

**Fironun əsgərlərini bir parad əsnasında göstərən Qədim Misir freskası.**



sanlara ömürləri boyunca dünyada olmalarının məqsədini düşünmək, qulluq etmələrinin lazımlılığını anlamaq və necə qulluq edəcəklərini öyrənmək üçün lazımi qədər zaman və imkan verir. Elçilər, haqq kitabları və möminlər insanlara Allahın əmr və nəsihətlərini çatdırırlar. Bu nəsihətləri dinləmək və tövbə etmək üçün də lazımi qədər vaxt var. Ancaq əgər insan bütün fürsətləri qaçırır və ölümlə üz-üzə gəldiyi anda tövbə etməyə qalxırsa, bu tövbənin - Allahın istəyindən başqa - bir qiyməti olmayacaq. Çünki insan ölüm anında axirətin varlığını və yaxınlığını hiss etməklə yanaşı ölüm mələklərini qarşısında görərək bu qəti gerçəyə şahid olur. Bu nöqtdə artıq heç kəsin inkar etməsi mümkün deyil.

Ən qiymətlisi insanın daha öncədən dünya həyatında ikən, yəni imtahan şəraiti sürərkən öz vicdan və səmimiyyəti ilə iman gətirməsidir. Firon imtahan şəraiti boyunca ancaq kobud və alçaq bir xarakter nümayiş etmiş, Allaha qarşı çirkincəsinə təkəbbür etməyə qalxmış və buna görə ölüm anındakı qorxunun təsiri ilə qəbul etdiyi iman da ona bir fayda verməmişdi.

Bu gerçək gənclik illəri boyunca öz aləmində "gününü gün etməyə" çalışan və dini yalnız qocalıq illərinə saxlayan insanlar üçün də çox vacib bir xəbərdarlıqdır. Dinin heç bir şəkildə təxirə salınması olmaz. Təxirə salmaq istəyənlər təxirə sala-sala sonunda "son ana" çatırlar ki, artıq bu andakı iman və tövbələrinin - Allahın diləməsindən başqa - bir dəyəri olmayacaq. Allah bu həqiqəti bizə belə bildirir:

"Allah yanında yalnız o kəslərin tövbəsi qəbul olunar ki, onlar nadanlıq ucundan pis bir iş gördükdən sonra dərhal tövbə edələr. Allah belələrinin tövbəsini qəbul edir! Həqi-



"Səndən sonrakılara bir ibrət olsun deyə, bu gün səni xilas edəcəyik. Həqiqətən, insanların çoxusu ayələrimizdən qafildir!" ("Yunus" surəsi, 92).



qətən, Allah biləndir, hikmət sahibdir!

**Günah işlər görməkdə davam edərək ölüm yetişən anda: "Mən indi tövbə etdim" - deyənlərin və kafir olaraq ölənlərin tövbəsi qəbul olunmaz. Biz onlar üçün şiddətli bir əzab hazırlamışıq!"** ("Nisa" surəsi, 17-18).

Ölüm anında "mən indi tövbə etdim" deyən Firon bu tövbə ilə nə özünə, nə də özü ilə birlikdə səhv yola çəkdiyi ətrafına heç bir fayda gətirmədi. Allah Fironun və əhatəsinin cəhənnəmdəki vəziyyəti haqda belə xəbər verir:

**"Onlar səhər-axşam odda yandırılarlar. Qiyamət qopduğu gün isə (deyiləcəkdir): "Firon əhlini ən şiddətli əzaba salın!" O zaman onlar od içində bir-birilə çənə-boğaz olacaq, acizlər təkəbbür göstərənlərə deyəcəklər: "Biz sizə tabe idik. İndi siz cəhənnəm odunun bir hissəsini bizdən dəf edə bilərsinizmi?!" Təkəbbür göstərənlər deyəcəklər; "Biz hamımız oradayıq. Allah artıq Öz bəndələri arasında hökmünü vermişdir!""** ("Mumin" surəsi, 46-48).

Hz.Musaya qarşı çıxan, ona və yanındakı möminlərə zülm etməyə çalışan Fironun və əhatəsinin çəkəcəyi bu ən şiddətli əzabı Allahın izni ilə axirətdə görəcəyik. Hamımız dua etməliyik ki, Fironun yaşayacağı bu dəhşətli əzabı onunla eyni bir yerdə deyil, Allahın saleh bəndələri ilə birlikdə cənnətdən seyr edək.

# Qarunun təkəbbür göstərməsi və cəzalandırılması

Hz.Musa dövründə Firon və əsgərlərindən başqa bizə həlak edildiyi bildirilən bir başqa insan da Qarundur.

Qurana baxdığımızda Qarunun həm Hz.Musanın xalqından (yəni İsrail kökündən) olduğunu, həm də Misirdə böyük bir mülkə sahib olduğunu görürük.

Aşağıdakı ayə Qarunun Fironla birlikdə Hz.Musaya qarşı cəbhə təşkil etdiyini göstərir:

**"Həqiqətən, Biz Musanı ayələrimizlə və açıq-aydın bir dəlillə göndərdik. Fironun, Hamanın və Qarunun yanına. Onlar isə: "Bu sehrbazdır, yalançıdır!" - dedilər"** ("Mumin" surəsi, 23-24).

Fironla birlikdə olan Qarunun eyni zamanda çox böyük bir xəzinəyə görə məsuliyyət daşıması da diqqətçəkicidir:

**"Həqiqətən, Qarun Musa qövmündən idi. Onlara qarşı həddini aşmışdı. Biz ona açarlarını bir dəstə güclü adamın zorla daşıya biləcəyi xəzinələr vermişdik..."** ("Qəsəs" surəsi, 76).

Qarunun Fironun yanında sahib olduğu vəzifə və zənginlik onu xalqına qarşı azğın və qaba etmişdi. Hz.Musanı inkar etdiyi kimi, İsrail oğullarına göstəriş verərək onlara dünya həyatını sevdirməyə çalışmışdı. Allah Qarunun təkəbbürünü və İsrail oğullarının arasındakı imanı zəif kəslərin ona həsəd aparmasını belə anladır:

**"Faxir libas geyib öz zinəti içində qövmünün qarşısına çıxdı. Dünyaya həris olanlar dedilər: "Kaş ki, Qa-**







Qarun Hz.Musanın tayfasından olsa da Misirdə Fironun yanında böyük bir mülk sahibi olmuşdu. Quranda Qarunun xəzinələrinin açarlarının daşınmasının da çətin olduğu bildirilir. Ancaq Qarun özünə Allahın bir imtahanı olaraq verilən bütün bu mülk qarşısında azğınlaşmış və təkəbbür göstərmişdi. Allah isə bunun müqabilində Qarunun mülkünü məhv edərək bunu ona qibtə edib dindən üz çevirən cahillərə və sonradan gələcək nəsillərə bir ibrət dərsi etmişdi.





"Faxir libas
geyib öz zinəti
qövmünün
qarşısına çıxdı..."
("Qəsəs" surəsi, 79).

"Nəhayət, onu sarayı ilə
birlikdə yerə gömdük. Allaha qarşı
ona yardım edə biləcək bir camaatı da
yox idi..."
("Qəsəs" surəsi, 81).





**runa verilən bizə də veriləydi. Həqiqətən, o, böyük bəxt sahibidir!""** ("Qəsəs" surəsi, 79).

İsrail oğullarının arasındakı möminlər isə Qaruna heç cür həsəd aparmadıqları kimi gerçəkdə onu acınacaqlı bir cəhalət içində olduğunu anlamış və ona belə öyüd vermişdilər:

**"...Qövmü Qaruna belə dedi: "Sevinmə. Şübhəsiz ki, Allah malına qürrələnib sevinənləri sevməz! Allahın sənə verdiyindən özünə axirət qazan. Dünyadakı nəsibini də unutma. Allah sənə yaxşılıq etdiyi kimi, sən də yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!""** ("Qəsəs" surəsi, 76-77).

Eyni mömin insanlar Qaruna həsəd edən yəhudilərə də öyüd vermiş və onları mömin şərəfi ilə düşünmələri və hərəkət etmələri, dünyanın ötəri bər-bəzəyinə deyil, Allahın rizasını qazanmaları üçün xəbərdarlıq etmişdi:

**"...Dünyaya həris olanlar dedilər: "Kaş ki, Qaruna verilən bizə də veriləydi. Həqiqətən, o, böyük bəxt sahibidir!" Elm verilmiş kəslər isə belə dedilər: "Vay halınıza! İman gətirib yaxşı əməl edən kimsə üçün Allahın mükafatı daha yaxşıdır. Buna yalnız səbr edənlər qovuşarlar!""** ("Qəsəs" surəsi, 79-80).

Qarunun yolunu azmasının əsas səbəbi isə onun "özündə bir bilgi tapıldığına" inanması, yəni özünün başqa insanlardan üstün olduğunu düşünərək təkəbbür göstərməsidir:

**"Dedi: "Bu məni yalnız məndə olan elm sayəsində verilmişdir". Məgər o Allahın ondan əvvəl özündə daha qüvvətli və daha varlı olan neçə-neçə kəsləri məhv etdiyini bilmirdimi? Günahkarlar öz günahları barəsində sorğu-sual olunmazlar"** ("Qəsəs" surəsi, 78).

Ancaq Qarunun təkəbbürlənməsi ona xeyir deyil, zərər gətirmişdi. Allaha qarşı çıxıb nankorluq etdiyi, sahib olduqlarını özününkü bilərək böyük bir təkəbbür və lovğalıq içində azğınlıq etdiyi üçün özü-özünü əzaba düçar etmiş, Allahın qarşısında tək-tənha və aciz bir bəndə olduğunu anlamışdı. Çünki Allah Qarunun təkəbbür göstərməsinə səbəb olan mal-mülkü məhv etmişdi:

**"Nəhayət, onu sarayı ilə birlikdə yerə gömdük. Allaha qarşı ona yardım edə biləcək bir camaat da yox idi. O özü də özünə heç bir kömək edə bilmədi"** ("Qəsəs" surəsi, 81).

Bu həlakla birlikdə artıq Qarun əhatəsindəkilər və eyni zamanda ondan sonra gələnlər üçün bir ibrət və düşünmə mövzusu halına gəldi. Bir gün əvvəl ona həsəd aparanlar arzu etdikləri şeylərin əslində müvəqqəti və dəyərsiz olduğunu gördülər. Təkəbbür göstərənlərin sonda xilas ola bilməyəcəklərinin fərqində oldular və Allaha mütləq hesab verəcəklərini anladılar:

**"Dünən onun yerində olmaq istəyənlər ertəsi gün səhər belə deyirdilər: "Vay! Sən demə, Allah Öz bəndələrindən istədiyinin ruzisini artırarmış da, azaldarmış da! Əgər Allah bizə lütf etməsəydi, yəqin ki, bizi də yerə gömərdi. Sən demə, kafirlər nicat tapmayacaqlarmış!""** ("Qəsəs" surəsi, 82).

Beləliklə, Qarun da Firon və Haman kimi məhv edilənlərdən oldu:

**"Biz Qarunu da, Fironu da, Hamanı da məhv etdik. Musa onların yanına açıq-aydın dəlillərlə gəldi. Lakin onlar yer üzündə təkəbbürlük etdilər və buna görə də əzabımızdan sovuşa bilmədilər!"** ("Ənkəbut" surəsi, 39).

Qarun qissəsi bizə mal-mülkə görə təkəbbür göstərən və ya özünü başqa insanlardan daha bilgili və ağıllı görərək lovğalanan insanların Allah dərgahında qətiyyən sevilmədiyini göstərir. Qarundan başqa Allah bizə keçmiş xalqları da nümunə göstərir. Daha əvvəldə bir çox mədəniyyət gəlib keçmiş və bunlar çox böyük gücə və və maddi səltənətə də yetmişdilər. Lakin bu anda onların heç biri yer üzündə mövcud deyil. Allah dünyaya hakim olduqlarını düşünən o insanların da canını alıb, ehtişam dolu sarayları isə ancaq xaraba şəklində bu günə qədər qalmışdır:

**"Neçə-neçə məmləkəti əhalisi zülm etdiyi halda məhv etdik; onlar alt-üst olmuşdu. Neçə-neçə quyular, neçə-neçə möhtəşəm qəsrlər bomboş qalmışdı"** ("Həcc" surəsi, 45).

Yenə Qarun qissəsində öyrədilən başqa bir məsələ dünyanın müvəqqəti bər-bəzəyinə və bu bər-bəzəyin sahibi olan insanlara qibtə etməməkdir. Əsl qibtə ediləcək insanlar Allah yolunda sıxıntılara sinə gərən, mallarını və canlarını Onun yolunda fəda edən, malla deyil, iman, ağıl və təqva baxımından zəngin olan insanlardır. Dünyada sanki çox böyük rahatlıq və ehtişam içində görünən lovğa insanlar isə əslində mənəvi əzablar içində yaşayan və hər gün cəhənnəmə doğru sürüklənən kimsələrdir. Allah bu haqda belə buyurur:

**"Nə malları, nə də oğul-uşağı səni təəccübləndirməsin. Allah onlarla ancaq münafiqlərə dünyada əzab vermək, kafir olduqları halda, canlarını almaq istər"** ("Tövbə" surəsi, 55).

Mal yalnız ehtişam və zövq üçün istənilməməlidir. Yaddan çıxarmaq olmaz ki, Allah insanları malları ilə də imtahan edir. Bu mallar Allah rizası üçün sərf edildikdə insan-

lara xeyir gətirir. O qədər mal-dövlət Qarunun nəzarətinə verilsə də bunlar ona heç bir fayda vermədi. Qarunun vəziyyəti əslində bütün nəsillər üçün bir ibrət vəsiləsi olmalıdır.



## Hz.Musanın xalqının yolunu azaraq buzova sitayiş etməsi

Fironun və əsgərlərinin suda boğulmasının ardından Hz.Musa xalqı ilə bərabər təhlükəsizlik içində yaşayacaqları yerə doğru yola çıxdı. Ancaq bu yolçuluqda İsrail oğullarının çoxunun iman baxımından çox zəif və azğınlığa çox meylli olduğunu göstərən əlamətlər ortaya çıxdı.

Misir xalqının dini bütpərəstlik idi. Bir çox bütlər var idi. İsrail oğulları orada yaşadığı vaxt ərzində bu dindən təsirlənmişdilər. Ataları Hz.İbrahim, Hz.İshaq və Hz.Yaqubun onlara bir yol olaraq qoyub getdiyi tövhid dininə mənsub olsalar da Allahı anmaqda zəif olduqlarına görə bütpərəst misirlilərin mədəniyyətindən təsirlənmiş, onları bəzi azğın adət və anlayışlarını mənimsəmişdilər. İsrail oğullarının bütpərəstliyə meyli yol gedərkən bütpərəst xalqa rast gələndən sonra ortaya çıxdı. Bəzi yəhudilər bu bütpərəst xalqa ağılsızcasına həsəd apararaq Hz.Musadan onlara da büt düzəltməsini istədilər:

**"Biz İsrail oğullarını dənizdən keçirtdik, onlar öz bütlərinə tapınan bir tayfaya uğradılar. Dedilər: "Ya Musa! Bizə onların sitayiş etdikləri bütlər kimi bir büt düzəlt!" (Musa belə) cavab verdi: "Siz, doğrudan da, cahil bir tayfasınız! Şübhəsiz ki, bunların tapındıqları bütlər məhvə məhkumdur, etdikləri əməllər isə puçdur!""** ("Əraf" surəsi, 138-139).

Hz.Musanın xalqı arasındakı bu bütpərəstlik düşüncəsi bundan sonra da ortaya çıxacaqdı. Çünki Hz.Musanın xal-

qı arasında Allahdan lazımınca qorxmayan və asanlıqla inkara meyl edən insanlar vardı.

Hz.Musa və xalqı Tur dağına doğru yönəldilər. Çünki Quranda bildirildiyinə görə, orada Allah Hz.Musa ilə "sözləşmişdi". Bu sözləşmə qırx günlük bir müddət üçün edilmişdi. Hz.Musa dağda qırx gün qalacaqdı. Hz.Musa tələsərək xalqını geridə buraxdı və təkaşına irəlidə getməyə qərar verdi. Yerinə isə qardaşı Hz.Harunu qoydu. O da Allahın elçisi idi. Hz.Musa getdikdə xalqa o, rəhbərlik edəcəkdi. Hz.Musa xalqdan ayrılmazdan əvvəl Hz.Haruna bəzi tövsiyələr verdi:

**"Musa ilə otuz gecə barədə vədələşdik, sonra ona daha bir on gün də əlavə etdik. Beləliklə, Rəbbinin təyin etdiyi müddət tam qırx gecə oldu, Musa qardaşı Haruna dedi: "Sən tayfam içində mənim xəlifəm ol, (camaatı) islah etməyə çalış və fitnə-fəsad törədənlərin yolu ilə getmə!""** ("Əraf" surəsi, 142).

Hz.Musa xalqdan ayrılıb təyin edilən vaxtda Tur dağına çatdı. Allah orada onunla bir daha söhbət etdiyini Quranda belə bildirir:

**"Musaya vəd etdiyimiz vaxt kəlib çatanda Rəbbi onunla danışdı. Musa: "Ey Rəbbim! Özünü mənə göstər. Sənə baxım!" -dedi. Allah: "Sən məni əsla görə bilməzsən. Lakin dağa bax. Əgər o yerində dura bilsə, sən də Məni görə bilərsən", - buyurdu.**

**Rəbbi dağa təcəlli etdikdə (Allahın nuru dağa saçıldıqda) onu parça-parça etdi. Musa da bayılıb düşdü. Ayılandan sonra isə: "Sən pak və müqəddəssən! Sənə tövbə etdim. Mən iman gətirənlərin birincisiyəm!" - dedi.**

**Allah belə buyurdu: "Ya Musa! Mən Öz risalətlərim-**



**İsrail oğulları Misir dinindəki azğın inanclardan təsirlənmişdilər. Hz.Musa onlara həqiqəti gətirsə də bu cahiliyyə mədəniyyətindən əl çəkmədilər. Misir dinində yer alan və üstdəki qravürdə təmsil edilən "buzova sitayiş" azğınlığı İsrail oğullarını da imandan sonra inkar yoluna salacaqdı.**



**lə və danışmağımla insanlardan səni seçib üstün tutdum. İndi sən verdiyimi al və şükr edənlərdən ol!"**

**Biz onun üçün lövhələrdə hər şeydən, moizə və təfsilata dair hər şey yazdıq. Və belə buyurduq: "Bundan möhkəm yapış və ümmətinə də onun ən gözəl hökmlərindən yapışmağı əmr et. Cizə fasiqlərin yurdunu göstərəcəyəm!"** ("Əraf" surəsi, 143-145).

Bu arada İsrail oğullarının arasındakı münafiqlər Hz.Musanın öz xalqından ayrılmasını bir fürsət bildilər. Hz.Harunun əmrlərini dinləməyən xalq özünə Misir dinindəki kimi bir büt düzəltdirdi: bu büt buzov heykəli idi:

**"Tur dağına gedən Musanın ardınca tayfası öz bəzək-düzək şeylərindən böyürtüsü olan bir buzov heykəli düzəltdilər..."** ("Əraf" surəsi, 148).

Bu əsnada Allah Hz.Musaya xalqının vəziyyətini və nə üçün onlardan əvvəl gəldiyini soruş-

du:

**"83-Allah buyurdu: "Ya Musa! Səni öz camaatından ayırıb tələsdirən nə idi?"**

**Musa belə cavab verdi: "Onlar da arxamca gəlirlər. Ey**

**Rəbbim! Məndən razı qalasan deyə, hüzuruna tələsdim!"""** ("Taha" surəsi, 83-84).

Hz.Musa xalqının vəziyyətini bilmirdi. Allah ona xalqının yolunu azdığını, xalqı azdıran Samiri adlı münafiqin mövqeyini və özlərinə buzovdan bir büt düzəltdiklərini söylədi:

**"Allah: "Səndən sonra ümmətini imtahana çəkdik. Samiri onları yoldan çıxartdı", - deyə buyurdu"** ("Taha" surəsi, 85).

Bundan sonra Hz.Musa aşağıdakı ayələrdə bildirildiyi kimi, Rəbbimizin verdiyi lövhələri alıb xalqı geri döndü:

**"Musa qəzəbli, kədərli halda camaatının yanına qayıdıb dedi: "Ey ümmətim! Məgər Rəbbiniz sizə gözəl bir vəd verməmişdimi? Yoxsa mənim sizdən ayrılmağımdan uzun bir müddət keçdi? Yaxud Rəbbinizdən sizə bir qəzəb gəlməsini istəyib mənə verdiyiniz vədə xilaf çıxdınız?" Onlar dedilər: "Biz sənə verdiyimiz vədə öz ixtiyarımızla xilaf çıxmadıq. Amma biz Firon tayfasının zinətlərindən ibarət ağır bir yüklə yüklənmişdik. Onları atdıq. Samiri də bizim kimi atdı".**

**Onlara böyürən bir buzov heykəli çıxartdı. Dedilər: "Bu sizin tanrınızdır. Musanın da tanrısı budur, lakin unutmuşdur"""** ("Taha" surəsi, 86-88).

Bu hissədə bir münafiqin qəlbi xəstə insanları necə azdıra biləcəyi çox açıq bir şəkildə izah edilir. Münafiqlər dai-

ma fitnə və qarışıqlıq üçün uyğun şəraitlər axtarır. Burada da səhv yola düşməyə meylli olan bir xalq üçün ən uyğun şərait Hz.Musanın aralarında olmadığı zamandır. Samiri də belə bir şəraitdə ortaya çıxmışdı. Bu insanlar əvvəllər də bütə sitayiş etməyə meylli idilər. Hz.Musadan özü üçün belə bir büt düzəltməsini istəyən xalqın bu zəifliyini də Samiri bilir. O, onların istəyi olan və yollarından azdıracaq bir üsul tapmışdır. Bundan istifadə edərək onların sevəcəyi buzovun heykəlini düzəltmişdir. Bu heykəlin doğru olduğunu göstərmək üçün iddia edirdi ki, heykəl guya Hz.Musanın da tanrısıdır və Hz.Musa onu guya unudub.

Firon və əsgərləri gəldikdə Hz.Musa təkbaşına dəniz kənarında Allaha olan imanına dayanaraq xalqına necə hidayətlə yol göstərmişdisə, Samiri də burada təkbaşına eyni xalqa azğınlıqla səhv yol göstərmişdi. Burada imanlı bir insanın bir cəmiyyətə nə qədər xeyirli təsirinin ola biləcəyini, həmçinin bir münafiqin də nə qədər zərər verə biləcəyini görürük.

Əslində Hz.Harun xalqına nəsihətlər verib səhv yola döndüklərini, fitnəyə düşdüklərini onlara izah etmişdi. Ancaq buna baxmayaraq onun sözlərinə itaət etmədilər. Quranda bu həqiqət belə izah edilir:

> **"90-Harun isə bundan əvvəl onlara belə demişdi: "Ey ümmətim! Siz bununla yalnız imtahana çəkildiniz. Sizin Rəbbiniz, şübhəsiz ki, Rəhmandır. Mənə tabe olub əmrimə itaət edin!" Onlar: "Musa qayıdıb yanımıza gələnə qədər bu buzova sitayiş etməkdən əl çəkməyəcəyik!" - deyə cavab vermişdilər"** ("Taha" surəsi, 90-91).

Burada xalqın Hz.Musaya olan itaətinin onu lider kimi qəbul etməsindən qaynaqlandığını başa düşürük. Əgər ima-

na arxalanan kəskin bir itaətləri olsaydı, Allahın elçisi olduğu üçün Hz.Haruna dərhal itaət etməli idilər. Ancaq Hz.Harunu öz liderləri kimi görməyib onun sözlərini dinləmədilər. Hətta etdikləri xətaya müdaxilə etdikdə onu öldürmək istədilər:

**"Musa qayıtdıqdan sonra dedi: "Ya Harun! Onların azdıqlarını gördüyün zaman sənə nə mane oldu ki, arxamca gəlmədin? Əmrimə asimi oldun? Harun belə cavab verdi: "Ey anam oğlu! Saçımdan, saqqalımdan tutma. Doğrusu, sənin: "İsrail oğulları arasına ayrılıq saldın, sözümə baxmadın!" -deyəcəyindən qorxdum"** ("Taha" surəsi, 92-94).

**"Musa qəzəbli və kədərli halda tayfasının yanına dönərkən onlara dedi: "Məndən sonra mənə nə pis xələf oldunuz! Rəbbinizin əmrini tezləşdirməkmi istədiniz?" Musa qəzəbindən lövhələrini yerə atdı, qardaşının başından yapışıb özünə tərəf çəkməyə başladı. Harun dedi: "Ey anam oğlu! Bu tayfa məni zəif bilib az qaldı ki, öldürə. Mənimlə belə rəftar etməklə düşmənləri sevindirmə! Məni zalimlərlə bərabər tutma!" Musa dedi: "Ey Rəbbim! Məni də, qardaşımı da bağışla. Bizi Öz mərhəmətin altına al. Sən rəhm edənlərin ən rəhmlisisən!"** ("Əraf" surəsi, 150-151).

Hz.Harunun verdiyi cavaba görə Hz.Musa onu tək buraxdı. Əsl fitnə-fəsad törədən və o insanların yolundan azmasına səbəb olan Samiriyə tərəf döndü. Ondan etdiklərinin səbəbini soruşdu. Samiri bunları boşuna etmədiyini və heç kəsin fikir vermədiyi şeylərə fikir verdiyini söyləyərək özünü təmizə çıxarmağa çalışdı. Hətta elçinin izindən də bəzi şeyləri aldığını və bunu edərkən nəfsinin ona yol göstərdiyini söylədi:

**"Musa: "Ey Samiri! Sənin məqsədin nə idi?" - deyə soruşdu. Belə cavab verdi: "Mən onların görmədiklərini gördüm. Mən o Rəsulun ləpirindən bir ovuc torpaq götürdüm və onu atdım. Beləcə, öz nəfsim məni bu işə sövq etdi". Musa dedi: "Çıx get burdan. Həyatın boyu: "Bir kəs mənə toxunmasın!" - deməli olacaqsan. Hələ səni əsla qaçıb canını qurtara bilməyəcəyin daha bir vaxt gözləyir. İndi tapınıb durduğun tanrına bax. Biz onu yandıracaq, sonra da dənizə atacağıq!"** ("Taha" surəsi, 95-97).

Diqqət edilirsə, Samirinin fitnə-fəsad törətməsinin ən böyük səbəbi onun özündən başqa hər kəsdən daha ağıllı və uzaqgörən olduğuna inanmasıdır. Bu təkəbbür "mən onların görmədiklərini gördüm" şəkilli cümləsindən açıqca anlaşılır. Bu təkəbbür və qürur hissi Samirinin asanca öz nəfsinin və şeytanın əmrinə tabe olmasına və "fərqli bir şey edərək lider olmaq" psixologiyası içində inkar yoluna düşərək fitnə-fəsad törətməsinə səbəb olmuşdur. Halbuki müsəlman heç vaxt başqa müsəlmanlarla müqayisədə özünün ən ağıllı və ən üstün olduğu fikri ilə hərəkət etməz. Hər zaman özündə bir xəta payının ola biləcəyini düşünər, xəta etməkdən Allaha sığınar. Əgər həqiqətən kiminsə fikir vermədiyi və görmədiyi bir məsələni görübsə, bunun bir Allah lütfü və imtahanı olduğunu bilər və ona görə davranar. "Allah mənə bunu görməyi nəsib etdi, elm ancaq Ondandır" deyər. O ki qaldı Samirinin gördüyü şeyə, o, fitnədən və yolunu azmaqdan başqa bir şey deyil.

Bütün bu hadisələrin ardınca Hz.Musa Samirinin başladığı fitnə-fəsada qarşı iki vacib tədbir görmüşdü. Birincisi, fitnə-fəsadın mənbəyi olan və insanların düz yoldan azmasına səbəb olan Samirini xalqın içindən qovmaq. Beləliklə

də Samiri bir daha münafiqlik etməyəcək və fitnə-fəsad törətməyəcəkdi. İkincisi isə onun düzəltdiyi bütü tamamilə məhv etmək idi. Xalqın büt kimi mənimsədiyi buzov heykəli tamam yandırılacaq və külü də bir daha tanınmasın deyə dənizə səpiləcəkdi.

Göründüyü kimi. Hz.Musanın dinlə bağlı böyük bir himayədarlıq və təəssüb hissi və həvəs dərəcəsində mütləq bir bağlılığı var idi. Hz.Musa insanların Allahı inkar etməsinə səbəb olan amillərə qarşı çox kəskin və düzgün tədbirlər görmüş, inkarçılığı kökündən məhv etmək üçün çox qərarlı davranmışdır. Bu, bütün peyğəmbərlərin və onların yolunu davam etdirən hidayət liderlərinin müştərək vəzifəsidir.

Hz.Musa fitnənin səbəblərini aradan qaldırdıqdan sonra da bütün xalqına dərs verərək onu tövbəyə və Allaha itaət etməyə dəvət etmişdi:

> **"O vaxtı da xatırlayın ki, Musa öz qövmünə: "Ey qövmüm, siz buzova sitayiş etməklə, həqiqətən, özünüzə zülm etdiniz. Buna görə də yaradanınıza tərəf üz tutaraq tövbə edin, nəfsinizi öldürün! Belə etməniz yaradınınızın yanında sizin üçün xeyirlidir!" - demişdi və Allah da tövbənizi qəbul etmişdi, Əlbəttə, O, tövbələri qəbul edəndir, bağışlayandır"** ("Bəqərə" surəsi, 54).

Hz.Musanın bu qərarlı müdaxilələri və sözləri xalqına təsir etmişdi. İsrail oğulları Hz.Musanın nəsihətlərinə əməl edərək Rəbbimizə tövbə etmişlər. Ancaq bu, İsrail oğullarının tamamilə düzəlməsi demək deyildi. Çünki sonrakı səhifələrdə də görəcəyimiz kimi, İsrail oğulları bundan sonra hər fürsətdə Hz.Musaya qarşı çıxaraq ona mənən əziyyət verməyə çalışdılar.

# Yəhudi xalqının azğın hərəkətləri

Hz.Musa əvvəlcə Firona qarşı mübarizə apardı. Onun xalqı, yəni İsrail oğulları Hz.Musadan əvvəl kölə olaraq sıxıntı içində yaşayırdılar. Bu səbəblə də Hz.Musa bir imkan yaradan kimi Misiri xalq olaraq tərk etdi. Ancaq bu, onların hamısının səmimi olaraq iman etdiyi anlamına gəlmirdi. Aralarında iman etmədikləri halda xalq psixologiyası ilə hərəkət edən insanlar da var idi. Böyük bir qismi ehtimalən Hz.Musanı onları zülmdən qurtaran bir siyasi lider kimi görürdü. Buna görə də haqq dinə tabe olmaq əvəzinə fürsət tapdıqca həmişə qədim bütpərəst dinlərinə dönməyə çalışırdılar. Bu səbəblə də hər fürsətdə Hz.Musa ilə mübarizə edib, onun gətirdiyi haqq dindən dönməyə çalışıblar.

Allah əvvəlcə İsrail oğullarını on iki ayrı cəmiyyət olaraq Hz.Musaya böldürdü:

**"Biz onları on iki qəbiləyə - ümmətə böldük. Camaatı ondan su istədiyi zaman ona: "Əsanı daşa vur!" - deyə vəhy etdik. Əsanı daşa vuran kmmi ondan on iki çeşmə qaynayıb axmağa başladı. Hər qəbilə özünün su içəcəyi yeri bildi..."** ("Əraf" surəsi, 160).

İsrail oğullarının böyük bir qismi imanı qəlblərinə tam yerləşdirə bilməmişdi. Hətta bir dəfə Hz.Musadan Allahı onlara göstərməsini istəmişdilər. Yaxşıca ədəbsizlik edərək əgər göstərməsə, ona inanmayacaqlarını söylədilər:

**"Siz: "Ya Musa, Allahı aşkar surətdə görməyincə, heç vaxt sənə inanmayacağıq", - dediyiniz zaman gözünüz görə-görə sizi ildırım vurmuşdu"** ("Bəqərə" surəsi, 55).

Bu kafir xalqın müəyyən bir özəlliyi davamlı olaraq tamahkar və nankor bir ruh halında olması idi. Allah onları aclıqdan qurtarmaq üçün möcüzəvi bir qida bəxş etmişdi. Quranda "qüdrət halvası və bildirçin" kimi bildirilən bu yemək Allahın ikramı olsa da İsrail oğulları bir müddət sonra bundan gileylənməyə başladılar:

**"Üstünüzə buludla kölgə saldıq və: "Ruzi olaraq verdiyimiz halal şeylərdən yeyin!" - deyərək sizə qüdrət halvası və bildirçin göndərdik. Onlar isə Bizə deyil, ancaq özlərinə zülm etmiş oldular"** ("Bəqərə" surəsi, 57).

**"Xatırlayın ki, siz: "Ya Musa! Biz eyni təama heç vaxt dözməyəcəyik! Rəbbinə dua et ki, bizim üçün torpağın bitirdiyi şeylərdən -tərəvəzindən, sarımsağından, mərciməyindən və soğanından yetirsin!" - dediniz. "Siz xeyirli olan şeyləri bu cür alçaq şeylərlə dəyişdirmək istəyirsiniz? O halda şəhərlərdən birinə gedin, istədiyinizi orada taparsınız!" - demişdi. Onlara zəlillik, miskinlik damğası vuruldu və Allahın qəzəbinə düçar oldular. Bu onların Allahın ayələrini inkar etdiklərinə və peyğəmbərləri haqsız yerə öldürdüklərinə görə idi. Bu onların asi olduqlarına və həddi aşdıqlarına görə idi"** ("Bəqərə" surəsi, 61).

Burada Hz.Musanın xalqının nankor hərəkətlərindən daha biri açıq göründü.

## Bəqərə (İnək) qissəsi

Hz.Musanın xalqı haqq dini gerçəkdən qavraya bilməmişdi. Daha əvvəl də diqqət yetirdiyimiz kimi, peyğəmbərlərinə Allah rizası üçün deyil, ehtimal ki, onu güclü və qərarlı bir lider kimi gördükləri üçün itaət edirdilər.

Həmçinin həmişə onlara gələn dini dəyişdirərək onu öz nəfslərinə və qədim dinlərinə uyğunlaşdırmağa çalışdılar. Dinin asan və təmiz yönünü görməyib, onu qarışıq və çətin hala gətirib özlərinə bütlər düzəltməyə, Allaha yönəlməyi çətinləşdirib bunu ayinləşdirməyə və arada bütləri vasitə etməyə çalışdılar.

İsrail oğullarının dinlərini çətinləşdirməyə çalışan bu qəribə məntiq ən açıq şəkildə "Bəqərə" surəsindəki bir qissədə izah edilir. Bu qissədə Allah İsrail oğullarına bir buzov kəsməyi əmr etmişdi. İstənilən şey sadəcə bir buzovun qurban edilməsidir və Hz.Musa da bunu xalqına bildirir. İsrail oğulları isə bu çox aydın və asanlıqla icra edilə biləcək əmri çətinləşdirir. Allah onlardan sadəcə bir buzov kəsmələrini istəyir, onlar isə dinin çətin və qarışıq olmasının lazımlılığını düşünərək onlardan istənilmədiyi halda xırdalıqlarla məşğul olurlar. Lazımsız və vacib olmayan xırdalıqlarla məşğul olarkən aralarındakı Allahın elçisinə "Bizi lağa qoyursan" deyə biləcək qədər də irəli gedirlər:

**"Yadınıza gətirin o vaxtı ki, Musa öz qövmünə: "Allah sizə bir inək kəsmənizi əmr edir!" - dedi. Onlar isə: "Bizi məsxərəyəmi qoyursan?" - dedilər". Musa da: "Allah Özü məni cahil olmaqdan saxlasın!" - dedi. Onlar dedilər: "Bizdən ötrü Rəbbinə dua edib soruş ki, o nə cür olmalıdır?" Musa: "Allah o inəyin nə çox qoca, nə də çox cavan deyil, bunların ikisinin arasında olduğunu buyurur. Sizə əmr olunan şeyi yerinə yetirin!" - dedi. Onlar dedilər: "Bizdən ötrü Rəbbinə dua et, qoy onun rəngini də bizə bildirsin". O da cavabında: "Allah onun tünd sarı rəngli və görənlərə xoş gələn olduğunu buyurur", - dedi. Onlar söylədilər: "Bizim üçün Rəbbinə dua et ki, onun əsl sifə-**

**tini bizə bildirsin, çünki biz inəkləri bir-birinə bənzədirik. Əgər Allah istəsə, əlbəttə, düz yolda olarıq". Musa dedi: "Rəbbiniz buyurur ki, o heç kəsə ram olmayıb boyunduruq götürməyən, tarla sürməyən, əkin suvarmayan, eybsiz-qüsursuz və ləkəsiz bir inəkdir". Bu zaman onlar: "İndi işi həqiqətə gətirib çıxartdın", - dedilər və onu kəsdilər. Amma az qalmışdı km, bu işi yerinə yetirməsinlər"** ("Bəqərə" surəsi, 67-71).

Yuxarıdakı qissədə də izah olunduğu kimi, Hz.Musanın xalqı Allahın əmrini yerinə yetirməkdə daima çətinlik törətdilər: hazırladıqları xırdalıqlar səbəbi ilə bu əmr haradasa icraolunmaz hala gələnə qədər təsbitləməyi qəbul etdilər. Əslində istənilən şey çox asandı: sadəcə bir buzov kəsməli idilər.

Bu gün yəhudi dininə nəzər salanda buzov qissəsində qeyd edilən xırdaçı yəhudi məntiqinin daha da artaraq davam etdiyini görmək mümkündür. Yəhudilərin dini kitabı olan Təlmudda ibadətlər və ya gündəlik yaşam haqqında ən ağlagəlməz təfsilatlar yer alır. Məsələn, bir heyvanın südünün necə sağılacağından tutmuş yandırılan bir tütsünün dumanından necə istifadə ediləcəyinə qədər saysız mövzuda heç bir dini anlam daşımayan təfərrüat yer alır. Yəhudilikdə bir insanın dindarlığının ölçüsü də bu təfsilatları nə qədər tətbiq etdiyinə görə dəyişir. Bunun əvəzinə dindarlığın təməli olan Allaha və axirətə iman məsələsi tamamən unudulur. Yəhudi dini yerinə yetirilməsi lazım olan bir qayda-qanun toplusu halına gəlib və onun Allah qorxusu, Allah rizası, Allah sevgisi kimi imani əsasları itib.

## İsrail oğullarının əmrə tabe olmaması və lənətlənməsi

İsrail oğulları Misirdən çıxdıqdan sonra Allah onlara yurd olaraq bir torpaq vəd etmişdi. Bu səfər əsnasında Hz.Musaya etdiklərini və onu saldıqları çətinlikləri əvvəlki səhifələrdə bildirdik. Vəd edilmiş torpaqlara gələndə də çətinlik yaratmağa davam etdilər:

**"Bir zaman Musa öz camaatına belə demişdi: "Ey camaatım, Allahın sizə olan nemətini xatırlayın ki, sizdən peyğəmbərlər göndərdi, padşahlar təyin etdi və aləmlərdən heç birinə vermədiyini sizə verdi. Ey camaatım! Allahın sizin üçün əzəldən müəyyən etdiyi müqəddəs torpağa daxil olun, geri dönməyin, yoxsa zərər çəkmiş halda geri dönərsiniz.**

**Onlar dedilər: "Ya Musa, orada nəhəng adamlar vardır. Onlar oradan çıxmayınca biz ora girməyəcəyik. Əgər onlar oradan çıxsalar, biz ora daxil olarıq""** ("Maidə" surəsi, 20-22).

Allah onlara dəfələrlə kömək etmişdi. Onları sudan keçirərək Firondan qurtarmış və bu torpaqları onlara vermişdi. Oradakı əzazil xalqla dava edəcəkləri təqdirdə mütləq qalib gələcəklərini vəd etmişdi. Onlar Allaha təvəkkül etməli və elçisinə tabe olmalı idilər. Ancaq Hz.Musanın xəbərdarlıqlarına qarşı çıxdılar, qorxduqlarına görə ora girmədilər. Qorxanlardan sadəcə iki kişi Allaha təvəkkül etməyin və oraya girməyin lazım olduğunu söylədi:

**"Qorxanlardan Allahın nemət verdiyi iki nəfər dedi: "Onların üstünə qapıdan girin. Əgər girsəniz, onlara mütləq qələbə çalarsınız. Əgər möminsinizsə, Allaha təvəkkül edin!""** ("Maidə" surəsi, 23).

İsrail oğulları bu xəbərdarlıqlara baxmayaraq Allahın el-

çisinə qarşı çıxıb ona sayğısızcasına səsləndilər:

**"Dedilər: "Ey Musa, nə qədər ki, onlar oradadırlar, biz ora girməyəcəyik. Sən və Rəbbin gedib onlarla vuruşun. Biz isə burada oturacağıq""** ("Maidə" surəsi, 24).

Hz.Musanın xalqının azğınlığı artıq əməlli-başlı artmışdı. Onlar peyğəmbərlərinin heç bir sözünü dinləməyəcək, açıqca qarşı çıxacaq hala gəlmişdilər. Bundan sonra Musa peyğəmbər Rəbbimizə yalvarıb onu və qardaşı Hz.Harunu bu üsyankar xalqdan ayırmasını istədi:

**"Musa dedi: "Ey Rəbbim! Mənim yalnız özümə və qardaşıma gücüm çatar. Sən bizi bu günahkar və azğın camaatdan ayır!" Allah Musaya buyurdu: "Artıq ora qırx il müddətinə onlara haram edildi. Onlar olduqları yerdə sərgərdən gəzib dolaşacaqlar. O günahkar camaatın halına acıma!""** ("Maidə" surəsi, 25-26).

Yuxarıdakı ayələrdən də göründüyü kimi, Allaha və elçisinə etdikləri bu üsyankarlıqdan sonra o bölgə düz qırx il İsrail oğullarına haram oldu və ora girə bilmədilər.

Hz.Musa ömrü boyunca Rəbbimizin risalətini təbliğ etməyə çalışdı. Xalqını bütlərdən ayırıb ona həqiqi dini anlatmaq üçün güc sərf etdi. Onun məqsədi Allahın razılığını qazanmaq üçün insanları xəbərdar edərək onları cəhənnəm əzabından qurtarmaq idi. Bunun üçün Fironla mübarizə apardı, öz xalqının yanlış inancını dəyişdirməyə çalışdı. Bunları edərkən həm Firondan və ətrafından, həm də öz xalqından əziyyət gördü. Ancaq Hz.Musa hər şeyi ilə Allah üçün yaşayan seçilmiş bir bəndədir və Rəbbimiz onu Fironun da, öz xalqının da sıxıntı və bəlalarından xilas etdi.

Peyğəmbərlərinin yolu ilə getməyən, onlara əmanət edilmiş dindən üz çevirən və "sən və Rəbbin get, ikiniz sava-

şın" deyərək nankorluq edən İsrail oğulları bütün mömin-lər üçün bir ibrət vəsiləsidir. Allah bütün insanları peyğəm-bərindən üz çevirmiş İsrail oğulları kimi olmaması üçün be-lə xəbərdar edir:

**"Ey iman gətirənlər! Musaya əziyyət verən kəslər ki-mi olmayın. Allah onların dediklərindən təmizə çıxart-dı. O, Allah yanında çox hörmətli idi"** ("Əhzab" surə-si, 69).

**"Nə malları, nə də oğul-uşağı səni təəccübləndirməsin. Allah onlarla ancaq münafiqlərə dünyada əzab ver-mək, kafir olduqları halda, canlarını almaq istər" ("Tövbə" surəsi, 55).**

## Hz.Musa və elm sahibi olan insan

Quranda "Kəhf" surəsinin içində böyük bir qissə Hz.Musadan bəhs edir. Bu qissəyə baxdığımızda bu hadisələrin Hz.Musanın həyatının tam olaraq hansı dövründə keçdiyini anlaya bilmirik. Ehtimal edilən hadisə Hz.Musanın İsrail oğulları ilə birlikdə Misirdən çıxmasından sonra həyata keçmiş ola bilər. Bu qissənin ən vacib cəhəti isə rəmzlərlə dolu bir izahat olması, Allah dərgahından verilən bir elm və bu elmə sahib olan insanla Hz.Musanın dialoqlarından bəhs etməsidir. Bu qissənin əvvəlində Hz.Musa gənc köməkçisi ilə bir səfərə çıxar:

**"Yadına sal ki, bir zaman Musa öz gənc dostuna belə demişdi: "Mən iki dənizin qovuşduğu yerə çatmayınca və uzun müddət gəzib dolanmayınca geri dönməyəcəyəm!"**

**Onlar iki dənizin qovuşduğu yerə gəlib çatdıqda balığı unutmuşdular, balıq isə dənizdə bir yarğana tərəf üz tutmuşdu.**

**Onlar keçib getdikləri zaman Musa gənc dostuna dedi: "Nahar yeməyimizi gətir. Bu səfərimiz bizi lap əldən saldı!"**

**O isə: "Görürsənmi, biz qayanın yanında gizləndiyimiz zaman mən balığı unutdum. Doğrusu, onu xatırlamağı mənə yalnız şeytan unutdurdu. Balıq əcaib bir şəkildə dənizə yollanmışdır!" - deyə cavab verdi. Musa: "Elə istədiyimiz də budur!" - dedi və onlar öz ləpirlərinin izinə düşüb gəldikləri yolla geri qayıtdılar"**

("Kəhf" surəsi, 60-64).

Bu ayələrdə vacib hikmətlər yer alır. Diqqət edilirsə, Hz.Musa "yeməyimizi gətir, bu səfərimiz bizi lap əldən saldı" deməklə yemək vaxtını istirahət vaxtına uyğunlaşdırır. Halbuki başqa birisi yemək üçün bir, istirahət üçünsə ayrı bir fasilə verə bilərdi. Hz.Musanın bu hərəkəti özündə müsəlmanın öz vaxtını çox yaxşı dəyərləndirməsi, bu məqsədlə bir neçə işi eyni anda məntiqli şəkildə planlaşdıraraq görməsi kimi dərsləri ehtiva edir.

Başqa bir vacib hikmət səfər əsnasında yeməyin unudulması və bu unutqanlığın səbəbinin şeytan olduğunun açıqlanmasıdır. Burada şeytanın insanın üzərində vacib bir təsiri açıqlanır. Şeytan insanın unutqanlığına səbəb ola bilir. Məsələn, şeytan dinin və müsəlmanların xeyrinə olan faydalı bir işi unutdurmağa çalışır. Ən böyük məqsədi də insana Allahı unutdurmaq, onun Allahı anmasına və düşünməsinə mane olmaqdır. Şeytanın bu təsirinə qarşı iman edən bir insanın ən yaxşı mübarizəsi daima Allahı xatırlamasıdır.

Üçüncü bir hikmət Hz.Musanın sözügedən unutma məsələsini bir əlamət kimi qəbul etməsi və bunun ardından yolunu dəyişdirməsidir. Bu da Hz.Musanın daima Allaha bağlı olmasının, qarşılaşdığı hadisələrin Onun yaratdığını bilən və buna görə hadisələrdən nəticə çıxara bilən çox ağıllı və bacarıqlı bir insan olmasının əlamətidir.

Hz.Musa və gənc dostu yeməyi unutmalarını işarə kimi görüb izləri təqib edib geri döndülər. Daha sonra Hz.Musa bir kişi ilə rastlaşdı. Bu kişinin adı Quranda bildirilmir, ancaq geniş yayılaraq onun haqqında "Xızır" deyə söz edilir. Bu kişidə Allahın verdiyi xüsusi bir elm var. Hz.Musa bu elmi ona öyrətməyini istəyib, lakin o kişi Hz.Musaya buna

səbrinin çatmayacağını anlatmışdı. Qissə belədir:

**"Öz dərgahımızdan mərhəmət əta etdiyimiz və Öz tərəfimizdən elm öyrətdiyimiz bəndələrimizdən birini tapdılar.**

**Musa ondan soruşdu: "Öyrədildiyin doğru yolu göstərən elmdən mənə öyrətmək şərtilə sənə tabe olummu?"**

**Belə cavab verdi: "Sən mənimlə bir yerdə olsan əsla dözə bilməzsən. Axı sən bilmədiyin bir şeyə necə dözə bilərsən?**

**Musa dedi: "İnşallah, səbrli olduğumu görəcəksən. Sənin heç bir əmrindən çıxmayacağam!"**

**Dedi: "Əgər mənə tabe olacaqsansa, səbəbini sənə izah etməyincə məndən heç bir şey haqqında soruşma!" - dedi.**

**Bundan sonra onlar durub yola düşdülər. Gəmiyə mindikləri zaman onu deşdi. Musa dedi: "Sən gəmidə olanları suya qərq etmək üçünmü gəmini deşdin? Doğrusu, böyük bir şey etdin".**

**Belə cavab verdi: "Sənə demədimmi ki, mənimlə bir yerdə olanda əsla dözə bilməzsən?"**

**Musa dedi: "Unutduğum bir şeyə görə məni danlama və məni öz işimdə çətinliyə salma!"**

**Yenə getdilər, nəhayət bir oğlan uşağı ilə rastlaşdıqda dərhal onu öldürdü. Musa dedi: "Pak (məsum) bir canamı qıydın? Doğrudan da, çox pis bir şey etdin".**

**Yenə belə cavab: "Sənə demədimmi ki, mənimlə birlikdə olanda əsla dözə bilməzsən?**

**Musa dedi: "Əgər bundan sonra səndən bir şey barəsində xəbər alsam, bir daha mənimlə yoldaşlıq etmə. Sən artıq mənim tərəfimdən üzrlüsən".**

**Sonra yenə yola düzəlib getdilər. Axırda bir məmləkət əhlinə yetişib onlardan yeməyə bir şey istədilər. Əhali onları qonaq etmək istəmədi. Onlar orada yıxılmaq üzrə olan bir divar gördülər. Onu düzəltdi. Musa dedi: "Əgər istəsəydin, sözsüz ki, bunun müqabilində bir muzd alardın"...**

**Dedi: "Bu artıq mənimlə sənin aranda ayrılıq vaxtıdır, dözə bilmədiyin şeylərin yozumunu sənə xəbər verəcəyəm!**

**Belə ki, gəmi dənizdə çalışıb-vuruşan bir dəstə yoxsula mənsub idi. Mən onu xarab etmək istədim, çünki həmin adamların arasında hər bir saz gəmini zorla ələ keçirən bir padşah var idi.**

**Oğlana gəldikdə, onun ata-anası mömin kimsələr idi. Buna görə də biz ata-anasını da azğınlığa və küfrə sürükləməsindən qorxduq. Və Rəbbinin onun əvəzində onlara daha təmiz və daha mərhəmətli olan başqa bir övlad verməsini istədik.**

**Divara gəldikdə isə, o, şəhərdə olan iki yetim oğlanın idi. Altında onlara çatası bir xəzinə vardı. Onların atası əməlisaleh idi. Rəbbin onların həddi-büluğa çatmalarını və Rəbbindən bir mərhəmət olaraq öz xəzinələrini tapıb çıxartmalarını istədi.**

**Mən bunları öz-özümdən etmədim. Sənin səbr edib dözə bilmədiyin şeylərin yozumu budur!""** ("Kəhf" surəsi, 65-82).

Bu qissədən çıxarılması lazım olan vacib bir dərs var: Allah insanların şər kimi gördüyü hadisələrin ardınca çox böyük xeyirlər yaradır. Bir gəminin ortada heç bir aşkar səbəb olmadan batırılması, bir uşağın aşkar bir günahı yox ikən öldürülməsi kimi hadisələr səthi olaraq dəyərləndirilsə, bun-

lar böyük bir şər (pislik) kimi görünürlər. Ancaq bu qissədə də izah edildiyi kimi, Allahın bu hadisələri yaratmasında insanın görmədiyi və bilmədiyi böyük xeyirlər və hikmətlər var. Əlbəttə, Hz.Musa ilə bağlı bu qissədə izah edilən hadisələr tamamən batini bir vəziyyətdir. Yəni gündəlik həyatda qarşılaşılacaq hadisələr deyil. Burada əsas mövzu Allahın vəzifələndirdiyi bir insanın varlığı məsələsidir.

Amma insanlar gündəlik həyatda qarşılaşdıqları hadisələrin də bu yöndə xeyrini düşünməlidir. Bu gün dünyada gerçəkləşən və insanlar tərəfindən "şər" kimi qəbul edilib "niyə bu pisliklər yaşanır" kimi bir məntiqlə dəyərləndirilən hadisələr qəti surətdə ilahi bir məqsədə yönəlikdir. Əgər insan səbr etsə və qavramaq üçün səmimi bir səy göstərsə, Allah bu hikmətləri ona başa sala bilir.



# NƏTİCƏ

Bura qədər yer verdiyimiz ayələrdən göründüyü kimi, Quranda Hz.Musadan bir çox yerdə çox geniş şəkildə söz açılmışdır. Buna görə Hz.Musanın həyatı möminlər üçün çox gözəl nəsihət və xatırlatmalarla doludur. Bunlardan bəzilərini kitab boyunca Hz.Musanın anadan olmasından etibarən incələdik.

Bu dərsləri bir daha nəticə çıxarmaq üçün düşünsək, bir insanın həyatındakı qədərin mütləq hakimiyyətini və mömin saleh bandələr üçün qədərin mütləq gözəlliyi ilə qarşılaşarıq.

Hz.Musa ilə bağlı ayələrdən çıxarmalı olduğumuz dərslərin bir qismini belə təsnif edə bilərik:

## 1. Tale (qədər) və hikmətləri

Hz.Musanın anadan olanda peyğəmbər olacağı və aparacağı mübarizə taleyində məlum idi. Bunlar hətta o, anadan olmamışdan əvvəl də məlum idi. Biz də özümüzə baxdığımızda bəlli bir tale üzərində yaşadığımızı dərk edirik. Bu tale bizim üçün ən yaxşı olanıdır. Bu taleyi bizə Yaradanımız və Rəbbimiz olan Uca Allah hazırlayıb. O, sonsuz elm və mərhəmət sahibidir. Buna görə biz özümüz üçün yaradılan taleyə razı olmalı, nə olursa olsun yaşadığımız hadisələrin bu tale çərçivəsində Rəbbimiz tərəfindən yazıldığını düşünüb sevinclə qarşılamalıyıq.

## 2. Haqlının yanında olmaq

Kitabın əvvəlində Hz.Musanın öz tərəfdarlarından olan bir kişinin tərəfini saxlayıb birini yanlışlıqla öldürməsindən bəhs etmişdik. Burada öz tərəfindən (ailəsindən, qəbiləsindən, xalqından və s.) olan insanın tərəfini saxlamağın yanlışlığı vurğulanır. İnsanların üstünlüyünü təmin edən amil hansısa bir ailəyə, qəbiləyə və ya xalqa mənsub olmaları deyil, haqlı olmalarıdır. Bu səbəblə də ortada bizim hərəkətlərimizi nizamlayacaq hər şeyin fövqündə bir ədalət anlayışı və hissi olmalıdır.

## 3. Allaha güvənmək və təvəkkül

Hz.Musa qissəsində ən çox təvəkkül anlayışı işlənir. Hz.Musanın emosional şəxs olmasına baxmayaraq Allah onu təvəkküllü olma istiqamətində xəbərdar edərək maarifləndirmişdi. Musa peyğəmbər həyatı boyunca qarşılaşdığı hadisələrdə Allaha mütləq güvənməyin gərəkliliyini və Onun hər şeyə hakim olduğunu öyrənmişdi. Bu əsnada etdiyi xətaları tövbə edib düzəltmişdi.

Allaha güvənmək, Ona təvəkkül etmək üçün Allahı yaxşıca tanımaq və Onu lazımınca təqdir etmək gərəkdir. Allahın sifətlərini düşündükdə Onun bütün həyatın Yaradıcısı olduğu, canı alan olduğu, mütləq güc sahibi olduğu, hər şeyi əhatə etdiyi, "ol" deməsi ilə hər şeyin olduğu, mülkün mütləq və yeganə sahibi olduğu, mərhəmət sahibi olduğu, dualara əvəz verən olduğu, dilədiyinə hidayəti verəcəyi çox rahat başa düşülür. Bütün işlər Allaha dönəcəkdir. Əgər Yaradanımızı daha yaxşı tanıyıb Onun qüdrətini lazımınca təqdir etsək, söykəniləcək, güvəniləcək və təvəkkül ediləcək tək varlığın Allah olduğunu başa düşə bilərik.

## 4. Dünya həyatının və mal-mülkün müvəqqəti olması

Qarun qissəsində müfəssəl şəkildə gördüyümüz kimi, insan öləndə qoyub getdiyi mal-mülk ona heç vaxt bir fayda gətirməz. Hətta o mallar onlar Allahın razılığını qazanmaq üçün işlənmirsə, dünya və axirət əzabının artmasına səbəb olar. Var-dövlət heç vaxt qibtə vəsiləsi də olmamalıdır. Çünki Allah istədiyinə ruzini genişlədib yayar, istədiyindən də kəsər. Allah rizası üçün istifadə edilmədikcə insanın çox var-dövlətinin olması ona heç bir fayda vermədiyi kimi, Allahın rizasına uyan insanların malının az olması da onlar üçün bir itki deyil. Buna görə də dünyadakı mal, mülk, zənginlik kədər və ya öyünmə qaynağı olmamalı, yalnız Allahın rizasına uyğun yaşamaq və təqva ölçü olaraq əsas götürülməlidir.

## 5. Cahilliyə düşüncəsi və insanın özünü paklaşdırması

Kitab boyunca nümunələrini gördüyümüz kimi, İsrail oğulları Hz.Musa gəldikdə onun gətirdiyi dini qəbul etdilər, amma təsiri altına düşdükləri cahilliyə mədəniyyətindən də uzaqlaşmadılar. Əksinə, cahilliyə məntiqinin haqq dinə gətirməyə çalışdılar. Bu, bütün insanların çox diqqət etməli olduğu bir məsələdir. İnsan düşüncə və inancının inkişafı zamanı bəzi yanlış şeyləri də qəbul edə bilər. Ya da dinlə sonradan tanış olub bir sıra qədim düşüncələri ola bilər.

Hz.Musa qissəsində də xalq bütə sitayiş edən insanları görüncə cahilliyə düşüncəsindən tam təmizlənmədiyi və imanı çox zəif olduğu üçün bütpərəstlərə rəğbət göstərib onlar kimi olmaq istəmişdi. Bu nümunə bizə insanın keçmiş

düşüncə və ya inanclarını davam etdirə bilməkdəki tək ölçüsünün Quran olmasının lazımlılığını göstərir. Belə edildikdə səhv inanc və düşüncələr təmizlənəcək və insanlar gerçək Quran əxlaqına yiyələnəcəklər.

## 6. Münafiqlər və davranışları

Hz.Musa qissəsində bir cəmiyyət içindəki münafiqləri və onların verə biləcəkləri ziyanları da görürük. Münafiq davranışı kimi Samiri bizə bir çox vacib özəllikləri göstərir.

Münafiqlər möminlərin içindən çıxır. Hz.Musanın dövründə də Samiri İsrail oğullarının arasından çıxmışdı. Münafiqlər fitnə-fəsad törətmək üçün xalqın ən zəif anını gözləyirlər. Uğura nail olacaqlarını hiss etdikdə hərəkətə gəlirlər. İnsanların zəifliyindən istifadə edib onları azdırmağa çalışırlar. Bunu edərkən yoldan döndərdikləri insanların nəfslərinə xitab edirlər. Onların xoşuna gələcək söz və vədlərdən istifadə edirlər. Doğrudan Allahı və dini inkar etməklə ortaya çıxmazlar, əksinə, inanclı olduqları, hətta dini hamıdan daha yaxşı bildikləri və insanlara yardımçı olacaqları iddiası ilə yola çıxırlar. Münafiqlər mövzusunda diqqət edilməsi çox vacib olan bir məsələ də təkbaşına bütün xalqı təsirləndirə bilmələridir. Samiri də özündə bütün bu xüsusiyyətləri ehtiva edən tarixi bir münafiqdir.

## 7. İsrail oğulları və onların əsas davranışı

Hz.Musa ilə bağlı ayələrə baxanda onun mübarizəsində xalqının böyük yer tutduğu görünür. Bu xalqın əsas xarakterində kobudluq, bütpərəst düşüncə, peyğəmbərə üsyan var. Allahın onlara verdiyi peyğəmbərlərə, kitablara və müxtəlif nemətlərə layiq olmayan xalq bu səbəblə bu şərəf və

nemətlərdən məhrum edilmişdir. Bu da bütün möminlər üçün bir ibrət dərsidir.

### 8. Buzov qissəsi və insanın təfsilat düşkünlüyü

Bu qissədə əsas bir baxış bucağı anladılar: insanın təfsilat düşkünlüyü... Dinin asan, açıq və yalın halına baxmayaraq insanlar onu çətinləşdirməyə, təfərrüatlarla boğmağa, əsl vacib olan məqamlarından çıxarmağa çalışırlar. Halbuki Allah haqq dinin Hz.İbrahimin dini kimi asan olduğunu açıqlayır. Təfsilat istəyinin əslində insanları çətinliyə düçar etdiyi və onların Allahın istəklərindən uzaqlaşmasına səbəb ola biləcəyi göstərilir.

### 9. Xızır qissəsi və Allah dərgahından bir elm

Bu qissədə bizə hadisələrin görünən tərəfindən başqa bir gerçəyin ola biləcəyi anladılır. Bu, Allah dərgahından verilən xüsusi bir elmdir. Bizim zahiri görünüşü ilə pis kimi gördüyümüz şeylərin əslində pis olmaya biləcəyi, əksinə, çox fərqli bir görüntüsünün ola biləcəyi misallarla açıqlanır.

Nəticədə möminlərə nümunə kimi qalan ən böyük dərs də Hz.Musa və Hz.Harunun imanları və gözəl əxlaqlarıdır. Hər ikisi də kitab verilən İslam peyğəmbərləridir. Hz.Musanın mübarizəsi bəlkə də minlərlə il əvvəl olub. Lakin göstərdiyi davranışlar, söylədiyi sözlər bizim üçün hələ də gözəl bir nümunədir. Allah onu Özü üçün seçmiş, onunla söhbət etmiş, sözlərini insanlara çatdırsın deyə onu elçi olaraq göndərmişdir. Allah hər iki mübarək insandan Quranda belə bəhs edir:

**"Sonradan gələnlər içərisində onların hər ikisi üçün**

**(yaxşı ad, gözəl xatirə) qoyduq.**
**Musaya və Haruna salam olsun!"**
**Həqiqətən, Biz yaxşı əməl sahiblərini belə mükafatlandırırıq!**
**Şübhəsiz ki, onların hər ikisi Bizim mömin bəndələrimizdən idi"** ("Saffat" surəsi, 119-122).

Allah onlardan və başqa elçilərindən razı olmuşdur. Rəbbimiz elçilərinin həyatını daha yaxşı qavramağı və onlar kimi razı olunan bəndələrdən olmağı bizə də nəsib etsin.

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə ortaya atılmış, ancaq heç bir müvəffəqiyyət qazana bilməmiş elmdən uzaq bir sayıqlamadan başqa bir şey deyil. Canlı aləmin cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə elmin kainatda və canlılarda çox açıq bir "nizam" olmasını sübut etməsi ilə çürümüşdür. Beləliklə, bütün kainatın və canlıların Allah tərəfindən yaradılması həqiqəti elm tərəfindən də sübut olunmuşdur. Təkamül nəzəriyyəsini ayaqda saxlaya bilmək üçün bu gün bütün dünyada aparılan təbliğat yalnız elmi həqiqətlərin təhrif edilməsinə, bu həqiqətlərin birtərəfli şəkildə izah olunmasına, elm görüntüsü altında söylənən yalanlara və yol verilən saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat da həqiqəti ört-basdır edib gizlədə bilmir. Təkamül nəzəriyyəsinin elm tarixindəki ən böyük yalan olması faktı son 20-30 ildə elm dünyasında getdikcə daha yüksək səslə dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinistlərin iddialarının tamamilə yanlış olduğunu ortaya qoymuş və bu həqiqət bir xeyli alim tərəfindən qeyd edilmişdir. Ələlxüsus da ABŞ-da biologiya, biokimya, paleontologiya kimi müxtəlif elm sahələrində çalışan alimlər darvinizmin artıq öz qüvvəsini itirdiyini görür, canlıların mənşəyini artıq "idraki nizam" (intelligent design) qavramı əsasında açıqlayırlar. Bəhs edilən "idraki nizam" bütün canlıların Allah tərəfindən yaradılmasının elmi

cəhətdən sübut olunmuş bir dəlilidir.

Təkamül nəzəriyyəsinin süqutunu və yaradılışın dəlillərini başqa əksər çalışmalarımızda bütün elmi təfərrüatları ilə qeyd etdik və qeyd etməyə davam edirik. Ancaq bu məsələ çox əhəmiyyətli olduğu üçün burada da bir çox məsələləri xülasə etmək zəruri və faydalıdır.

## Darvini yıxan çətinliklər

Təkamül nəzəriyyəsi tarixi kökləri qədim Yunanıstana qədər gedib çıxan bir təlim olsa da o, yalnız XIX əsrdə əhatəli şəkildə ortaya çıxdı. Nəzəriyyəni elm dünyasının gündəminə salan ən mühüm hadisə Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Cinslərin mənşəyi" adlı kitabı oldu. Darvin bu kitabda canlıların müxtəlif növlərinin Allah tərəfindən ayrı-ayrılıqda yaradılması gerçəyinə qarşı çıxırdı. Darvinə görə, bütün cinslər müştərək bir atadan gəlirdi və onlar zaman ötdükcə kiçik dəyişikliklər sayəsində bir-birindən fərqlənmişdilər.

Darvinin nəzəriyyəsinin heç bir maddi dəlili yox idi. O, özü də bunu qəbul edirdi ki, bu nəzəriyyə yalnız "ortaya atılan məntiq fikir" idi. Hətta Darvinin öz kitabındakı "Nəzəriyyənin çətinlikləri" başlıqlı geniş hissədə də etiraf etdiyi kimi, bu nəzəriyyə bir çox mühüm sual qarşısında aciz qalırdı.



Darvin belə zənn edirdi ki, onun nəzəriyyəsinin qarşısında dayanan çətinliklər elmin inkişafı ilə aradan qaldırılacaq, yəni elmi kəşflər bu nəzəriyyənin elmi əsaslarını gücləndirəcək. O, bunu kitabının çox

yerində bildirmişdi. Ancaq durmadan inkişaf edən elm Darvinin bu ümidlərinin tam əksinə olaraq həmin nəzəriyyənin başlıca müddəalarını bir-birinin ardınca sarsıdırdı.

Darvinizmin elm qarşısındakı məğlubiyyəti üç əsas başlıqda incələnə bilər:

1. Bu nəzəriyyə həyatın Yer üzündə ilk dəfə necə ortaya çıxdığını heç cür açıqlaya bilmir.

2. Darvinizm nəzəriyyəsinin ortaya atdığı "təkamül mexanizmləri"nin həqiqətdə təkmilləşdirici təsirə malik olduğunu göstərən heç bir elmi sübut yoxdur.

3. Daşlaşmış bitki qalıqları və torf qatları təkamül nəzəriyyəsinin irəli sürdüyü proqnozların tam əksini ortaya çıxarır.

Bu bölümdə bu əsas müddəaları onların mahiyyəti baxımından incələyəcəyik.

## Keçilə bilməyən ilk pillə: həyatın mənşəyi

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin ibtidai dünyada təxminən 3,8 milyard il əvvəl meydana çıxan yeganə bir canlı hüceyrədən əmələ gəldiyini iddia edir. Tək hüceyrənin milyonlarla kompleks canlı növünü necə meydana gətirməsi və belə bir təkamül əgər həqiqətən də olubsa, bunun izlərinin daşlaşmış bitki qalıqlarında, torf qatlarında niyə tapılmaması darvinizm nəzəriyyəsinin cavablandıra bilmədiyi suallardır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül mərhələsinin ilk pilləsində dayanmaq lazımdır: bəhs edilən o "ilk hüceyrə" necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi yaradılışı rədd etdiyi və heç bir fövqəltəbii müdaxiləni qəbul etmədiyi üçün "ilk hüceyrə"nin

heç bir plan və nizam-intizam olmadan, təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə görə, cansız maddə təsadüflər nəticəsində ortaya canlı bir hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən əsas bioloji qanunlara zidd iddiadır.

## "Həyat həyatdan gəlir"

Darvin öz kitabında həyatın mənbəyi barədə heç nə qeyd etməyib. Çünki onun dövründəki ibtidai elm canlıların çox sadə bir quruluşa malik olduğunu güman və iddia edirdi. Orta əsrlərdən bəri böyük etimad bəslənən və "spontan generasiya" adlanan nəzəriyyənin tərəfdarları cansız maddələrin təsadüfən bir yerə yığışıb canlı bir varlıq meydana gətirməsinə inanırdı. Bu dövrdə böcəklərin yemək qalıqlarından, siçanların isə buğdadan əmələ gəldiyinə şübhə etmirdilər. Bunu isbat etmək üçün hətta qəribə təcrübələr də aparmışdılar. Çirkli bir parçanın üstünə bir az buğda qoyulmuş, bir qədər gözləyərlərsə, bu çulğaşmadan siçanların meydana gələcəyi zənn edilmişdi.

Çiy ətin qurd salması da həyatın cansız maddələrdən meydana gəlməsinə dəlil sayılırdı. Halbuki daha sonralar məlum olacaqdı ki, ətin üstündə yaranan qurdlar öz-özünə meydana gəlmir, milçəklərin gətirib ora qoyduğu gözlə görünməyən sürfələrdən çıxırlar.

Darvin özünün "Cinslərin mənşəyi" adlı kitabını yazdığı dövrdə isə elm dünyası belə hesab edirdi ki, bakteriyalar cansız maddədən meydana gəlir. Halbuki məşhur fransız bioloqu Luis Paster təkamülün əsası olan bu inancı Darvinin kitabının nəşr edilməsindən beş il sonra qəti olaraq rədd etdi. Paster apardığı çalışma və təcrübələrdən sonra gəldiyi nəticəni belə xülasə edirdi: "Cansız maddələrin həyat əmələ

gətirməsinə dair iddia daha qəti olaraq tarixin arxivinə verilmişdir" (Sidney Fox, Klaus Dose, ***Molecular Evolution and The Origin of Life***, Marcel Dekker, New York, 1977, s. 2.).

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin gəldiyi nəticələrə qarşı uzun müddət mübarizə apardılar. Ancaq inkişaf edən elm canlı hüceyrənin mürəkkəb quruluşunu ortaya çıxarandan sonra həyatın öz-özünə meydana gəlməsi iddiasının çürüklüyü bir daha və qəti şəkildə aydın oldu.

## XX əsrdəki nəticəsiz səylər

XX əsrdə həyatın mənşəyi mövzusu ilə bağlı proseslərin önündə gedən ilk təkamülçü məşhur rus bioloqu Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə ortaya atdığı bəzi tezislərlə canlı hüceyrənin təsadüfən meydana gələ biləcəyini isbat etməyə çalışdı. Ancaq onun bu axtarışların nəticəsiz qaldı. Oparin bunu etiraf etməyə məcbur oldu: "Təəssüf ki, hüceyrənin mənşəyi problemi təkamül nəzəriyyəsini bütövlükdə əhatə edən ən qaranlıq məsələni təşkil edir" (Alexander I. Oparin, ***Origin of Life***, Dover Publications, New York, (1936), 1953 (reprint), s. 196.).



Oparinin arxasınca gedən təkamülçülər həyatın mənşəyi mövzusunu bir yerə çıxara bilmək üçün təcrübələr aparmağa səy göstərdilər. Bu təcrübələrin ən məşhuru amerikalı kimyagər Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. S.Miller ibtidai dünyanın atmosferində olduğunu iddia etdiyi qazları bir təcrübə vasitəsilə

birləşdirərək və bu reaksiyaya enerji əlavə edərək proteinlərin tərkibindəki bir neçə üzvi molekulu (aminoasit) sintez etdi. Həmin illərdə əhəmiyyətli bir mərhələ kimi təqdim olunan bu təcrübənin nəticəsiz qalması və təcrübədə itifadə edilən atmosferin gerçək dünya atmosferindən çox fərqli olması gələcək illərdə ortaya çıxacaqdı ("New Evidence on Evolution of Early Atmosphere and Life", ***Bulletin of the American Meteorological Society***, c. 63, Kasgm 1982, s. 1328-1330).

Uzun müddət davam edən bu səssizlikdən sonra Millerin özü də istifadə elədiyi atmosferin həqiqi olmadığını etiraf etdi (Stanley Miller, ***Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules***, 1986, s. 7.).

Həyatın mənşəyi məsələsini açıqlamaq üçün təkamülçülərin XX əsrdə apardığı bütün səylər nəticəsiz qaldı. San Dieqo Skripps İnstitutundan olan tanınmış geokimyaçı Ceffri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə nəşr edilən bir məqalədə bu həqiqəti belə qəbul edir: "Bu gün XX əsri arxada qoyarkən hələ XX əsrə daxil olanda malik olduğumuz ən böyük həllini tapmamış problemlə qarşı-qarşıyayıq: həyat Yer üzündə necə başladı?" (Jeffrey Bada, ***Earth***, Öubat 1998, s. 40.).

## Həyatın kompleks quruluşu

Təkamül nəzəriyyəsinin həyatın mənşəyi mövzusunda çox ciddi çətinliyə düşməsinin əsas səbəbi ən sadə hesab edilən canlı orqanizmlərin inanılmayacaq dərəcədə qarma-qarışıq quruluşa malik olmasıdır. Canlı varlığın hüceyrəsi insan övladının düzəltdiyi texniki məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən inkişaf etmiş



laboratoriyalarında da cansız maddələri bir yerə yığaraq canlı hüceyrə əldə etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazım olan şərtlər heç vaxt təsadüflərlə izah edilməyəcək qədər çoxdur. Hüceyrənin əsaslarından biri olan proteinlərin təsadüfi olaraq sintezləşmə ehtimalı isə 500 aminoasitlik yuvarlaq bir protein üçün $10.^{950}$-də 1-dir. Ancaq riyaziyyatda $10.^{50}$-də 1-dən aşağı olanlar "imkansız" sayılır. Hüceyrənin nüvəsində yerləşən və özündə genetik bilgini gizlədən DNT molekulu isə inanılmaz bir məlumat bankıdır. İnsan DNT-sinin ehtiva etdiyi məlumatın əgər kağıza köçürülməyə çalışılsa, 500 səhifədən ibarət olan 900 cildlik bir kitabxananın meydana gələcəyi hesablanır. Bu nöqtədə çox maraqlı bir dilemma da var: DNT ancaq bəzi xüsusiləşmiş proteinlərin köməyi ilə cütləşə bilir. Ancaq bu proteinlərin sintezi də ancaq DNT-dəki məlumatlara uyğun olaraq həyata keçir. Bir-birinə bağlı olduqlarına görə cütləşmənin meydana gələ bilməsi üçün onların ikisinin də eyni anda mövcud olması lazımdır. Bu isə həyatın özü-özündən meydana gəlməsi barədəki ssenarini çətinliyə salır. San Dieqo Kaliforniya Universitetindən məşhur təkamülçü alim, professor Lesli Orgel (Leslie Orgel) "Scientific American" jurnalının 1994-cü ilin oktyabr ayındakı sayında bu həqiqəti belə etiraf edir:

"Son dərəcə kompleks quruluşlara sahib olan proteinlərin və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni vaxtda təsadüf nəticəsində əmələ gəlməsi hətta ehtimaldan da həddindən artıq uzaqdır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Dolayısı ilə insan həyatın kimyəvi yollarla ortaya çıxmasının heç vaxt mümkün olmaması nəticəsinə gəlmək məcburiyyətində qalır" (Leslie E. Orgel, "The Origin of Life on Earth", ***Scientific***

***American***, c. 271, Ekim 1994, s. 78.).

Şübhəsiz ki, əgər həyatın təsadüflərlə ortaya çıxmasının qeyri-mümkünlüyü təsdiqlənirsə, bu vəziyyətdə onun fövqəltəbii şəkildə yaradıldığını qəbul etmək lazımdır. Bu həqiqət isə əsas məqsədi yaradılışı rədd etmək olan təkamül nəzəriyyəsinin açıq-aşkar mənasızlığını ortaya çıxarır.

## Təkamülün xəyali mexanizmləri

Darvinizm nəzəriyyəsini puç edən başqa ikinci böyük məsələ bu nəzəriyyənin "təkamül mexanizmləri" kimi ortaya atdığı iki anlayışın da əsl həqiqətdə heç bir təkmilləşdirici gücə malik olmamasının sübuta yetirilməsidir. Darvin ortaya atdığı təkamül iddiasını tam şəkildə "təbii seleksiya" mexanizminə bağlamışdı. Onun bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da görünürdü: "Cinslərin mənşəyi təbii seleksiya yolu ilə".

Təbii seleksiya təbii seçmə deməkdir və təbiətdəki həyat mübarizəsində təbii şərtlərə uyğun olan güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən hürküdülən bir maral sürüsündə daha sürətli qaça bilənlər həyatda qalacaqlar. Beləliklə, maral sürüsü sürətlilərdən və güclülərdən meydana gəlməlidir. Ancaq bu mexanizm marallları əlbəttə, təkmilləşdirməz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Dolayısı ilə təbii seleksiya mexanizmi heç bir təkmilləşdirici gücə malik deyil. Darvin də bu həqiqətin fərqində idi və "Cinslərin mənşəyi" kitabında **"faydalı dəyişikliklər meydana gəlmədiyi vaxtda təbii seleksiya heç nə edə bilməz"** demək məcburiyyətində qalmışdı (Charles Darwin, ***The Origin of Species: A Facsimile of the First Edition***, Harvard University Press, 1964, s. 189).

## Lamarkın təsiri

Yaxşı, bəs bu "faydalı dəyişikliklər" necə meydana gəldi? Darvin öz dövrünün ibtidai elm anlayışı daxilində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloqu Lamarka görə, canlılar həyatları boyu məruz qaldıqları fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə ötürülərək yığılan bu xüsusiyyətlər nəticəsində isə yeni cinslər meydana çıxır. Məsələn, Lamark deyirdi ki, zürafələr ceyranlardan əmələ gəliblər. Belə ki, hündür ağacların yarpaqlarını yemək üçün səy göstərərkən onların nəsildən-nəslə boyları uzanıb.

Darvin də buna oxşar misallar gətirmiş, məsələn, "Cinslərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların bir müddət sonra balinalara çevrildiyini iddia etmişdi (Charles Darwin, ***The Origin of Species: A Facsimile of the First Edition***, Harvard University Press, 1964, s. 184).

Amma Mendel tərəfindən kəşf olunmuş və XX əsrdə inkişaf edən genetika elmi ilə öz qəti təsdiqini tapmış atavizm qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini qəti olaraq darmadağın etdi. Beləliklə, təbii seleksiya bütünlüklə təsirsiz bir mexanizm olaraq qaldı.

## Neodarvinizm və mutasiyalar

Darvinistlər isə bu vəziyyətə bir çözüm tapa bilmək üçün 1930-cu illərin axırlarında "Müasir sintetik nəzəriyyə"ni, daha məşhur adı ilə desək, neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seleksiya konsepsiyasına "faydalı dəyişikliklərin səbəbi" kimi mutasiyaları,yəni canlıların genlərinə radiasiya kimi xarici təsirlərin, ya da köçürmə səhvləri nəticəsində meydana gələn pozuntuları əlavə etdi.

Bu gün dünyada təkamül adına hələ də qəbul edilən



model neodarvinizmdir. Nəzəriyyə Yer üzündə olan milyonlarla canlı növünün, bu canlıların qulaq, göz, ağciyər, qanad kimi saysız kompleks orqanlarının "mutasiyalara", yəni genetik pozuntulara əsaslanan bir mərhələ nəticəsində əmələ gəldiyini iddia edir. Ancaq nəzəriyyəni kəsərsiz edən açıq bir elmi həqiqət var: **mutasiyalar canlıları inkişaf etdirməz, əksinə, onlara həmişə zərər verərlər.**

Bunun səbəbi çax sadədir: DNT çox kompleks bir quruluşa malikdir. Bu molekul üzərində meydana gələn hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G.Ranganathan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir hallarda meydana gəlirlər və ən yaxşı ehtimalla təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamülçü bir inkişafa səbəb ola bilməyəcəyini göstərir. Onsuz da yüksək dərəcədə

əlahiddələşmiş bir orqanizmdə meydana gələn təsadüfi bir hal ya təsirsiz olacaq, ya da zərərli. Bir qol saatında meydana gələcək təsadüfi dəyişiklik onu inkişaf etdirməyəcəkdir. Böyük ehtimalla ona zərər verəcək və ya ən yaxşı ehtimalla təsirsiz qalacaq. Bir zəlzələ bir şəhəri inkişaf etdirməz, əksinə, onu dağıdar" (B. G. Ranganathan, ***Origins?***, The Banner Of Truth Trust, Pennsylvania, 1988.).

Bu günə qədər heç bir faydalı mutasiya nümunəsi olmayıb. Bütün mutasiyaların zərərli olduğu müəyyənləşdi. Aydın oldu ki, təkamül nəzəriyyəsinin "təkamül mexanizmi" kimi göstərdiyi mutasiyalar həqiqətdə canlılara ancaq ziyan verən, onları şikəst edən bir genetik hadisədir. (İnsanlarda mutasiyanın ən çox görünən təsiri xərçəng xəstəliyidir). Əlbəttə, zərərverici bir mexanizm "təkamül mexanizmi" ola bilməz. Təbii seleksiya isə Darvinin də qəbul etdiyi kimi, "özbaşına heç nə edə bilməz". Bu həqiqət bizlərə təbiətdə heç bir "təkamül mexanizmi"nin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə isə təkamül deyilən xəyali mərhələ də ola bilməz.

## Daşlaşmış qalıqlarda keçid formalarının izi yoxdur

Təkamül nəzəriyyəsinin iddia etdiyi ssenarinin baş verməməsinin ən açıq sübutu isə daşlaşmış bitki qalığı qatları, torf laylarıdır. Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birindən törəmişdir. İlk canlı növü vaxt keçəndən sonra başqa formaya çevrilmişi və bütün cinslər bu şəkildə ortaya çıxmışdır. Nəzəriyyəyə görə, bu dəyişiklik yüz milyon illər boyu sürərək mərhələ-mərhələ davam etmişdir.

Bu vəziyyətdə iddia edilən uzun dəyişiklik müddəti





boyunca saysız-hesabsız “ara cinslər”in meydana gəldiyini və yaşadığını qəbul etmək lazımdır. Məsələn, keçmişdə özündə balıq xüsusiyyətlərinin olmasına baxmayaraq bir yandan da bəzi sürünənlərin xüsusiyyətlərini qazanmış yarı balıq-yarı sürünən canlılar yaşamış olmalı idi. Yaxud da sürünənlərin xüsusiyyətlərinə malik olarkən bir yandan da bəzi quş xüsusiyyətləri qazanmış sürünən-quşlar ortaya çıxmalı idi. Ancaq onlar keçid mərhələsində olduqları üçün şikəst, nöqsanlı və qüsurlu canlılar olmalı idilər. Təkamülçülər keçmişdə yaşadıqlarına inandıqları bu nəzəri məxluqlara **“ara keçid forması”** adını verirlər.

Əgər həqiqətən keçmişdə bu cür canlılar yaşayıbsa, onda onların sayları və növləri milyonlarla, hətta milyardlarla olmalı idi. Və bu qəribə canlıların qalıqlarına mütləq daşlaşmış qalıqlarda, torf laylarında rast gəlinməli idi. Darvin “Cinslərin mənşəyi”ndə bunu belə açıqlamışdır: “Əgər nəzəriyyə düzdürsə, cinsləri bir-birinə bağlayan saysız ara keçid növləri mütləq yaşamalıdır... Bunların yaşamasına dair

sübutlar da təkcə daşlaşmış bitki qalıqları qatları arasında tapıla bilər (Charles Darwin, ***The Origin of Species: A Facsimile of the First Edition***, Harvard University Press, 1964, s. 179).

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortalarından bu yana dünyanın dörd bir tərəfində daşlaşmış qalıqlar tədqiq edilsə də həmin laylarda bu ara keçid formalarına heç vaxt rast gəlinməyib. Aparılmış qazıntı və araşdırmalar zamanı əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə olaraq göstərdi ki, canlılar Yer üzündə birdən-birə, nöqsansız və qüsursuz bir şəkildə ortaya çıxıblar.

Tanınmış ingilis paleontoloqu Derek U.Eger özü təkamülçü olsa da bu gerçəyi belə etiraf edir:

"Problemimiz budur ki, geoloji layları, daşlaşmış qatları bütün təfərrüatı ilə araşdıranda, istər cinslər, istərsə də siniflər səviyyəsində olsun, davamlı olaraq həmişə eyni həqiqətlə qarşılaşırıq: mərhələli təkamüllə inkişaf edən yox, Yer kürəsində birdən-birə meydana gələn qruplar görürük (Derek A. Ager, ***"The Nature of the Fossil Record"***, ***Proceedings of the British Geological Association***, c. 87, 1976, s. 133).

Yəni bütün canlı növləri daşlaşmış laylarda aralarında heç bir keçid forması olmadan, nöqsansız şəkildə ani olaraq ortaya çıxırlar. Bu isə Darvinin düşüncülərinin tam əksi və canlı növlərinin yaradıldığını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün özü-özündən təkmilləşməsinin, heç bir ata olmadan bir anda və qüsursuz olaraq ortaya çıxmasının yeganə izahı o cinsin yaradılmasıdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

"Yaradılış və təkamül hazırda yaşayan canlıların mənşəyi

haqqında iki mümkün açıqlamalardır. Canlılar dünya üzərində ya tamamilə mükəmməl və nöqsansız bir şəkildə ortaya çıxmışdır, ya da belə olmamışdır. Əgər belə olmayıbsa, onda bir dəyişiklik mərhələsi sayəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərinin təkamülü yolu ilə meydana gəlməlidirlər. Amma onlar əgər qüsursuz və mükəmməl bir şəkildə ortaya çıxıblarsa, o halda sonsuz güc sahibi bir ağıl tərəfindən yaradılmalıdırlar (Douglas J. Futuyma, ***Science on Trial***, Pantheon Books, New York, 1983, s. 197).

Daşlaşmış qalıqlar da canlıların Yer üzündə qüsursuz və mükəmməl şəkildə ortaya çıxdığını göstərir. Yəni **cinslərin mənşəyi Darvinin iddiasının əksinə olaraq təkamül deyil, yaradılışdır.**

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsini müdafiə edənlərin ən çox gündəmə gətirdiyi məsələ insanın mənşəyi məsələsidir. Bu məsələdəki darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər bəzi məxluqlardan əmələ gəldiyini bildirir. 4-5 milyon il bundan əvvəl başlandığı qəbul edilən bu mərhələdə müasir insanla onun əcdadları arasında bəzi "ara forma"ların yaşadığı iddia olunur. Həqiqətdə isə bütünlüklə xəyali olan bu ssenaridə dörd əsas "kateqoriya" sadalanır:

***1. Australopithecus***
***2. Homo habilis***
***3. Homo erectus***
***4. Homo sapiens.***

Təkamülçülər insanların guya ilk meymunabənzər əcdadlarına "cənub meymunu" mənasına gələn "australopithecus" adını verirlər. Bu canlılar həqiqətdə nəsli



tükənmiş bir meymun cinsindən başqa bir şey deyil. İngiltərə və ABŞ-dan olan lord Soli Zakerman (Lord Solly Zuckerman) və prof. Çarlz Oksnerd (Charles Oxnard) kimi dünyanın iki məşhur anatomistinin australorithecus nümunələri üzərində apardıqları çox əhatəli çalışmalar bu canlıların yalnız nəsli kəsilmiş bir meymun cinsinə aid olmasını və onların insanlarla heç bir oxşarlığa malik olmadığını göstərmişdir (Solly Zuckerman, ***Beyond The Ivory Tower***, Toplinger Publications, New York, 1970, ss. 75-94; Charles E. Oxnard, ′The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt", ***Nature***, c. 258, s. 389).

Təkamülçülər insan təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan olaraq təsnif edirlər. İddialara görə, homo sırasındakı canlılar australorithecus-lardan daha çox inkişaf etmişdilər. Təkamülçülər bu fərqli canlılara aid fəsilləri ard-

arda düzərək xəyali bir təkamül cədvəli təşkil edirdi. Bu cədvəl xəyalidir, çünki həqiqətdə bu müxtəlif siniflər arasında təkamül əlaqəsinin olduğu heç vaxt sübut edilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm müdafiəçilərindən biri olan Ernst Meyr (Ernst Mayr) "Homo sapiensə uzanan zəncir həqiqətdə İtkindir" deyərək bunu qəbul edir (J. Rennie, "Darwin's Current Bulldog: Ernst Mayr", ***Scientific American***, Aralgk 1992).

Təkamülçülər australorithecus-homo habilis-homo erectus-homo sapiens sıralamasını tərtibləyərkən bunların hər birinin ondan sonra gələnin atası olması təsvirini yaratmağa çalışırlar. Halbuki paleoantropoloqların son tapıntıları australopithecus, homo habilis və homo erectus-un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını sübut etmişdir (Alan Walker, ***Science***, c. 207, 1980, s. 1103; A. J. Kelso, ***Physical Antropology***, 1. baskg, J. B. Lipincott Co., New York, 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge University Press, Cambridge, 1971, s. 272).

Homo erectus sinifinə daxil edilən insanların bir hissəsi müasir dövrlərə qədər, homo sapiens neandertal və homo sapiens isə sapiens (müasir) insanla eyni şəraitdə yan-yana yaşamışlar (***Time***, dekabr 1996).

Bu isə əlbəttə, bu siniflərin bir-birinin əcdadı olması iddiasının qüvvədə qalmadığını aydın şəkildə ortaya qoyur. Harvard Universiteti (ABŞ) paleontoloqlarından Stefan Cey Quld (Sterhen Yay Gould) özü bir təkamülçü olsa da darvinizm nəzəriyyəsinin bu çətinliyini belə izah edir:

Əgər bir-biri ilə paralel olaraq yaşayan üç müxtəlif hominid (insanabənzər) cizgisi varsa, elə isə bizim nəsil ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən meydana çıxmış ola bilməz. Bunların biri digəri ilə müqayisə

ediləndə təkamül nəticəsində bir inkişaf ardıcıllığı göstərə bilmirlər (S. J. Gould, ***Natural History***, c. 85, 1976, s. 30).

Qısası, mətbuatda və ya dərs kitablarında qeyd edilən və xəyalların məhsulu olan bəzi "yarımeymun, yarıinsan" canlıların şəkilləri ilə, yəni ancaq təbliğat yolu ilə güclə saxlanmağa çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir.

Bu mövzunu uzun illər araşdıran, xüsusilə australopithecus fəsilləri üzərində 15 il tədqiqat aparan İngiltərənin ən məşhur və mötəbər alimlərindən biri lord Soli Zakerman özü bir təkamülçü idi, amma o da ortada meymunabənzər canlılardan insana gəlib çıxan həqiqi bir nəsil ağacının olmadığı nəticəsinə gəlmişdir.

Lord S.Zakerman bir də maraqlı bir "elm şkalası" hazırlamışdı. O, elmi olaraq qəbul etdiyi elm sahələrindən elmdən uzaq olaraq qəbul etdiyi elm sahələrinə qədər bir cədvəl təşkil etmişdi. Lord S.Zakermanın bu cədvəlinə görə, elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra biologiya elmləri, sonra da sosial elmlər yerləşir. Cədvəlin sonunda, yəni ən elmdən kənar hesab edilən hissədə isə telepatiya, "altıncı hiss" kimi "hissdənkənar dərk etmək" anlayışı, bir də "insanın təkamülü" vardır! Lord Zakerman cədvəlin bu hissəsini belə izah edir:

Obyektiv gerçəkliyin sahəsindən çıxıb da bioloji elm olaraq qəbul edilən bu sahələrə, yəni hissdənkənar idraka və insanın daşlaşmış tarixinin izah edilməsinə daxil olanda təkamül nəzəriyyəsinə inanan bir adam üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, öz nəzəriyyələrinə qəti olaraq inanan bu adamların hətta bəzi ziddiyyətli qərarları eyni anda qəbul etməsi də mümkündür (Solly Zuckerman,

***Beyond The Ivory Tower***, Toplinger Publications, New York, 1970, s. 19).

İnsanın təkamülü nağılı da öz nəzəriyyələrinə kor-koranə inanan bəzi insanların tapdıqları bəzi daşlaşmış qalıqları əvvəlcədən qəbul etdikləri fikirlərinə uyğun olaraq izah etməkdən ibarətdir.

## Darvin düsturu!

Bura qədər qeyd etdiyimiz bütün texniki sübutlarla yanaşı təkamülçülərin necə cəfəng bir inanca malik olmasını bir də uşaqların da başa düşəcəyi qədər aydın bir misalla xülasə edək.

Təkamül nəzəriyyəsi canlı aləmin təsadüfən meydana gəldiyini iddia edir. Dolayısı ilə bu iddiaya görə, cansız və şüursuz atomlar bir yerə yığılaraq əvvəlcə hüceyrəni, sonra da eyni atomlar hər hansısa bir şəkildə digər canlıları və insanı meydana gətirmişdir. İndi fikirləşək. Canlı aləmin əsasları olan karbon, fosfor, azot, potasium bircə canlı da meydana gətirə bilməzlər. İstəsəniz bu məsələdə bir "təcrübə" aparaq və təkamülçülərin əslində müdafiə etdikləri, ancaq uca səslə deyə bilmədikləri iddianı onların adından "Darvin düsturu" ilə incələyək.

Təkamülçülər canlı aləmin əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən çoxlu sayda böyük çənin içinə bol miqdarda qoysunlar. Hətta adi hallarda olmayan, ancaq bu qarışığın içində olmalıdır dedikləri bəzi ləvazimatları da bu çənə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər (təbii şəraitdə əmələ gəlməsi mümkün olmayan) aminosit, istədikləri miqdarda da (birinin də təsadüfən meydana gəlmə ehtimalı $10^{-950}$ olan) protein doldursunlar. Bu qarışığa istədikləri kimi istilik

və rütubət versinlər. Bunları istədikləri inkişaf etmiş cihazlarla qarışdırsınlar. Çənlərin yanına da bu dünyanın ən məşhur alimlərini dəvət etsinlər. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il davamlı olaraq çənlərin yanında gözləsinlər. Bir canlının meydana gəlməsi üçün hansı şərtləri mövcud olmasına inanırlarsa, hamısından istifadə etmək sərbəst olsun. Ancaq nə edirlərsə-etsinlər, o çənlərdən qətiyyən bir canlı çıxara bilməyəcəklər. Zürafələri, şirləri, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, yemişləri, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuzquşularını, qırqovulları, müxtəlif rəngli kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Burada adını qeyd etdiyimiz bu canlı varlıqların tək bir hüceyrəsini də əldə edə bilməzlər.

Qısası, şüursuz **atomlar bir yerə yığılaraq hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni bir qərar verərək bir hüceyrəni iki yerə ayıran, daha sonra bir-birinin ardınca fərqli qərarlar verən, elektron mikroskopunu kəşf edən, sonra öz hüceyrə quruluşunu bu mikroskopun altında incələyən professorları da əmələ gətirə bilməzlər.

**Maddə ancaq Allahın üstün yaratması ilə canlı ola, həyat tapa bilər.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə təfəkkür və idraka tamamilə zidd olan bir cəfəngiyyatdır. Təkamülçülərin ortaya atdığı iddialar ətrafında bir az düşünmək haqqında yuxarıda danışılan nümunədə olduğu kimi bu həqiqəti də aydın şəkildə göstərir.

## Gözdəki və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin heç vaxt izah edə bilməyəcəyi



başqa bir məsələ isə gözdəki və qulaqdakı mükəmməl hissetmə (lamisə) keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "necə görürük?" sualına qısa da olsa cavab verək. Bir cisimdən gələn şüalar gözə tərs olaraq düşürlər. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa tərəfindəki görmə mərkəzi deyilən kiçik bir nöqtəyə ötürülür. Bu elektrik siqnalları sıra ilə davam edən icraatlardan sonra beyindəki bu mərkəzdə görüntü olaraq hiss edilir və görülür.

Bu məlumatdan sonra indi bir az fikirləşək. Beyin işıq üçün qapalıdır. Yəni beynin içi qapqaranlıqdır, işıq beynin olduğu yerə qədər gedib çıxa bilməz. Görüntü mərkəzi deyilən yer zülmət qaranlıq, işığın heç vaxt çata bilmədiyi, bəlkə də heç vaxt rast gəlmədiyiniz qədər qaranlıq bir yerdir. Ancaq siz bu zülmət qaranlığında işıqlı, parlaq bir dünyanı seyr edirsiniz. Həm də bu o qədər aydın və keyfiyyətli bir görüntüdür ki, XXI əsrin texnologiyası da hər cür imkan sahibi olmasına baxmayaraq bu görüntünü əldə edə bilməmişdir. Məsələn, hazırda oxuduğunuz kitaba, kitabı

tutan əllərinizə baxın. Sonra başınızı qaldırın və ətrafınıza nəzər salın. İndi gördüyünüz aydınlıq və keyfiyyətdəki bu görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın bir görüntünü sizə dünyanın bir nömrəli televizor şirkətinin istehsal etdiyi ən mükəmməl televizor ekranı da verə bilməz. 100 ildir minlərlə mühəndis bu aydınlığı əldə etməyə çalışır. Bunun üçün fabriklər, nəhəng təsisatlar qurulur, tədqiqatlar aparılır, planlar və layihələr hazırlanır. Yenə də bir televiziya ekranına baxın, bir də əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizor ekranı sizə ikiölçülü bir görüntü göstərir, halbuki siz üçölçülü, dərin bir perspektivi görürsünüz.

Uzun illərdir on minlərlə mühəndis üçölçülü televizor hazırlamağa, gözün görmə keyfiyyətinə yiyələnməyə səy göstərir. Bəli, üçölçülü televizor sistemini hazırlaya bildilər, ancaq onu da eynəksiz görmək mümkün deyil. Bu eyni zamanda süni bir üçölçülü sistemdir. Arxa tərəf daha bulanıq, qarşı tərəf isə kağızdan hazırlanmış dekorasiya kimi görünür. Heç vaxt gözün gördüyü qədər dəqiq və keyfiyyətli bir görüntü ola bilməz. Kamerada da, televizorda da mütləq görüntü itkisi baş verir.

Təkamülçülər bu keyfiyyətli və dəqiq görüntünü təşkil edən mexanizmin təsadüfən meydana gəldiyini iddia edirlər. İndi bir adam sizə otağınızın bir küncündəki televizorun təsadüflər nəticəsində meydana gəldiyini, “atomlar bir yerə toplandı və bu göstərən cihazı meydana gətirdi” desə, nə fikirləşərsiniz? Minlərlə adamın bir yerə yığışaraq düzəldə bilmədiyini şüursuz atomlar necə edə bilər?

Gözün gördüyündən daha ibtidai olan bu görüntünü meydana gətirən cihaz təsadüfən meydana gəlmirsə, gözün

və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi aydın məsələdir.

Bu məsələ qulaq üçün də eynidir. Xarici qulaq ətrafdakı səsləri qulaq çömçəsi vasitəsilə yığıb orta qulağa ötürür. Orta qulaq aldığı səs tirtəyişlərini gücləndirərək daxili qulağa ötürür. Daxili qulaq da bu titrəyişləri elektrik siqnallarına döndərərək beyinə göndərir. Eynilə görmə məsələsində olduğu kimi eşitmək icraatları da beyindəki eşitmə mərkəzində həyata keçir.

Gözdəki vəziyyət qulaq üçün də qüvvədə qalır, yəni beyin işığa olduğu kimi səsə də qapalıdır, səsi keçirmir. Dolayısı ilə ətraf nə qədər gurultulu da olsa beynin içi tamamilə səssizdir. Buna baxmayaraq ən dəqiq səslər beyində hiss edilir. Səs keçirməyən beynimizdə bir orkestrin simfoniyalarını eşidərsiniz, izdihamlı bir məkanın bütün gurultusunu eşidərsiniz. Ancaq həmin anda həssas bir cihazla beynimizin içindəki səs səviyyəsi ölçülsə, burada mütləq bir səssizliyin hakim olduğu görünəcək.

Dəqiq bir görüntü əldə edə bilmək üçün indiyə qədər texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər onlarla ildir ki, davam edir. Səsi qeyd etmək cihazları, çoxlu elektrik aləti, səsi qeyd edən musiqi sistemləri bu səylərin bəzilərinin nəticələridir. Ancaq bütün texnologiyaya, bu texnologiyada işləyən minlərlə mühəndisə və mütəxəssisə baxmayaraq qulaqdakı dəqiq və keyfiyyətli bir səs əldə edilməmişdir. Ən böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi alətini fikirləşin. Səsi qeyd edəndə mütləq səsin bir hissəsi itir və ya az da olsa mütləq xışıltı əmələ gəlir. Musiqi cihazını açanda musiqi başlamamışdan əvvəl bir xırıltılı səsi mütləq eşidəcəksiniz. Ancaq insan bədənindəki texnologiyanın məhsulu olan səslər

çox dəqiq və qüsursuzdur. Bir insan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi xırıltılı və ya pozuntulu səs hiss etməz, səs necədirsə, onu tam və dəqiq olaraq eşidir. Bu vəziyyət insan yaradıldığı gündən indiyə qədər bu cürdür.

Bu günə qədər insan oğlunun istehsal etdiyi, hazırladığı heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və uğurlu bir lamisə sistemi ola bilməmişdir.

Ancaq görmə və eşitmə hadisəsində bütün bunlardan başqa çox böyük həqiqət var.

## Beynin içindəki görən və eşidən şüur kimə aiddir?

Beynin içində cürbəcür rəngli bir dünyanı seyr edən, simfoniyaları, quşların səsini eşidən, çiçəkləri iyləyən kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn xəbərdarlıqlar elektrik siqnalı olaraq beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə meydana gəlməsinə dair çoxlu təfərrüatlar oxuya bilərsiniz. Ancaq bu məsələ haqqındakı həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz ki, beyində bu elektrik siqnallarını görüntü, səs, iy və hiss olaraq qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyni təşkil edən sinirlərə, yağ təbəqəsinə və sinir hüceyrələrinə aid deyil. Buna görə də hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist materialistlər bu suallara heç vaxt cavab verə bilmir. Çünki bu şüur Allahın yaratdığı ruhdur. Ruh görüntünü seyr etmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyac hiss etməz. Bunlardan da başqa fikirləşmək üçün beyinə də ehtiyacı

olmaz.

Bu aydın və elmi həqiqətləri oxuyan hər bir insanın beynin daxilindəki bir neçə santimetrlik, qapqaranlıq məkana bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı olaraq sığışdıran Allahı fikirləşib, Ondan qorxub Ona sığınması lazımdır.

## Materialist inanc

Bura qədər araşdırdıqlarımız təkamül nəzəriyyəsinin elmi kəşflərlə açıq şəkildə ziddiyyət təşkil edən bir iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, ortaya atdığı təkamül mexanizmlərinin heç bir təkmilləşdirici təsiri yoxdur və dünyanın daşlaşmış qatları darvinizm nəzəriyyəsinin vacib saydığı keçid formalarının yaşamadıqlarını göstərir. Belə də təkamül nəzəriyyəsinin əlbəttə ki, elmə zidd bir fikir kimi kənara atılması lazımdır.

Tarix boyu təkamül modeli kimi bir çox düşüncə sistemi elmin gündəmindən çıxarılmışdır. Amma təkamül nəzəriyyəsini təkidlə elmi gündəmə gətirmək istəyirlər. Hətta bəzi adamlar bu nəzəriyyənin tənqidini “elmə hücum” kimi qələmə verməyə çalışır. Görəsən nəyə görə?

Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi mühitlər üçün heç cür əldən buraxılmayacaq ehkamçı bir inanc olmasıdır. Bu adamlar materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiətə verilə biləcək yeganə materialist izah olduğu üçün mənimsəyirlər.

Bəzən bunu açıq şəkildə etiraf da edirlər. Harvard Universitetindən məşhur genetik və tanınmış təkamülçü olan Riçard Levontin “əvvəlcə materialist, sonra alim” olduğunu belə etiraf edir:

Bizim materializmə bir etiqadımız var, aprior (əvvəlcədən qəbul edilmiş, doğru sayılan, təcrübədən asılı olmayan, təcrübədən qabaq mövcud olan) bir inancdır bu. Bizi dünyaya materialist bir açıqlama gətirməyə məcbur edən şey elmin istiqamət və qaydaları deyil. Əksinə, materializmə olan aprior bağlılığımız üzündən dünyaya materialist açıqlama gətirən araşdırma üsullarını və qavramları təqdir edirik. Materializm mütləq doğru olduğuna görə də ilahi bir açıqlamanın səhnəyə daxil olmasına icazə verə bilmərik (Richard Lewontin, "The Demon-Haunted World", ***The New York Review of Books***, 9 yanvar 1997, s. 28).

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq ucbatından yaşadılan bir ehkam olmasının açıq ifadəsidir. Bu ehkam maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Buna görə də cansız, məntiqsiz maddənin həyatı yaratdığına inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, qaplanların, böcəklərin, ağacların, çiçəklərin, balinaların və insanların cansız maddənin öz içindəki dəyişikliklərə, yəni yağan yağışla, çaxan şimşəklə onun içindən meydana gəldiyini qəbul edir. Həqiqətdə isə bu, həm ağla, həm də elmi gerçəkliklərə zidd qənaətdir. Amma darvinistlər “ilahi bir açıqlamanın səhnəyə girməməsi” üçün bu qənaəti müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə əvvəlcədən qəbul edilmiş materialist düşüncə ilə baxmayan hər kəs isə bu açıq gerçəyi görəcəkdir: “Bütün canlılar üstün bir gücə, məlumata və ağla sahib olan bir Yaradanın əsərləridir. O Yaradan bütün kainatı yoxdan var edən, canlıları da yaradıb şəkilləndirən Allahdır”.

## Təkamül nəzəriyyəsi bəşər tarixinin ən təsirli sehridir

Burada bunu da bildirmək lazımdır ki, əvvəlcədən qəbul edilmiş mənfi fikirləri olmayan, heç bir ideologiyanın təsiri altında qalmayan, ancaq ağlını və məntiqini işlədən hər bir insan elmdən və mədəniyyətdən uzaq olan cəmiyyətlərin xurafatlarını əks etdirən təkamül nəzəriyyəsinin inanılması mümkün olmayan bir iddia olduğunu asanlıqla başa düşəcəkdir.

Yuxarıda da qeyd etdiyimiz kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə çoxlu atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışmasından vaxt ərzində fikirləşən, dərk edən, kəşflər edən professorların, tələbələrin, Eynşteyn, Hubbl kimi elm adamlarının, Frenk Sinatra, Çarlton Heston kimi sənətçilərin, bununla yanaşı ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəni, təhsilli insanlardır. Buna görə də təkamül nəzəriyyəsi üçün "dünya tarixinin ən böyük və ən təsirli sehri" ifadəsini işlətmək daha münasib olacaq. Çünki bəşər tarixində insanların ağlını başından bu dərəcədə alan, ağıl və məntiqlə fikirləşməsinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan bir başqa inanc və ya iddia da yoxdur. Bu, qədim misirlilərin günəş tanrısı Raya, bəzi afrikalı qəbilələrin totemlərə, Səba xalqının günəşə sitayiş etməsindən, Hz. İbrahimin tayfasının öz əlləri ilə düzəltdiyi bütlərə, Hz.Musanın xalqının qızıldan düzəltdiyi buzova sitayiş etməsindən daha dəhşətli və qəbuledilməz bir korluqdur. Həqiqətdə bu vəziyyət Allahın Quranda işarə etdiyi bir ağılsızlıqdır. Allah bəzi insanların idrak

qabiliyyətinin qapanacağını və həqiqətləri görməkdən aciz vəziyyətə düşəcəyini əksər ayələrində bildirir. Bu ayələrdən bəziləri bunlardır:

**"Həqiqətən, inkar edənləri əzabla qorxutsan da, qorxutmasan da onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir!"** ("Bəqərə", 26-7).

**"...Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!"** ("Əraf", 7179).

Allah başqa ayələrdə isə bu insanların möcüzələr görsələr də inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**"Əgər onlara göydən bir qapı açsaq və onunla durmadan yuxarı dırmaşsalar, yenə də "Gözümüz bağlanmış, biz sehrlənmişik" deyərlər"** ("Hicr", 1514-15).

Bu qədər geniş bir kütlənin üzərində bu sehrin təsirli olması, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildir bu sehrin pozulmaması isə sözlərlə deyilə bilməyəcək qədər heyrətamiz bir vəziyyətdir. Çünki bir və ya bir neçə insanın imkan xaricində olan ssenarilərə, cəfəngiyyat və məntiqsizliklərlə dolu iddialara inanması aydın ola bilir. Ancaq dünyanın dörd bir tərəfindəki insanların şüursuz və cansız atomların ani bir qərarla bir yerə yığılıb, fövqəladə bir təşkilatlanma, nizam-intizam, ağıl və şüur göstərib qüsursuz bir sistemlə işləyən kainatı, canlı aləm üçün uyğun olan hər cür xüsusiyyətə sahib olan Yer planetini və saysız kompleks sistemlə təchiz edilmiş canlıları meydana

gətirdiyinə inanmasının sehrdən başqa bir izahı və adı yoxdur.

Həmçinin Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi adamların etdiyi sehrlərlə insanları təsir altına aldıqlarını Hz.Musa və Firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz.Musa Firona haqq dini başa salanda Firon Hz.Musaya öz "elmli sehrbazları" ilə insanların yığışdıqları bir yerdə qarşılaşmalarını istəyir. Hz.Musa sehrbazlarla qarşılaşanda əvvəlcə sehrbazlara onların mərifətlərini göstərməsini əmr edir:

**"(Musa:) "Siz atın!" dedi. Onlar (əllərindəkini yerə) atdıqda adamların gözlərini bağlayıb onları qorxutdular və böyük bir sehr göstərdilər"** ("Əraf", 7116).

Göründüyü kimi, Fironun sehrbazları gözbağlamalarla - Hz.Musa və ona inananlar istisna olmaqla - insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarının əvəzində Hz.Musanın göstərdiyi dəlil onların bu sehrini, ayələrin ifadəsi ilə desək, "uydurub düzəltdikləri bütün şeyləri udmuş", yəni təsirsiz hala gətirmişdir:

**"Biz də Musaya: "Əsanı tulla!" deyə vəhy etdik. Bir də baxıb gördülər ki, əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. Sehrbazlar orada məğlub edildilər və xar olaraq geri döndülər"** ("Əraf", 7117-119).

Ayədə də bildirildiyi kimi, əvvəl insanları sehrləyərək öz təsiri altına bu adamların etdiklərinin bir saxtakarlıq olmasının üzə çıxıb təsdiqlənməsindən sonra qeyd edilən adamlar pis vəziyyətə düşmüşdülər. Günümüzdə də bir sehrin təsiri ilə elm pərdəsi altında çox cəfəng iddialara

inananlar və bunları müdafiə etməyə həyatlarını həsr edənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə açığa çıxanda və "sehr pozulanda" onlar da pis vəziyyətə düşəcəklər.

Təkamül nəzəriyyəsini müdafiə edən və ateist bir filosof olan Malkolm Maqqric (Malcolm Muggeridge) belə bir vəziyyətdən qorxduğunu belə etiraf edir:

**Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrin gələcəyin tarix kitablarındakı ən böyük gülünc vəziyyətlərdən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən olan bir hipotezin inanılmaz bir sadəlövhlüklə qəbul edilməsini heyrət içində qarşılayacaqlar (Malcolm Muggeridge, ***The End of Christendom***, Grand Rapids: Eerdmans, 1980, s. 43).

Bu gələcək uzaqda deyil, əksinə, çox yaxın bir gələcəkdə insanlar "təsadüflər"in tanrı ola bilməyəcəyini başa düşəcəklər və təkamül nəzəriyyəsi bəşər tarixinin ən böyük yalanı və ən şiddətli sehri olaraq tanıdılacaq. Bu şiddətli sehr böyük sürətlə dünyanın dörd bir tərəfində özünün insanlar üzərindəki təsirini azaltmağa başlamışdır. Təkamül yalanının sirrini öyrənən əksər insanlar bu yalana necə inandıqlarını heyrət və təəccüb içində götür-qoy edirlər.

**"Sən pak və müqəddəssən!**
**Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. Hər şeyi bilən, hökm və hikmət sahibi Sənsən"**
("Bəqərə", 2/32).